Xalqın qəzeti!

Xalq qəzeti

№ 42 (30446) 24 fevral 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

Qarabağ layihələri Azərbaycanın güc və qüdrətini təcəssüm etdirir

Ölkəmiz erməni vandalların yıxdığı bölgəni təkbaşına dikəldir

Artıq 3 ildən çoxdur ki, ölkəmizin işğaldan azad olunan torpaqlarında bərpa-quruculuq layihələri Böyük Qayıdış üzrə strateji çərçivədə həyata keçirilir. Keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdırılması həmin ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənir, yəni yaşayış sahələrinin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatələnməsi qarşıya mühüm vəzifə kimi qoyulur.

Yeni şəhərsalma prinsipləri nəzərə alınmaqla düşməndən təmizlənən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayış və qeyri-yaşayış komplekslərinin inşası sürətlə aparılır. Bu prosesdə isə əsasən, "ağıllı şəhər və ağıllı kənd" konsepsiyalarının gerçəkləşdirilməsi önə çəkilir.

Bölgədə iqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən, rəqabətli istehsal sahələrinin səmərəli fəaliyyəti müasir infrastrukturun qurulması ilə gerçəkləşdirilir. Prioritet istiqamətlərdə sahibkarlara geniş çeşidli stimullar verilir, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə prinsipləri geniş tətbiq olunur, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılması diqqətdə saxlanılır. Ekoloji təmiz və iqtisadi cəhətdən səmərəli bərpaolunan enerji mənbələrindən istifadəyə geniş yer ayrılır. Nəticədə, ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilən ərazilərin payı davamlı şəkildə artır. Bu, statistik göstəricilərdə də öz ifadəsini tapır.

(ardı 7-ci səhifədə)

İrəvanın seçimi: ya döz, ya da düz!

Ermənistan hakimiyyəti Moskva ilə üzülüşməyə "Zvartnos"dan rus sərhədçilərini çıxarmaqla start verəcək?

"Əgər belə davam edərsə, yaxın gələcəkdə dövlətçiliyə vida edəcəyik. Ermənistanın suverenliyini rus əsgərləri qoruyur, amma İrəvan Fransa və Amerikaya doğru baxır... Onlar "Dağlıq Qarabağdakı" (?) məğlubiyyəti unudaraq, Türkiyə və Azərbaycan tərəfindən parçalanmaq üçün təslim olmağa belə hazırdırlar. Bu, Paşinyan hökumətinin imicidir. Bu, Ermənistandakı mövcud faciəli vəziyyətdir".

Bu fikirlər Ermənistanın "Hraparak" nəşrində dərc olunan məqalədən götürülüb. Qəzet yazır ki, dost olmayan ölkələrin siyahısını tərtib edən Kreml bölgədə təsir dairəsini bərpa etməkdən ötrü kifayət dərəcədə aktiv addımlar atıb: "Bunun ən son nümunəsi 4 ildən sonra Rusiya ilə Gürcüstan arasında viza rejiminin götürülməsi və aviasiya əlaqəsinin bərpası oldu. İki ölkə arasında birbaşa uçuşların bərpasının əleyhdarları baş verənləri Rusiyanın növbəti ekspansiyası hesab edir və qeyd edirlər ki, Rusiya tankları və raketləri Ukraynadadırsa, təyyarələri Tiflisdədir". Məqalədə, faktiki olaraq, Ermənistanın da oxşar duruma düşdüyü deyilir: "Paşinyan hökumətinin Qarabağdakı rus sülhməramlılarını açıq tənqid etməsi, KTMT-dən küskünlüyü, onu tərk edəcəyi yönündə eyhamları anti-Kreml hərəkətləri sayılır. İrəvanla Bakı arasında sülh sazişi imzalandıqdan sonra Gümrüdəki 102-ci hərbi hissənin, eləcə də Qarabağdakı rus sülhməramlıların çıxarılacağı barədə də söhbətlər gəzir".

(ardı 5-ci səhifədə)

Avropa Azərbaycandan "yaşıl enerji"gözləyir

Yaxın gələcəkdə Azərbaycandan Avropaya ilkin mərhələdə 4 qiqavat həcmində "yaşıl enerji" ixracı nəzərdə tutulur. Bu fikri Azərbaycanın energetika nazirinin müavini Kamal Abbasov Beynəlxalq Enerji Forumunun ev sahibliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilmiş "Enerjiyə baxış üzrə 14-cü Beynəlxalq Enerji Agentliyi – Beynəlxalq Enerji Forumu – Neft İxrac Edən Ölkələr Təşkilatı Simpoziumu"nda çıxışı zamanı bildirib.

(ardı 7-ci səhifədə)

Fransa İrəvanı müharibəyə sürükləməkdən əl çəkmir

Parisdə anlamalıdırlar ki, Ermənistan dağıdılmış ordu ilə savaşa bilməz

Ermənistan baş naziri Nikol Paşinyanın fevralın 21-22-də Parisə etdiyi ikigünlük işgüzar səfər əvvəlcədən proqnozlaşdırıldığı kimi, Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasına deyil, bölgədə yeni gərginlik ocağının yaranmasına gətirib çıxardı. Paşinyan Parisdən ayrılar-ayrılmaz Fransanın müdafiə naziri Sebastian Lekornu İrəvana rəsmi səfərə gəldi.

Səfər Azərbaycanda diqqətlə izlənildi. Bu da təsadüfi deyil. Məsələ ondadır ki, Ermənistan son illərdə Fransa və Hindistandan xeyli silah-sursat alıb. Proses son vaxtlar daha intensiv xarakter daşıyır. İrəvan həmin silahların müdafiə xarakteri daşıdığını və Azərbaycana qarşı yönəlmədiyini bildirir. Amma bu fikirlərə inanmaq çətindir. Ona görə ki, Ermənistan 30 ilə yaxın işğalçılıq siyasəti yürüdüb. Azərbaycanın Qarabağ bölgəsini və ona bitişik rayonlarını işğal altında saxlayıb. Həmin torpaqlardan öz xoşu ilə çıxmayıb.

(ardı 8-ci səhifədə)

Səhifə ⇨ 9

Rusiya–Ukrayna savaşı: aşkar və gizli məqamlar

Rusiya ilə Ukrayna arasında 2 il əvvəl başlanan savaş planetimizdə İkinci Dünya müharibəsindən sonrakı dönəmdə ən böyük silahlı qarşıdurmadır. 2022-ci il fevralın 24-də bu müharibə başlayanda çoxları onun cəmi bir neçə gün, uzağı bir həftə çəkəcəyini ehtimal edirdilər.

(ardı 11-ci səhifədə)

Qalib lider Azərbaycanı işıqlı gələcəyə aparır

Səhifə ⇨ 6

Lokal müharibələr daha geniş xarakter aldıqca dünyanın mütərəqqi düşüncəli intellekt sahibləri planetin taleyi üçün ciddi narahatlıq keçirməyə başlayırlar. Bu mənada günün ən aktul müzakirə mövzularından biri nüvə silahının nə vaxtsa işə düşməsi və bəşəriyyətin fəlakətə sürüklənə biləcəyi ehtimalları ilə bağlıdır.

(ardı 11-ci səhifədə)

"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq yaşayış sahələrinin tikintisi ilə məşğul olan subyektlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə **qərara alıram:**

"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 – "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 4.1.6-cı yarımbəndinə "dövriyyə" sözündən əvvəl "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahələrinin tikintisi məqsədilə dövriyyə vəsaitlərinin maliyyələşdirilməsi üçün alınmış kreditlər istisna olmaqla," sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş Əlavə 5 – "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası"nın 3.2-ci bəndinə (birinci halda) "miqdarında," sözündən sonra "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahələrinin tikintisi fəaliyyəti ilə məşğul olan sahibkara," sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 fevral 2024-cü il

S.M.Rzayevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samir Musa oğlu Rzayev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2024-cü il

S.M.Rzayevin "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Samir Musa oğlu Rzayev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2024-cü il

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Tailand xalqı adından Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm.

Seçkilərdə inamlı qələbəniz Sizin rəhbərliyinizə və siyasətinizə xalqınızın etimadının bariz təsdiqidir. Biz ölkələrimiz arasında dostluq münasibətlərini və sıx əməkdaşlığı yüksək qiymətləndiririk. Əminəm ki, Zati-alinizin dəstəyi ilə qarşıdakı illərdə Tailand-Azərbaycan dostluq münasibətləri və əməkdaşlığı daha da möhkəmlənəcəkdir.

Hörmətlə,

Maha VAÇİRALONQKORN,
Tailand Kralı

***

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə Tailand Krallığının Hökuməti və xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Əminəm ki, sizin davamlı liderliyiniz Azərbaycan Respublikasına və onun xalqına daha böyük firavanlıq və tərəqqi gətirəcək. Mənim hökumətim Zati-alinizlə ölkələrimizin və xalqlarımızın qarşılıqlı mənafeyi naminə dostluq əlaqələrimizi daha da inkişaf etdirməkdə maraqlıdır.

Bu fürsətdən istifadə edərək, Sizə gələcək fəaliyyətinizdə davamlı uğurlar arzu edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

Hörmətlə,

Settxa TXAVİSİN,
Tailand Krallığı Baş naziri

***

Hörmətli cənab Prezident!

Qardaş Azərbaycan xalqının prezident seçkilərində Sizə bir daha etimad göstərməsini böyük məmnunluq hissi ilə qarşıladım.

Ulu öndərimiz Heydər Əliyevin bu ali dövləti vəzifənizdə indiyədək müvəffəqiyyətlə davam etdirdiyiniz irsini daha da irəliyə aparacağınıza ürəkdən inanıram. Bu xüsusda seçkilərdə qazandığınız zəfər münasibətilə Zati-alinizi ürəkdən təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycan Ordusunun və xalqının göstərdiyi cəsarət və əzm nəticəsində Qarabağın işğaldan azad edilməsini sonsuz sevinc və qürur hissi ilə izləmişəm. Heç şübhəsiz ki, bu şanlı Zəfər bütün Türk dünyasının daha sıx birləşməsi istiqamətində dönüş nöqtəsidir.

Qarabağ Zəfəri göstərdi ki, Azərbaycan siyasi, iqtisadi və hərbi sahələrdə bölgədə lider ölkədir. Bundan sonrakı müddətdə həmin Zəfərin sülh müqaviləsi ilə taclandırılması problemlərin ortaq iradə və konstruktiv düşüncə ilə birdəfəlik həllinin mümkünlüyünü bütün dünyaya göstərəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-alinizi yenidən Prezident seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və ailənizə, bütün Azərbaycan xalqına əmin-amanlıq arzulayıram.

Hörmətlə,

Abdullah GÜL,
Türkiyə Respublikasının 11-ci Prezidenti

Hörmətli Prezident Əliyev!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Oklahoma ştatı ilə Azərbaycan arasındakı Milli Qvardiya Dövlət Tərəfdaşlıq Proqramının uğurunu böyük qürur hissi ilə qeyd edirəm. Güclü əlaqələrimiz və iyirmi ildən artıqdır ki, birgə həyata keçirdiyimiz əməkdaşlıq təşəbbüslərimiz xüsusilə də mədəni dəyərlərin təbliğində və hərbçilərimizin bacarıqlarının artırılmasında mühüm irəliləyişlərə gətirib çıxarıb. Əməkdaşlığımızı daha da dərinləşdirmək və qarşılıqlı inkişafı təşviq etmək yolunda bundan sonra da birgə fəaliyyət göstərəcəyimizə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

Hörmətlə,

Con Kevin STİTT,
Amerika Birləşmiş Ştatlarının
Oklahoma ştatının qubernatoru

***

Zati-aliləri cənab Prezident!

Prezident seçkilərində qələbəniz münasibətilə Sizə öz adımdan və Lyublyana şəhərinin rəhbərliyi adından səmimi təbriklərimizi çatdırıram.

Xalqın etimadını və inamını qazanaraq əldə etdiyiniz qələbə Sizin fədakarlığınızın, uğurlu liderliyinizin və Azərbaycan Respublikasının gələcəyi ilə bağlı baxışınızın göstəricisidir. Əminəm ki, Sizin növbəti səlahiyyət müddətiniz də rifah, nailiyyətlər və xalqın arzularının reallaşdırılması ilə əlamətdar olacaq. İnanırıq ki, bu yeni müddətdə də müdriklik və xeyirxahlıq Sizin fəaliyyətinizin əsas qayəsi olacaq.

Azərbaycan Respublikasının vətəndaşları ilə birlikdə mən də Sizin rəhbərliyinizlə əldə ediləcək bütün nailiyyətləri və gələcək inkişafı səbirsizliklə gözləyirəm. Odlar Yurdunda alovun heç vaxt sönməməsini arzulayıram.

Sizə uğurlar diləyirəm.

İstənilən zaman Lyublyana şəhərinə dəvətlisiniz.

Hörmətlə,

Zoran YANKOVİÇ,
Sloveniya Respublikası
Lyublyana şəhərinin meri

***

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

On üzvü olan İqtisadi Əməkdaşlıq Təşkilatının ixtisaslaşmış agentliyi - Mədəniyyət İnstitutu Sizin liderliyinizi və Azərbaycan xalqına xidmətlərinizi yüksək qiymətləndirir. İnanırıq ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə daha da inkişaf edəcəkdir.

Azərbaycan təşkilatımızın üzvü olan ölkələrin inkişafına və inteqrasiyasına mühüm töhfə verir. Biz inanırıq ki, Azərbaycanın dəstəyi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında mədəni mübadilənin və əməkdaşlığın təşviqində kollektiv səylərimizi əhəmiyyətli dərəcədə gücləndirəcək.

Seçkilərdə inamlı qələbəniz münasibətilə Sizə bir daha səmimi təbriklərimi çatdırır, qarşıdakı illərdə də Azərbaycan hökuməti ilə sıx əməkdaşlığımıza ümidvarıq.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramlarımı qəbul edin.

Saad XAN,
İqtisadi Əməkdaşlıq Təşkilatı
Mədəniyyət İnstitutunun prezidenti

Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Yaponiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti

Bakı şəhəri, 21 fevral 2024-cü il

F.F.Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Fikrət Fərrux oğlu Məmmədov Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilsin.

Sahibə QAFAROVA,
Azərbaycan Respublikası
Milli Məclisinin sədri

Bakı şəhəri, 23 fevral 2024-cü il

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

2024-cü ilin mart ayında vətəndaşların qəbulu cədvəli

Qəbulu aparan şəxs	Qəbul günü
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Əliyeva Fərəh Şirməmməd qızı	1
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Əmirov Natiq Ərziman oğlu	4
Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi Həsənov Altay Tofiq oğlu	5,7,12
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hacıyev Hikmət Fərhad oğlu	5
Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi Qasımov Azər Məhəmməd oğlu	5
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Ələsgərov Fuad Murtuz oğlu	6,18
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Nağdəliyev Zeynal Səfər oğlu	7
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi	11
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri Həsənov Kərəm Əvəz oğlu	12
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Vəliyev Ədalət Məqsəd oğlu	12
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Məcidov Tələt Tahir oğlu	13
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Məmmədəliyev Yusuf Ülfət oğlu	13
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri İsmayılov Süleyman Abbas oğlu	14
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Mövsümov Şahmar Arif oğlu	15
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru	19
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi	19
Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi Hüseynov Emin Zamin oğlu	27
Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Kərimov Aydın Zöhrab oğlu	27
Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Hacıyev Vahid Rasim oğlu	28
Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi Məmmədov Məsim Əhməd oğlu	28
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Kərimov Gündüz Hacı oğlu	29
* * *	
Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Usubov Ramil İdris oğlu	29

Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.

Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.

Qəbul saat 14:00-dan başlayır.

Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.

Əli Əsədovun Numan Kurtulmuşla görüşü

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 23-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib.

İki ölkə arasında əlaqələrin dövlət başçılarının səyləri nəticəsində strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı bildirilib.

Dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ilk rəsmi səfərini Türkiyə Respublikasına etməsinin önəmi qeyd olunub, bunun iki ölkə rəhbərliyi arasında bir ənənəyə çevrilməsindən məmnunluq ifadə edilib.

Eyni zamanda, Azərbaycan–Türkiyə əlaqələrinin beynəlxalq təsisatlar çərçivəsində müvəffəqiyyətlə inkişaf etdiyi bildirilib, xüsusilə Türk Dövlətləri Təşkilatının regional və beynəlxalq gücə çevrilməsi yolunda atılan birgə addımların əhəmiyyəti vurğulanıb.

Tərəflər dövlətlərarası münasibətlərin inkişafında parlamentlərin rolunu qeyd edib, Milli Məclislə Türkiyə Böyük Millət Məclisi arasında qarşılıqlı faydalı əməkdaşlığı yüksək qiymətləndiriblər.

Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında quruma sədrliyin Türkiyədən Azərbaycana keçməsinin əhəmiyyətinə toxunan Ə.Əsədov Türkiyənin sədrliyi dövründə Assambleyanın beynəlxalq nüfuzunun daha da artdığını, qlobal sülh və inkişaf naminə parlamentlərarası əməkdaşlığın genişləndiyini bildirib.

Görüşdə, həmçinin Azərbaycan–Türkiyə münasibətlərinin ticarət-iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar, turizm və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Milli Məclisdə müzakirə və görüş

Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin qış sessiyası üzrə növbəti plenar iclası keçirildi. Gündəliyin təsdiqindən sonra cari məsələlərin müzakirəsi başlandı.

Deputat Vahid Əhmədov Prezident İlham Əliyevin yenidən dövlət başçısı seçilməsindən sonra ilk ciddi diplomatik sınağının fevralın 16-18-i arası keçirilən Münxen Təhlükəsizlik Konfransı olduğunu dedi. O, dövlət başçımızın iki gün ərzində çoxsaylı görüşlər keçirdiyini xatırladaraq, Azərbaycanın konfransdakı iştirakını kifayət qədər uğurlu adlandırıb.

Deputatlar digər məsələlərə də münasibətlərini bildirdikdən sonra spiker gündəliyə 10 məsələnin daxil edildiyini bildirdi. Birinci məsələnin "Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında" olduğunu diqqətə çatdıran S.Qafarova dedi ki, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, təqdimata parlamentdə müvafiq qaydada baxılmalıdır. Sonra o, Fikrət Məmmədovu peşəkar hüquqşünas və qanunun aliliyini həmişə uca tutan kadr kimi dəyərləndirdi.

Müzakirələrdən sonra təqdimat səsverməyə çıxarılaraq qəbul edildi. Fikrət Məmmədov daha sonra Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimi andını içdi.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2023-cü ildə fəaliyyəti haqqında" qanun layihəsini ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim etdi.

Müzakirələr ətrafında çıxış edənlər bələdiyyələrlə bağlı yeni qanunların hazırlandığından məmnun qaldıqlarını bildiriblər. Yeni qanunda nəzərdə tutulub ki, əhali sayı 3 min nəfərdən az olan bələdiyyələr birləşəcək. Bələdiyyələrin sayı azaldılır və onlar birləşdirilir.

Sənəd müzakirələrdən sonra səsverməyə çıxarılaraq qəbul edildi.

Sonra Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında", "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında", eləcə də gündəlikdəki digər qanun layihələri müzakirə olunaraq müvafiq qərar qəbul edildi.

*

Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Altayer ilə görüşüb.

Spiker APA -nın üzv dövlətlər arasında dialoq və əməkdaşlığın daha da genişləndirilməsi baxımından əlverişli platforma olduğunu qeyd edərək, paytaxtımızda keçirilən plenar sessiya çərçivəsində məhsuldar müzakirələr aparıldığını diqqətə çatdırıb.

Azərbaycanla BƏƏ arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən parlamentin Sədri deyib ki, dövlət başçıları səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər və görüşlər əlaqələrimizin dinamik inkişafında mühüm rol oynayır. Ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq və bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlığın davam etdirildiyi bildirilib. Azərbaycan və BƏƏ BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərirlər.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, APA, İƏT PA kimi təşkilatlarda fəal əməkdaşlığın bir sıra məsələlərin həllinə töhfəsi qeyd edilib.

Azərbaycanda fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyevin inamla qalib gəlməsi münasibətilə təbriklərini çatdıran Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası sədrinin birinci müavini ölkəsinin Azərbaycanla bir çox sahələrdə əməkdaşlığı daha da genişləndirmək niyyətində olduğunu söyləyib.

Bu il COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdıran qonaq deyib ki, bu tədbir beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının təzahürüdür. O, ölkəsinin ötən il bu mühüm tədbirə evsahibliyi etdiyini xatırladaraq, təşkilati işlərlə bağlı geniş təcrübəyə malik olduqlarını, dost və qardaş Azərbaycana hər cür dəstəyi göstərməyə hazır olduqlarını bildirib.

Ə.BƏDƏLOV
XQ

Asiya Parlament Assambleyasının Bakı sessiyası başa çatıb

Bakının evsahibliyi etdiyi Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyası fevralın 23-də işini başa çatdırıb.

Dünən plenar sessiya işini komitə iclasları ilə davam etdirib. Milli Məclisin deputatı Vüqar Bayramovun moderatorluğu ilə keçirilən Sosial və mədəni məsələlər daimi komitəsinin iclasında ötən dövrdə komitə tərəfindən görülən işlərdən, qəbul edilən qətnamə layihələrindən danışılıb. Azərbaycan nümayəndə heyətinin təşəbbüskarı və müəllifi olduğu "Qadınlar üzrə Komissiya haqqında" qərar layihəsi də üzv dövlətlər tərəfindən dəstəklənib və geniş müzakirə edilib.

İclasda, həmçinin "Asiyada mədəni müxtəlifliyin təşviqi və mədəni irsin qorunması üzrə tədbirlər haqqında", "İnformasiya və Kommunikasiya Texnologiyaları vasitəsilə Asiya İnteqrasiyasına dair", "Asiyada sağlamlıq bərabərliyi üzrə əməkdaşlıq haqqında", "Asiya parlamentarilərinin korrupsiyaya qarşı mübarizəsi haqqında", "Dünya dinlərinin ardıcılları arasında dialoqun və harmoniyanın təşviq edilməsi haqqında", "Asiyada mədəni sərvətlərin qaçaqmalçılığına qarşı mübarizədə hüquqi və qanunvericilik sahəsində əməkdaşlıq haqqında", "Asiyada narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə səmərəli əməkdaşlıq haqqında", "Asiyada davamlı cəmiyyət üçün keyfiyyətli uşaq və gənclərin inkişafının təşviqi haqqında" ,"Asiyada Yaşlanan Cəmiyyəti haqqında", "Asiyada İnsan İnkişafına dair", "Asiyada turizm əməkdaşlığı haqqında" qətnamə layihələri, həmçinin "Komissiya haqqında" və "APA-nın Qadın Parlamentarilər haqqında" qərar layihələri müzakirəyə çıxarılıb.

APA-ya üzv ölkələrin nümayəndələrinin müzakirə olunan mövzularla bağlı çıxışları dinlənilib və təkliflər səsləndirilib.

Siyasi məsələlər Daimi Komitəsinin iclasında isə Asiya parlamentlərinin Fələstin xalqına dəstək verməsi ilə bağlı qətnamə qəbul edilib. APA-da yeni – Fələstin komitəsinin yaradılması barədə də qərar verilib. Komitə iclaslarından sonra plenar sessiyanın bağlanış mərasimi keçirilib.

Mərasimdə əvvəlcə APA-nın İqtisadiyyat və davamlı inkişaf, Büdcə və Planlaşdırma, Sosial və mədəni məsələlər, Siyasi məsələlər üzrə daimi komitələrinin hesabat məruzələri dinlənilib.

Sonra Bəhreyn, İraq, Qətər, Rusiya Azərbaycanın sədrlik etdiyi APA-nın 2024-cü il üçün sədr müavinləri seçilib. Ərəb Parlamentləri Baş Katibləri Assosiasiyasının (ASGAP) APA-ya müşahidəçi statusu məsələsinə baxılıb və müvafiq qərar verilib.

Assambleyanın 14-cü sessiyasının sonunda Bakı Bəyannaməsi və yekun hesabatı qəbul edilib.

XQ

Hikmət Hacıyev: Ermənistan Xocalı soyqırımına görə məsuliyyət daşıyır

Xocalıda daha bir kütləvi məzarlıq aşkar edilib. Bəlkə də bu, ilahi ədalətdir ki, 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımının növbəti ildönümündə bu adsız və günahsız mülki qurbanların qalıqları tapıldı.

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X"də yazıb.

H.Hacıyev qeyd edib ki, onların kimliyi DNT analizi ilə müəyyən ediləcək:

"Ermənistanın hərbi təcavüzü nəticəsində dörd minə yaxın azərbaycanlı itkin düşmüş hesab olunur. Ermənistan kütləvi şəkildə qətlə yetirilən azərbaycanlıların dəfn olunduğu belə kütləvi məzarlıqların yeri barədə məlumatı verməkdən imtina edir. Bir dövlətin beynəlxalq hüquqa zidd olan hər bir hərəkəti beynəlxalq hüquqa uyğun olaraq həmin dövlətin beynəlxalq məsuliyyətinə əsas verir".

Prezident köməkçisi vurğulayıb ki, Ermənistan Xocalı soyqırımına və Azərbaycana qarşı törədilmiş digər qanunsuz hərəkətlərə görə dövlət olaraq məsuliyyət daşıyır:

"Ermənistan Respublikası 30 illik hərbi işğala və xüsusilə də Xocalı soyqırımına görə Azərbaycan xalqından və dövlətindən hələ də üzr istəməyib".

XQ

Konstitusiya Məhkəməsinin yeni hakimi Fikrət Məmmədov kollektivə təqdim edilib

Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin yeni təyin edilmiş hakimi Fikrət Məmmədov kollektivə təqdim olunub.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təqdimatına əsasən Milli Məclis tərəfindən Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin olunması münasibətilə Fikrət Məmmədovu təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. O, Konstitusiyanın aliliyinin təmin olunması və qorunması sahəsində atılan mühüm addımlardan bəhs edib.

Hakim Fikrət Məmmədov göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü ifadə edərək, hakimlik fəaliyyətində də səylərini əsirgəməyəcəyini bildirib.

XQ

Xocalıda soyqırımın yeni izləri aşkarlanıb

İşğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində – keçmiş xalça fabrikinin yaxınlığında aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması barədə fevralın 21-də Xocalı Rayon Prokurorluğuna məlumat daxil olub.

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, peşəkar əməkdaşlar hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib. Aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının, ən azı, 4 nəfərə (onlardan 1 nəfərin azyaşlı, yəni 4-5 yaşlı şəxsə məxsus olması ehtimal edilir) məxsus olması, onların işgəncələrə məruz qalması, əllərinin kəndirlə bağlanması və 25 il əvvəl basdırılması müəyyən edilib.

Hazırda hadisə yerinin tam müayinə edilməsi istiqamətində işlər davam etdirilir.

XQ

Xarici ölkələrdə Xocalını anım mərasimləri

Azərbaycanın Slovakiyadakı səfirliyi bu ölkədə yaşayan soydaşlarımızın iştirakı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirib.

Xocalıda və digər yaşayış məntəqələrində Ermənistan silahlı qüvvələrinin bölmələri və erməni terrorçu dəstələrinin törətdiyi cinayətlərdən söz açan səfir Vüsal Abdullayev bu qanlı əməllər nəticəsində çox sayda dinc azərbaycanlının milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirildiyini və amansız işgəncələrə məruz qaldığını qeyd edib.

Bildirilib ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınması məqsədilə davamlı olaraq həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən danışan diplomat Xocalıda baş vermiş bu qanlı cinayətin heç vaxt yaddaşlardan silinməyəcəyini vurğulayıb.

Sonra Xocalı soyqırımına həsr olunmuş sənədli televiziya filmi nümayiş etdirilib. Mərasim gənc Azərbaycan musiqiçisi Fərid Feyzullayevin ifasında konsert-rekviyem proqramı ilə davam edib.

*

Estoniyanın paytaxtı Tallində yerləşən İşğal və Azadlıq Muzeyində də Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Azərbaycanın Estoniyadakı səfirliyindən bildiriblər ki, anım tədbirində hər iki ölkənin parlamentinin deputatları, Türkiyə, Qazaxıstan, Moldova, Çin, Braziliya və Şimali Makedoniyanın bu ölkədəki səfirləri, həmçinin digər diplomatik nümayəndəliklərin təmsilçiləri, ictimai xadimlər, elm adamları, diaspor nümayəndələri və gənc fəallar iştirak ediblər.

Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri olduğunu qeyd edən səfir Anar Məhərrəmov bu hadisələrin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin göstəricisi olduğunu vurğulayıb. Qeyd edilib ki, bəşəriyyətə qarşı törədilən bu dəhşətli cinayət cəzasız qalmamalı və dünya ictimaiyyəti tərəfindən pislənməlidir.

XQ

Paşinyanın “France 24” sərsəmləmələri

“Dondurmaq və şərləmək”də Azərbaycanı və Rusiyanı eyni gözlə görməkdə məqsəd nədir?

Ermənistan baş naziri Nikol Paşinyan “France 24” telekanalına müsahibəsində, sözün əsl mənasında, sərsəmləyib. Bəribaşdan bunu deyək. Ümumən, Paşinyanın dünya, xüsusən də Fransa mediasına müsahibələri sərsəmlik baxımından diqqət çəkib.

Belə bir deyim var: Roma papasından daha artıq katolik olmaq. Erməni hökumət rəhbəri da həmin ampluada görünməyə çalışır. O, anti-Rusiya köklənişində Qərbi keçmək niyyətindədir. Ancaq hərəkətləri ilə özünü heç nə ilə təsdiqləyə bilməyən uşağa bənzəyir. Elə hey vurnuxur ki, nə isə eləsin...

Nikolun Rusiya ilə bağlı hansı məqamlardan söz açdığına toxunacağıq. Həm də ona görə ki, onun Moskva əleyhinə mövqeyi anti-Azərbaycan ritorikasından irəli gəlir. Paşinyan Azərbaycanı Rusiya, özünü Qərb cəbhəsində təqdim edib üstünlük qazanmağa ümid bəsləyir. Bəli, erməni baş nazir göstərir ki, ölkəsi Azərbaycanla barışığa razı deyil. Özü də bu mövqe Bakıdan İrəvana sülh təkliflərinin növbəti variantının təqdim olunduğu bir vaxtda səslənir. Çox qəribədir...

Haşiyə çıxaq ki, sülh təklifləri variantları üzrə mübadiləşmə ənənəsinin əsasını qoyan Ermənistandır. Paşinyan sözügedən mübadilənin manipulyasiya olduğunu düşündüyündən, Bakının hazırkı yazılı mövqeyi ilə tanışlığa, ortaq nöqtələr tapıb pozitiv ab-hava formalaşdırmağa əhəmiyyət vermir. Bəlkə də maska taxıb sülhpərvər “zəngulələr vurmaqdan” bezib. Ancaq buna bezmək demək olmaz. Çox güman, təminat alıb. Hər cür oyunbazlıq müqabilində Azərbaycandan qorunmaq təminatı. Axı Paşinyan “France 24” telekanalının efirinə Fransaya işgüzar səfəri zamanı çıxıb. Ötən sayımızda həmin səfərin hansı anti-Azərbaycan motivləri ilə yadda qaldığından danışqdıq. Böyük ehtimalla, erməni baş nazir “France 24”-də məhz həmin motivlərdən ilhamlanaraq danışıb.

Beləliklə, erməni hökumət rəhbəri deyib ki, əgər Azərbaycan Ermənistanı “Qərbi Azərbaycan” hesab edirsə və buna son hadisələri də əlavə etsək, sülhün qeyri-mümkünlüyü aydındır. Paşinyanın sözlərinə görə, Bakının bəyanatları Ermənistana yeni hücum ehtimalını aktuallaşdırır.

Təsəvvür edin, şərti sərhəddə Azərbaycan hərbçilərinə ilk atəş açan erməni snayperidir. Nikol isə sərsəmləyir. Onun məntiqi ilə yanaşsaq, deyə bilərik ki, Ermənistan Azərbaycan ərazilərini işğal etməyə çalışır, çünki gülləni ilk atan erməni hərbçisidir. Bu barədə geniş düşünmək üçün də əsaslar var. Axı otuz ilə yaxın müddətdə təcavüz yolu tutan rəsmi İrəvan olub. Otuz ildən artıq müddətdə Azərbaycan ərazilərində qondarma separatçı rejim saxlayan da odur.

Ölkəmizin “Qərbi Azərbaycan” ritorikasına gəldikdə isə bu, tam normaldır. Əvvəla, 1988–1991-ci illərdə Ermənistandakı dədə-baba yurdlarından didərgin salınmış azərbaycanlılar var. O yurdlardan ki, türk torpaqlarıdır və onların Ermənistanın tabeliyinə necə keçdiyini göstərən əlahəzrət tarix var. Tarixdə olanlar tarixdə qalsın, – deyərdik. Ancaq bunu söyləyə bilmirik. Yenə də ona görə ki, Ermənistan elə həmin tarixdən nəticə çıxarmaq, daha doğrusu, nəticə çıxarıb kifayətlənmək istəmir.

Kifayətlənməməkdən söz düşmüşkən, erməni avantürizmindəki iştahanın böyüklüyü də acı tariximizin tərkib hissəsidir. 1918–1969-cu illərdə Azərbaycanın əbədi və əzəli torpaqları Ermənistana hədiyyə verildi. 1969-cu ildə ulu öndər Heydər Əliyev respublikamızda hakimiyyətə gəldikdən sonra bu mənfur prosesə “dur!” deyildi.

Heydər Əliyev şəxsiyyətinin siyasi məharəti nəticəsində erməni avantürizminin boynuna vurulmuş “dustaq zənciri” 1987-ci ildə ümummilli liderin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra qırıldı. Ardınca nələr yaşandı, hamımıza yaxşı məlumdur – torpaqlarımız işğala məruz qaldı, vətəndaşlarımız yurd-yuvasından didərgin salınıb çadırlarda, vaqonlarda yaşamağa məhkum edildi. Həmin erməni avantürizmi bizi çox pis cəzalandırdı, Heydər Əliyevin rəhbərlikdə olduğu illərdə edə bilmədiyinin qisasını aldı.

Lakin 44 günlük müharibədə sınmış əzmimizi, qırılmış qururumuzu bərpa etdik. Ermənistanı rüsvayçı məğlubiyyətə uğratdıq, torpaqlarımıza sahibləndik. Üzləşdiyi acınacaqlı durumdan nəticə çıxarmayan Ermənistan hakimiyyəti və dünya ermeniliyi isə 2020-ci ildən 2023-cü ilədək ərazilərimizdə haqqında söz açdığımız avantürizmin qalığını – can verməkdə olan separatizmi yaşatdı. 2023-cü ilin sentyabrındakı lokal xarakterli antiterror tədbirlərindən sonra həmin qalığı da kürüyüb atdıq.

Amma yenə şans verdik. Dedik ki, Qarabağ erməniləri, sıravi sakinlər bölgədə qalıb Azərbaycan vətəndaşı kimi yaşaya bilərlər. Onlar çağırışımızı eşitməyib ərazini tərk etdilər. Çünki insan kimi yaşamaq istəmədilər. Ermənistana gəldikdə, ölkə avantürizmə saxta niskil uydurub anti-Azərbaycan siyasətini davam etdirdi. Rəsmi İrəvan və onun xaricdəki havadarları hər vəchlə Qarabağ ermənilər üzərinə oyun oynamağa çalışdılar, müxtəlif xarici instansiyalara baş vurdular. Bölgənin erməni sakinlərinin yaşayış yerlərinə qayıtmaları üçün beynəlxalq təminat istədilər. Elə bir təminat ki, gələcəkdə Qarabağ avantürizmi üçün, necə deyərlər, tutacaq yeri olsun. Beləcə, biz nə üçün Qərbi Azərbaycan məntiqinə, tarixi reallığa müraciət etməyək? Nəyə görə azərbaycanlıların pozulmuş hüquqlarından danışmayaq? Nəhayət, bir halda ki, Paşinyan və onun xaricdəki dəstəkçiləri sülh müqaviləsinə Qarabağ ermənilərinin bölgəyə qayıtmaları müddəasını əlavə etməyə cəhd göstərdilər, ölkə rəsmilərimizin Ermənistandan deportasiya olunmuş azərbaycanlılar üçün eyni qayıdış hüququ barədə söz açmasında məntiq və qanunauyğunluq var.

Ancaq göründüyü kimi, Paşinyan həyasızlığına salıb bunu Bakının işğalçılıq niyyəti kimi tirajlayır. Görəsən, onun illər ərzində Ermənistanda buraxılmış ayrı-ayrı saxta xəritələrdə işğal edilmiş torpaqlarımızın ölkənin ərazisi kimi göstərilməsindən xəbəri varmı? Əlbəttə, var!

Erməni baş nazir ermənilərə xas xisləti Azərbaycanın boynuna qoymaqla, siyasi dividend qazanmağa çalışır. Tam aydındır ki, bu dividendin konkret məqsədi var. “Azərbaycan Ermənistana qarşı təcavüz reallaşdıracaq” məntiqi yeni işğallar üçün bəhanədir. Təxminən belə: bizə hücum etmək istəyirdilər, məcbur qalıb müharibəyə başladıq. Deməli, Prezident İlham Əliyevin çıxışlarında, müsahibələrində Ermənistana və havadarlarına Azərbaycan torpaqlarına göz dikməmək çağırışını səsləndirməsi, xəbərdarlıqlar ünvanlaması təsadüfi deyilmiş. Hər halda, dövlətimizin başçısı onların məkrli niyyətlərindən hamıdan çox xəbərdardır.

*

Əvvəldə də vurğuladıq ki, Paşinyan, bir qayda olaraq, Qərbə özünü, belə demək mümkünsə, ən yaxşı anti-Rusiyaçı kimi göstərir və əlinə düşən hər beynəlxalq platformanı mövcud istiqamətdə dəyərləndirir. Onu da bildirdik ki, Nikol Rusiya əleyhinə baxışlarını anti-Azərbaycan ritorikası ilə çulğalaşdırır, Moskvanın Bakı ilə eyni cəbhədə dayandığına dair yanlış rəy yaradır. Hesab edir ki, bu yolla beynlxalq ictimaiyyəti ölkəmizə qarşı qaldıracaq. Ancaq Prezident İlham Əliyevin yanvarın 10-dakı müsahibədə bildirdiyi kimi, İrəvanın ən çox səy göstərdiyi Avropa İttifaqı platformasında belə Azərbaycana qarşı çıxmaqla bağlı vahid mövqe yoxdur. Çünki ölkəmiz uğurlu xarici siyasət xətti yürüdür, bu, öz yerində. Paşinyanın fransız telekanalının efirində Rusiya ilə bağlı səsləndirdiyi fikirlərə gəlincə, deyəsən, Nikol bu dəfə barıtı lap çox edib.

*

Paşinyan deyib ki, Rusiya rəsmiləri 2023-cü ilin payızında Ermənistanda dövlət hakimiyyətini devirməyə səsləyiblər. “2023-cü ilin sentyabr və oktyabr aylarında Rusiyanın yüksək rütbəli məmurları Ermənistan əhalisini açıq şəkildə üsyana və hökuməti devirməyə çağırıblar”, – deyən Nikol bu çağırışın, konkret olaraq, hansı Kreml təmsilçisi tərəfindən səsləndirildiyini açıqlamasa da, Rusiya telekanallarında Ermənistan əleyhinə təbliğat aparılmasından şikayətlənib. Guya ki, ötən müddətdə Nikol və ona yaxın dairələr Moskvaya münasibətdə güldən ağır söz işlətməyiblər...

*

Paşinyanın “France 24”dəki anti-Rusiya təbliğatının bir detalını açıqladıq. Ancaq üzərində dayanacağımız daha iki məqam var.

Bunlardan birincisi, Ermənistandakı Rusiya hərbi mövcudluğudur. Məlum olduğu kimi, ölkənin Türkiyə ilə sərhədində rus hərbçiləri keşik çəkirlər. Bundan başqa, Ermənistanın İranla sərhədində və hava limanında da onların bloqpostları var. Doğrudur, Nikol ölkəsindəki rus hərbi bazasının çıxarılması məsələsinin müzakirə olunmadığını dilə gətirib. Əvvəllər də məsələyə, təxminən, eyni cür münasibət bildirirdi. Amma indi bir qədər fərqli tərzdə danışıb, “hələlik” sözünü işlədib. Yəni, Ermənistandakı Rusiya hərbi bazasının ölkədən çıxarılmasının, hələlik, diskussiya predmeti olmadığını vurğulayıb. Deməli, baş nazir, bir növ, əl yeri qoyub. Məsələnin mümkünlüyünə işarə verib.

Yeri gəlmişkən, Paşinyan bəhanə də tapıb. Bəhanəsi odur ki, Ermənistandakı rus hərbçiləri qeyri-qanuni hərəkət edir, hədlərini aşırlar. Məsələn, erməni hökumət rəhbəri həmin hərbçilərin rusiyalı dezertir Dmtri Setrakovu qaçırdıqlarını deyib və bunun narahatlıq doğurduğundan söz açıb: “Ərazimizdə qanunsuz hərəkətlər yolverilməzdir və İrəvanın tələbləri cavabsız qalarsa, bunun nəticələri olacaq”.

*

N.Paşinyanın “France 24”ə müsahibəsindəki ikinci anti-Rusiya xəttində də “yenilik” var. Bu xətt Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə bağlıdır. Nikol bildirib ki, Ermənistan Rusiyanın hakim rol oynadığı bu qurumdakı fəaliyyətini dondurub. Qeyd edək ki, əvvəllər də Paşinyan KTMT müstəvisində əks fikirlər səsləndirirdi. Bu dəfə diqqət çəkən məqam onun sırf “dondurmaq” ifadəsini işlətməsidir.

Yeri gəlmişkən, Ermənistanın KTMT ilə münasibətləri 2022-ci ilin sentyabrında Azərbaycan – Ermənistan sərhədində yaşanmış hərbi insidentdən sonra pozulmağa başlayıb. Rəsmi İrəvan həmin vaxt iddia etmişdi ki, ölkəmiz Ermənistan ərazisinə, guya, qəsd reallaşdırıb və KTMT faktı təsdiqləməli, Azərbaycan əleyhinə bəyanat verməlidir. Paşinyan bununla bağlı qurumun İrəvanda keçirilmiş və Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı yüksək səviyyəli sammitində əsl isterika da qoparmışdı. İş o yerə çatmışdı ki, Belarus Prezidenti Aleksandr Lukaşenko Nikolu KTMT-yə üzv dövlətlərin başçılarını uşaq yerinə qoymamağa çağırmış, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə bildirmişdi ki, Azərbaycanla Ermənistanın sərhədləri dəqiqləşmədiyindən, ikincinin ərazisinə hücumun gerçəkləşdiyi faktını müəyyənləşdirmək mümkünsüzdür. Nəticədə sözügedən sammitdən sonra Ermənistan–KTMT münasibətlərindəki ziddiyyətlər daim artan xətt üzrə inkişaf etmiş, nəhayət İrəvan qurumun ötən ilin noyabrında Belarusda keçirilmiş yüksək səviyyəli toplantısına qatılmamış, ümumən, bu təşkilatın xətti ilə reallaşmış bütün tədbirləri boykot yolu tutmuşdu.

Yuxarıda vurğuladığımız “dondurmaq” ifadəsindəki “yeniliyi” nəzərə almasaq, Paşinyan yenə köhnə məsələləri gündəmə gətirməkdədir. O, fransız telekanalının efirində də deyib ki, KTMT Ermənistanla bağlı kollektiv təhlükəsizlik sazişini yerinə yetirməyib: “Bizim fikrimizcə, Ermənistanla bağlı kollektiv təhlükəsizlik sazişi, xüsusən 2021–2022-ci illərdə yerinə yetirilmədi və bu, bizə təsirsiz ötüşməyə bilməzdi. Biz bu təşkilatda iştirakımızı dondurduq. Görək bundan sonra nə olacaq”.

*

Sonda bir daha əvvəldə haqqında söz açdığımız məqama qayıdaq. Ermənistan göstərir ki, birincisi, Azərbaycanla sülhdə maraqlı deyil, ikincisi, anti-Rusiya xəttini dərinləşdirməkdə israrlıdır. Nəinki Paşinyanın “France 24” telekanalının efirində söylədikləri, ümumən, onun Fransaya işgüzar səfəri gedişində gerçəkləşdirdiyi görüşlər, səsləndirdiyi fikirlər bunun təsdiqidir. Nikolun özü demiş, görək nə olacaq...

Ə.CAHANGİROĞLU
XQ

Sərhəd xəritəsi və Mher Qriqoryanın “hüquq məntiqi”

Baş nazirin müavini də nala-mıxa vurur

Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın erməni mediasına açıqlamasında maraqlı məqamlar var. O bildirib ki, delimitasiya prosesi, sadəcə, xəritələrlə işləmək deyil, daha çox şeyi əhatə edir: “Delimitasiya prosesi müəyyən bir xəritənin tərtib olunduğu hüquqi bazanın müəyyən edilməsini nəzərdə tutur”.

Bəli, söhbət Azərbaycan–Ermənistan sərhədlərinin müəyyənləşməsi zamanı nəzərdə tutulacaq xəritələrin hansı hüquqi bazaya məxsusluğundan gedir. Deyə bilmərik ki, baş nazirin müavini bu fikri dilə gətirərkən, konstruktiv olmağı düşünüb, amma o, son dərəcə vacib nüansı qabardıb. Bəs nə üçün erməni hökumət rəsmisinin obyektiv mövqe tutduğuna şübhələnirik?

Məsələ ondadır ki, M.Qriqoryanın bildirdiyi digər xüsuslar bu şəxsin hüquqa əsaslanmaq əzminə tərs mütənasibdir. Daha doğrusu, o, hüquqa yalnız manipulyasiya aləti kimi baxır. Bu şəxsin söylədiklərindəki yolverilməz məntiqin ayrı-ayrı detallarına diqqət yetirəcəyik. Ancaq əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində sərhədlərin müəyyənləşdirilməsində ölkəmizin mövqeyinə dair səsləndirdiyi bir fikri diqqətə çatdırırıq: “Bizim mövqeyimiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz bütövlükdə heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya (Azərbaycan və Ermənistan tərəfdəki sərhəd komissiyası – **red.**) yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır”.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan–Ermənistan sərhədi şərtidir. Onu da deyək ki, dövlətimizin başçısı

yuxarıda diqqətə çatdırdığımız fikirlərini Ermənistanın və havadarlarının 1991-ci ilin Alma-Ata Bəyannaməsinə fokuslanmalarına və mövcud xüsusda 1970-ci ildən sonrakı xəritələri əsas götürmələrinə münasibət kontekstində bildirmiş, eyni zamanda, 1918-ci ildən 1969-cu ilin mayınadək Ermənistana Azərbaycan torpaqları hesabına hədiyyələrin edildiyi reallığını nəzərə almış və bir növ, ortaya yeni yanaşmanın qoyulmasının zəruriliyini vurğulamışdı.

Lakin Ermənistan rəhbərliyinin hazırkı davranışları onu göstərir ki, ölkə yenə əvvəlki “ampluasındadır”. Rəsmi İrəvan Praqa və Brüsseldə əldə edilmiş razılaşmaları və bu razılaşmaların 1991-ci ilin Alma-Ata Bəyannaməsinə istinad məntiqini ehkamlaşdırır və elə fon yaradır ki, sanki Bakı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Söhbət Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşlərindəki razılaşmalara riayətdən gedir.

Onu da xatırladaq ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri tamamilə unudub. Baş nazir Nikol Paşinyan və komandası bu barədə danışmır. Yalnız Alma-Ata Bəyannaməsindən söz açır. Ola bilər, erməni iqtidarı bir azdan ölkənin müharibə məğlubu olduğunu da yaddan çıxarsın. Hər şey mümkündür...

Bəli, hazırda M.Qriqoryanın sözlərindən gəlinən nəticə də budur ki, Ermənistan 44 günlük müharibədəki rüsvayçılığı xatırlamır. O, açıq şəkildə deyir ki, tərəflər 1991-ci ilin dekabrındakı sərhəd xəttinin bərpası ilə məşğul olmalıdırlar. Sual olunur: Ermənistan həmin sərhəd xəttindən əsər-əlamət qoymuşdumu? Otuz ilə yaxın müddətdə sərhədi Ağdamda, Füzulidə təsəvvür edən, özünü ona uyğun aparan rəsmi İrəvan deyildimi? İndi hansı haqla belə danışırlar? Hələ baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə!” bəyanatını, habelə onun artıq sabiq olan müdafiə nazirinin “Yeni ərazilər uğrunda yeni müharibələr” şüarını bir kənara qoyuruq. Halbuki, bunlar da nəzərə alınmalıdır.

İndi isə birbaşa M.Qriqoryanın “hüquqi baza” məntiqinə gələk. Onun bu deyimi ilə əvvəldə diqqətə çatdırdığımız “xəritələrin müəyyənləşməsində hüquqi baza” məntiqi üst-üstə düşmür. Məlumdur ki, Azərbaycan torpaqlarına sahiblik Ermənistana keçəndə heç bir hüquqi bazaya istinad edilməyib. Yaxşı, tutaq ki, İrəvan 1918-ci ildə Ermənistana paytaxt kimi Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyinin bağışlanmaz səhvi ilə verilib və bu təsdiqlənib. Bəs sonrakı peşkəşlər? Onlarda hansısa hüquq normalar nəzərə alınmışdırmı? 1929-cu ildə keçmiş Ermənistan SSR ərazisində Azərbaycan torpaqları hesabına Meğri rayonu yaradılıb. Bəlkə bu zaman hüquqa riayət edilib? Yoxsa, həmin vaxt Azərbaycan rəhbərliyinin və xalqının mövqeyi nəzərə alınıb?

Prezident İlham Əliyev müsahibəsində Ermənistana torpaqlarımız hesabına ərazi peşkəşlərinin 1969-cu ilin mayınadək edildiyini vurğulayıb. Dövlətimizin başçısı yada salıb ki, bu mənfur prosesin qarşısı yalnız ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra alındı. Görəsən, M.Qriqoryanın hüquq anlayışında bunlar varmı? Qətiyyən yoxdur!

Üstəlik, ulu öndər Heydər Əliyev 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra ermənilərin Qarabağ iddiaları başladı. Sanki fürsət gözləyirdilər. 1969-cu ildən 1987-ci ilədək etmək istədiklərini, ancaq bacarmadıqlarını həyata keçirməyə girişdilər. Nəticə olaraq torpaqlarımız işğala məruz qaldı, 1988–1991-ci illərdə azərbaycanlıların Ermənistandakı dədə-baba yurdlarından zorla çıxarılması bir yana, Qarabağ avantürası ilə Azərbaycan ərazisindən də yüz minlərlə vətəndaşımız didərgin salındı və otuz ilə qədər davam edən acı məhrumiyyətlər dövrü yaşandı. Heç şübhəsiz, M.Qriqoryan bunlara da əhəmiyyət vermir və öz aləmində ağıllı-ağıllı danışır...

Ermənistan–Azərbaycan sərhədlərinin delimitasiyası və demarkasiyası üzrə hər iki ölkənin komissiyalarının növbəti iclasının vaxtı ilə bağlı hələlik qərara gəlinmədiyini deyən erməni hökumət rəsmisinin jurnalistlərin bir sualına cavabı da maraqlıdır. Qeyd edək ki, erməni media təmsilçiləri ondan sərhədlərin müəyyənləşdirilməsi xüsusundakı danışıqlar prosesi çərçivəsində tərəflərin razılaşdığı ən azı bir məsələni göstərməsini xahiş ediblər. Qriqoryan bunları deyib: “Əlbəttə, prosesin nə qədər mürəkkəb olduğunu hamınız yaxşı dərk edirsiniz. Xüsusilə, xəritələrdən söz açılarkən başa düşməliyik ki, biz yalnız topoqrafik sənədlərdən – peşəkar xəritələrdən danışmalıyıq. Bir çox insanlar sxematik və ya metodoloji xəritələri topoqrafik xəritələrlə qarışdırırlar ki, bu da, əslində, tamamilə fərqli keyfiyyət və məntiqə malikdir”.

Bundan sonra M.Qriqoryan lap əvvəldə diqqətə çatdırdığımız fikrini də bölüşüb. Yəni, delimitasiya prosesi zamanı istinad ediləcək xəritəyə dair hüquqi baza məsələsini qabardıb. Onun açıqlamasının kulminasiya anı isə sırf “hüquqi baza” anlayışına baxışını ortaya qoymasıdır. Sən demə, baş nazirin müavini üçün hüquqi baza Praqa Sammiti imiş. O sammit ki, orada tərəflər Alma-Ata Bəyannaməsinə sadiqliklərini bildirdilər. Alma-Ata Bəyannaməsi hara, xəritə hara? İndi Ermənistan 1970-ci ildən sonrakı xəritələrə istinad üzərində dayanır. Görəsən, bu, nə zamandan bəyannaməyə sadiqlikdir? Yaxud, əksinə, Azərbaycan sərhədlərin demarkasiyası və delimitasiyasında öz mövqeyini ortaya qoyursa, belə yanaşma niyə bəyannaməyə zidd sayılmalıdır? Nəhayət, sənəddə, sadəcə, keçmiş müttəfiq respublikaların bir-birinin ərazi bütövlüyünü tanımalarından söhbət açılır. Orada ərazilərin bölgüsü ilə əlaqədar hansısa konkretlik yoxdur.

Ancaq Ermənistanın Praqa prosesinə məhəl qoymadığını təsdiqləyən məqamlar yetərincədir. Bir halda ki, 2022-ci ilin Praqa Sammitində Alma-Ata Bəyannaməsinə əsasən, 1991-ci il sərhədləri çərçivəsində dövlətlərin ərazi bütövlüyünün və suverenliklərinin tanınmasına dair razılaşma var idi. Bəs nəyə görə 2023-cü ilin sentyabrına, yəni lokal xarakterli antiterror tədbirlərinədək Qarabağda Ermənistan ordusunun on minədək hərbçisi qalırdı? Hansı səbəbdən bölgədə İrəvanın dəstəklədiyi separatçı rejim at oynadırdı? Bu idimi Brüssel formatına, Alma-Ata Bəyannaməsinə sadiqlik? Olmazdımı ki, İrəvan oyun oynamasın? Görünür, olmazmış.

Sonda qeyd edək ki, Ermənistan həm sərhədlərin müəyyənləşməsində, həm də ümumən Azərbaycanla sülh gündəliyi məsələsində oyun oynamaqla məşğuldur. Elə M.Qriqoryanın söylədikləri də İrəvanın manipulyativ yanaşma tərzinin məhsuludur və əlbəttə ki, qeyri-səmimilik göstəricisidir. Belə yanaşmaların Ermənistana heç bir xeyri dəyməyəcək. Əksinə, bu cür yarıtmaz mövqe ölkə üçün sərfəli sülh perspektivi bucağını getdikcə daha çox məhdudlaşdıracaq.

Ə.RÜSTƏMOV
XQ

Yeni tarixi mərhələdə milli ideya

IV məqalə

Azərbaycan böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

Heydər ƏLİYEV,
Ümummilli lider

III məqalədə gəlinən son qənaət liderin azad və güclü multikultural cəmiyyəti formalaşdırmaq əsasında onun ədalətə inamını bərpa etməsi ilə bağlı idi. Bunu müəyyən edilmiş prinsiplər üzrə milli ideyanın reallaşması üçün "sağlam təməl fəaliyyət sahəsi"nin yaranması kimi də təsəvvür etmək olar. Əlbəttə, burada "sağlam təməl fəaliyyət sahəsi" siyasi və sosial-mədəni aspektləri özündə birləşdirən nəzəri metaforadır (məcazdır). Onun da bir neçə komponenti vardır. Onların sırasında milli qürur xüsusi yer tutur.

Milli qürur

Bu anlayışın ayrı-ayrı məna çalarları ilə bağlı fikirlər fərqli ola bilər. Lakin onların hər biri üçün ortaq əlamətlər də vardır. Müasir fəlsəfi-elmi və politoloji ədəbiyyatlarda "milli qürur" anlayışını insanın öz vətəninə patriotik sevgi hissinin olması ilə izah edirlər. Buraya fərdin müəyyən bir millətə məxsus olduğunu dərk etməsi də daxildir. Millətə məxsusluğun dərk edilməsi isə maraqların, milli mədəniyyətin, dilin və dinin ümumiliyini anlamaqla sıx bağlıdır.

Bu duyğuların və bütövlükdə, sosial-psixoloji münasibətin formalaşmasında Vətən irsinin möhtəşəmliyini dərk etmək və onu tam qəbul etmək ciddi rol oynayır. Milli qüruru olan hər bir insan üçün bu, ilhamverici və yaradıcı başlanğıcdır. Burada Vətən irsi dedikdə, maddi və mənəvi zənginlik sintezdə nəzərdə tutulur. Onu da vurğulayaq ki, milli qürur fərdi məhdud etnomərkəzçiliyə sövq etmir. Çünki milli qürurun başqa vacib özəlliyi insanın digər xalqların da özünəməxsus mədəniyyətinin və dəyərlərinin olduğunu, həm də universal ümumbəşəri dəyərlərin mövcudluğunu qəbul etməklə bağlıdır. Bu mənada, milli qürur ümumbəşəri dəyərlər sistemində insanın məxsus olduğu xalqın dünya duyumunun, mədəni özəlliyinin və mental-duyğusal kimliyinin ümumbəşəri kontekstini dərindən anlamaq zəruridir. Hətta bu, sadəcə passiv "qəbuletmə" deyildir – başqalarının təcrübələrindən faydalanmaq zərurətini fəaliyyətdə, davranışda anlamaqdır.

Milli qürurun təqdim etdiyimiz qısa fəlsəfi izahı göstərir ki, bu, çox ciddi mənaya malik və əhəmiyyətli sosial-mədəni funksiya yerinə yetirən faktordur. Prezident İlham Əliyevin bir mərhələnin uğurlu yekununda xüsusi olaraq milli qürur fenomenini üç dayaq faktordan biri kimi təqdim etməsi heç də təsadüfi deyildir. Əksinə, bu, dövlət başçısının dövlət, ölkə, cəmiyyət və ayrı-ayrı fərdlərin (sosiallaşma kontekstində – vətəndaşların) qarşılıqlı münasibətlərində ahəngdarlığı, harmoniyanı, sinergetik effekti milli dövlətçilik kontekstində təmin etmənin mühüm aspektini önə çəkməsidir.

Burada uğurlu liderin çox dərin yaradıcılıq, mənəvi, mədəni, sosial-psixoloji qatlarda düşündüyünü və müasir çağırışlara uyğun konseptual və praktiki fəaliyyət mövqeyi formalaşdırdığını görürük. Bundan başqa, İlham Əliyev milli qüruru avtomatik olaraq milli ideyanın əsas komponentlərindən biri kimi mənalandırmaqla indiki mövcud olan reallıqdan gələcəyə uğurlu baxışın və fəaliyyət konsepsiyasının "yol xəritəsi"ni də göstərmiş olur. Həmin kontekstdə milli qürurla milli ideya arasındakı fəlsəfi-sinergetik bağlantının aydınlaşdırılması keçilmiş mərhələnin adekvat dərki ilə yanaşı, yeni tarixi mərhələdə uğurlu milli ideya formulunu müəyyən etmək baxımından da vacibdir. Öncə, milli qürurun əsas tərkib faktorlarının təhlilinə baş vuraq.

Vətən sevgisi

"Patriotizm" sözü yunancadır, "Vətən", "Ata yurdu" və "həmvətənim" anlamını verir. Bu, fəlsəfə və politologiyada siyasi prinsiplə sosial hissin sintezi kimi dərk edilir. Həmin çərçivədə də Vətənə dərk edilmiş sevgi, sadiqlik və ona özünü qurban verməyə hazır olmaq, öz xalqına, onun ənənələrinə dərk edilmiş sevgiyə malik olmaq kimi məqamları ehtiva edir.

Deməli, patriotik sevgi bir sıra hallarda təqdim edilən pafoslu münasibət deyildir, o, təbliğat və təşviqat mövzusu olmazdan öncə insanın dərindən anlamalı olduğu faktorlarla sıx bağlıdır. Həmin faktorlar olmasa, "patriotizm" boş sözdən, "hurrey" çağırışlarından başqa bir şey deyildir. Patriotizmin bu cür səthi anlamı və "hurrey" təbliği müsbət emosiyalar oyatmaq əvəzinə, bütöv bir toplumu radikal və yalançı vətənçiliyə sürükləyər ki, bunun da sonu mənəvi aşınmadır.

Belə çxır ki, patriotik Vətən sevgisinin real sosial-psixolioji, emosional və intellektual faktoru kimi işlək olmasının mühüm şərtləri vardır. Həmin şərtlər bir tərəfdən patriotik vətən sevgisinin daxili mahiyyətini dərk etməyə yol göstərirsə, digər tərəfdən onun milli qürurla daxili və obyektiv bağlantısını anlamağa imkan yaradır.

Yuxarıdakı qısa təqdimatdan görünür ki, patriotizm birbaşa vətən qaynaqlıdır. Yəni insanın Vətəninə münasibətinin vacib aspektidir. Burada insanın özünə münasibəti ilə Vətəninə münasibətinin qarşılıqlı əlaqəsində fərdi identifikasiya özəlliyi həlledici rol oynayır. Yəni insan fərd olaraq özünü necə empatiya (özünüdərk üçün daxilə "baxış") edirsə və bu prosesin, bütövlükdə, "vətən" adlandırılan ümumi anlayışla münasibətlərinin konturlarını (məna və məzmun sərhədlərini) necə müəyyən edirsə, o dərəcədə "patriotikdir".

Patriotik sevgidə özünü dərketmə ilə vətəni dərketmə bir-biri ilə ahəngdarlıq təşkil etməli, uzlaşmalı, tamamlanmalı və ən yüksək səviyyədə harmoniya təşkil etməlidir. Bu tərkib elementlərindən hər hansı birinin çatışmazlığı patriotizmi yarımçıq edir və o, zamanın sınaqlarına dayanıqlı olmur.

Bunlardan çıxarıla biləcək nəticə: vətənə patriotik sevgi hər bir insanın özünü identifikasiya etməsi prosesində fərdi empatiya ilə vətən anlamına münasibətin harmoniyasının təzahürüdür! Hər iki tərkib hissəsi yalnız fəlsəfi-nəzəri mahiyyətli deyildir və ancaq şüurda formalaşmır. Patriotik sevgini çox mühüm özəlliyi ondan ibarətdir ki, fərd daim özünün təsəvvüründə olan identikliyi sosial praktikada müxtəlif həyati situasiyalarda sınaqdan keçirməli olur. Və yalnız bu iki aspektin sintezində onun real olaraq patriotik sevgiyə malik olub-olmadığı aydınlaşır.

Bu prosesin başlıca müəyyənedici və təşkiledici prinsipi vardır. O da konkret situasiyalarda fərdin davranışıdır. İnsan kritik situasiyalarda seçimi vətəni naminə (məsələn, çətin zamanlarda xalqın, millətin, dövlətin yanında olmaq) etməklə bir, öz şəxsi marağına uyğun (məsələn, dolanışıq, çörək pulu kimi anlayışları rəhbər tutaraq) davranmaqla isə başqa insan tipi formalaşdırır. Buradan belə nəticə alınır ki, patriotik sevgi həm real əsaslarla tərbiyə edilməlidir, həm də onu ədalətli "ölçən sosial-siyasi barometr" olmalıdır. Eyni zamanda, bu hissi stimul edən elə ümumsosial mexanizmin mövcudluğu vacibdir ki, həm daxili empatiyanı, həm də fərdin vətənə münasibətini istiqamətləndirə bilsin. Milli qürur məhz bu funksiyanı yerinə yetirə bilən ümumi sosial-psixoloji və emosional faktordur!

Vurğulanan kontesktdə bu iki faktordan hansı birincidir – yəni milli qürur Vətənə patriotik sevgi oyadır, yaxud milli qürur Vətən sevgisi əsasında məzmunlaşır? Məncə, burada situasiya məşhur rəssam Eşerin "bir-birini təsvir edən əllər" adlı əsərindəki kimidir: sağ əl sol əli və sol əl də sağ əli eyni zamanda, paralel, iç-içə təsvir edirlər (yaradırlar). Yəni burada bir "özünüyaratma", "sinergizm" vardır. Milli qürurla patriotikVətən sevgisi də eyni məntiqlə bir-birini iç-içə, qarşılıqlı şərtləndirmə ilə yaradırlar. Bu mənada, situasiyadan asılı olaraq onların birincilik və ikincilik rolları dəyişə bilər, lakin bütün hallarda vəhdətdə olmaları dəyişməyən şərtdir! Bununla yanaşı, milli qürurla patriotik Vətən sevgisinin hər biri üçün əhəmiyyətli olan sosial-psixoloji komponentlər vardır ki, onların hər birinin bu anlayışların münasibətlərinin formalaşmasında rolu özəldir. Məsələnin bu tərəfinə baxaq.

"Mən kiməm?" sualına milli cavab

Bu, milli ideya kontekstində çox aktual, maraqlı və mürəkkəb məzmunlu məsələdir. Çünki həm "millət" anlayışına, həm "milliliyə", həm də "milli qürur"un özünün anlamına yanaşmalar fərqlidir. Lakin real həyatda hər bir ölkə vətəndaşı özünə milli mənsubluqla bağlı sual edir. Bu da təbiidir. Buna görə də milli qürur hissinin formalaşması birbaşa fərdin öz milli məxsusluğunu dərk etməsi ilə bağlıdır.

Azərbaycan xalqı qədimdən özünəxas xüsusiyyətlərə malik olan toplum olaraq inkişaf etmişdir. Vahid mədəniyyət, adət-ənənə, din və dil azərbaycanlıları həmişə fərqləndirmişdir. Bu proses bir tərəfdən ümumtürk mədəni, mənəvi-əxlaqi mühitinin, digər tərəfdən isə müsəlman mədəni-mənəvi mühitinin qarşılıqlı əlaqəsində tarixi təşəkkül tapmışdır. Türk mədəni və milli kimliyi daha ümumi miqyasda daim öz yerini saxlamışdır. Azərbaycanlılar həm də dini dəyərlərə son dərəcə böyük əhəmiyyət vermişlər. Nəticədə Azərbaycan cəmiyyəti türk toplumu kimi özünəməxsus birləşmə, inteqrasiya edəbilmə mexanizmlərini hazırlamışdır. Bu mexanizmlərin kökündə iki faktorun dayandığını düşünürük.

Birincisi, "Vətən" anlayışı. İkincisi, azərbaycançılıq məfkurəsi. Azərbaycançılıq azərbaycanlıları Vətən anlayışı ətrafında birləşdirir, onların toplum kimi özünütəşkil etməsi üçün münbit şərait yaradır. Bu baxımdan, Azərbaycan cəmiyyəti bütövdür, mədəni, mənəvi, əxlaqi və sosial-psixoloji özəlliyə malik kollektiv yaşam formasıdır.

Eyni zamanda, azərbaycanlılar ümumtürk mənsubluğu fonunda var olduqlarını dərindən dərk edirlər. "Türk dünyası bizim ailəmizdir" tarixi tezisinin bu kontesktdə çox güclü və əsaslı təməli mövcuddur. Həmin təməli heç bir zaman, heç bir şərt daxilində, heç bir qüvvə sarsıda bilməz: Azərbaycan əbədiyyən Türk dünyasının ayrılmaz hissəsidir. Mənə qalsa, incisidir, gözüdür, tayı-bərabəri olmayan zəngin və incə mədəniyyət məkanı, mənəvi, əxlaqi, ideoloji və siyasi ideyaların qaynağıdır! Azərbaycan dili türk dillərinin və bütövlükdə, dünya dillərinin ən gözəlidir, sözlərinin mənalarındakı dərinlik, ifadə orijinallığı, məzmun genişliyi və yeniliyə açıqlığı ilə başqa dillərdən seçilir!

Azərbaycan mədəniyyəti tamdır, bütövdür, yeniliyə açıqdır və dinamik inkişaf etmək qabiliyyətinə malikdir. Bu mədəniyyət kimi Qafqazda milliliklə bəşəriliyi real olaraq özündə birləşdirən ikinci nümunə yoxdur! Azərbaycan mədəniyyəti çox böyükdür, möhtəşəmdir, sarsılmazdır! Bu mədəniyyət ehkam deyildir, bir yerdə dayanan deyildir – daim tərəqqidə, inkişafda və yeniləşmədədir!

Demək isəyirəm ki, tarixin hökmü ilə azərbaycanlılar milli, toplumsal, xalq birliyini dərindən dərk etmək üçün geniş və dərin arqumentlərə, stimulverici və müəyyənedici faktorlara malikdirlər! Biz azərbaycanlılar üçün milli kimliyimizi müəyyən etmək çox asan və qürurvericidir! Bunun sübutu tariximiz və bu günümüzdür. XXI əsrin qalib xalqı, millət olmağımızdır! Bu uğurların işığında milli qürura cəmi bir addım qalır. Daha dəqiqi artıq milli qüruru duyuruq, hiss edirik, onu real həyatda yaşayırıq!

Bu qələbəni, yaşantını, qüruru bizə möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyev bəxş etmişdir. Deməli, milli qürurdan danışanda yeni liderliyi, bu qüruru yaşatmaq üçün xalqı üçün gecə-gündüz zəhmət çəkəni mütləq nəzərə almaq gərəkdir! Bu da bizim Vətən, millət, xalq və toplum qarşısında patriotik sevgimizin üzvi tərkib elementi olmalıdır! Milli kimliyimizi anlamağın mühüm çağdaş faktoru olmalıdır!

Vurğulanan fikirlərin işığında milli qürurun yaranmasında dil, din və mədəniyyət faktorlarının milli ideya kontekstində rolu üzərində geniş dayanmaq zərurətini qəbul etmək lazım gəlir.

(ardı var)

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

İrəvanın seçimi: ya döz, ya da düz!

(əvvəli 1-ci səhifədə)

İrəvan–Moskva münasibətlərində soyumanı və gərginliyin ikinci mərhələsini müşahidə etməkdəyik. Birinci mərhələ Azərbaycanın zəfəri ilə başa çatmış 44 günlük müharibənin gedişi və nəticəsi fonunda baş vermişdi. Deyəsən, müharibədəki məğlubiyyətin şokundan ayılmağa başlayan Ermənistan hakimiyyəti şimaldakı strateji müttəfiqindən əlini üzərək, bütünlüklə Qərbin qucağına sığınmağa qərar verib. Axı, eyni vaxtda iki stulda əyləşməyin sonsuza qədər davam etməsi də mümkün deyildi.

***

"Rusiya sərhədçiləri İrəvan Beynəlxalq Aeroportundan – "Zvartnos"dan çıxarılacaq. Belə bir iddia ilə "Factor.am" saytının əməkdaşı Robert Ananyan çıxış edib. O Ermənistan hökumətindəki yüksək çinli mənbəyə istinadla deyir ki, bu prosesə yaxın vaxtlarda start veriləcək. Etibarlı mənbə belə bir addımın hansı zərurətdən yarandığını dəqiqləşdirməsə də, artıq siyasi qərarın verildiyinə əminliyini açıqlayıb.

Aydın məsələdir ki, ortalıqda İrəvanın qəbuluna cürət etdiyi siyasi qərardan söhbət gedə bilər. Məsələnin bizim üçün daha maraqlı tərəfi həm də ondan ibarətdir ki, Rusiya sərhədçilərinin "Zvartnos" hava limanında yerləşməsi və burada xidmət aparması hökumətlərarası razılaşma ilə tənzimlənmir. Sadəcə, 1992-ci ildə İrəvan və Moskva arasında Rusiya sərhəd qoşunlarının Ermənistan ərazisində statusunu və fəaliyyətini tənzimləyən anlaşma imzalanıb. İntəhası, həmin razılaşmanın mətnində rus sərhədçilərinin hava limanında xidmət həyata keçirməsi ilə bağlı bənd yoxdur.

"Factor.am" apardığı araşdırmanın nəticəsində məsələnin daha bir maraqlı tərəfini üzə çıxarıb. Məlum olub ki, Rusiya sərhədçiləri "Zvartnos" hava limanında xidmətlərini Ermənistan Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları komandanları arasında imzalanmış sənədin əsasında aparırlar. Bundan sonra saytın Rusiya sərhədçilərinin hava limanından çıxarılma müddəti ilə bağlı ünvanladığı konkret sualına Ermənistanın xüsusi xidmət idarəsindən belə bir informasiyaya malik olmadıqlarını bəyan ediblər.

ZƏRURİ STATİSTİKA:

* Ermənistan iqtisadiyyatının aparıcı sahələrində 100 faiz və ya qismən Rusiya kapitalı ilə 40-dan çox iri müəssisə fəaliyyət göstərir;

* Daxili bazarda təbii qazın inhisarçı satıcısı 1997-ci ilin dekabrında yaradılmış "Qazprom Armenia" Rusiya–Ermənistan QSC-sidir (səhmlərin 100 faizi Rusiya "Qazprom" şirkətinə məxsusdur);

* 2002-ci ildə Ermənistan, təxminən, 98 milyon dollar borcunu ödəmək üçün 5 müəssisəsini Rusiyaya verib;

* Rusiyadan Ermənistana ildə 2,5 milyard kubmetr qaz nəql edilir. 1000 kubmetr qaz üçün Ermənistan 165 dollar ödəyir;

* 2006-cı ildən fəaliyyət göstərən İran–Ermənistan qaz kəməri də Rusiyanın "Qazprom" şirkətinə məxsusdur;

* Ermənistan ÜDM strukturunda vasitəsiz xarici investisiyalar 5 faiz təşkil edir. 2022-ci ildə ölkəyə rekord məbləğdə – 1 milyard dollar cəlb edilib və bunun böyük hissəsi – Rusiyadandır;

* ölkədən ixracın 51 faizi Rusiyanın payına düşür;

* 2008-ci ildə Ermənistan dəmir yolları 30 il müddətinə Rusiya şirkətinin konsessiya idarəçiliyinə keçib.

Bu statistikanı Ermənistan Mərkəzi Bankının rəhbəri Martin Qalstyan Beynəlxalq Valyuta Fondunun illik konfransında səsləndirib.

Və indi ortaya belə bir sual çıxır: Ermənistan Rusiyadan qopmaqla, faktiki surətdə, bütün bunlardan məhrum olacağı təqdirdə Qərb itkini kompensiyaya edəcəkmi? Yaxud, İrəvanı bu yola sövq edən həmin Avropa və ABŞ axıradək onun arxasında duracaqmı?

Bu məqamda keçən il noyabrın 15-də ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilən dinləməni xatırlatmaq yerinə düşür. Ermənipərəst konqresmenlərin təşəbbüsü, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbərinin Avropa və Avrasiya bürosu üzrə köməkçisinin müavini Aleksander Sokolovksinin iştirakı ilə baş tutan həmin dinləmədə O'Brayn Ermənistan hakimiyyətinin xarici münasibətlərin çoxşaxəli spektrinə açıq olduğunu və ABŞ rəhbərliyinin bu istiqamətdə Ermənistana ehtiyac duyulan dəstəyin verilməsinə çalışdığını bildirmişdi. Konqresin açıq anti-Azərbaycan xarakterli mövqeyinə rəsmi Bakının kəskin reaksiyasını, ardınca Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə telefon açaraq, ondan Ceyms O'Braynı qəbul etməsi ilə bağlı xahişini, axırıncının Azərbaycana məlum "üzrxahlıq səfərini" də unutmamışıq.

*

Görünən odur ki, Paşinyan iqtidarı erməni cəmiyyətini tədricən anti-Rusiya məcrasına salmağı bacarıb. İndi Ermənistanda təkcə şovinist-radikal siyasi kəsim deyil, dünən Rusiyaya meyilliliyi ilə seçilən dairələr, nüfuzlu siyasi xadimlər, eks-nazirlər, deputatlar da Moskvaya güvənmədiklərini açıq şəkildə dilə gətirirlər. Ermənistan parlamentinin keçmiş deputatı, siyasətçi Azad Arşakyan mövzu ilə bağlı mətbuata üsyankar açıqlama verib. Onun sözlərinə görə, Rusiyanın təsir dairəsində qaldıqca Ermənistan özünün suveren resurslarını artıra bilməyəcək: "Nə qədər ki, Rusiyanın Ermənistana təsir rıçaqları var, biz suveren resurslarımızı artıra bilmərik. Həmin ordu (Rusiyanın Gümrudakı 102 saylı hərbi hissəsi nəzərdə tutulur – red.) bizim resurslarımızı məhdudlaşdırmaq üçündür. Biz indi öz ərazimizdən qaz kəməri çəkə bilmərik. Başa düşürsünüzmü ki, Avropa İttifaqında bazarı olan sənayeni ölkəmizdə təşkil edə bilmərik? Araz çayını kim keçməlidir? Türkiyə Araz çayını keçmək istəyir, rus sərhədçisi buna qadağa qoyur? Onların bizsiz də bir-biri ilə əlaqəsi var. Bizimlə məsləhətləşmirlər. O sərhədçilər (ruslar) bizim təhlükəsizliyimizi qorumur, onlar qaçaqmalçılığı qoruyur. Qərb NATO vasitəsilə ruslara deyir ki, bütün xalqlar bərabərdir. Bizsə deyirik ki, rus ordusu Ermənistanı tərk etməsin, o, bizi qoruyur. MDB Rusiyanın gizli adından biridir. 1991-ci ildə Ermənistan əhalisinin 99 faizi referendumda Rusiya hərbi bazasından, rus "sapoq"undan, bolşevizmindən imtina etdi. Biz demişik ki, artıq ruslara güvənmirik. Rusiyanın bu bölgədə mövcudluğu erməni xalqı üçün məhvolma taleyinə çevrilib".

Özünü Qərbin yorğanının altına dürtməyə qərar verən rəsmi İrəvanın bölgədə böyük güclərin "maşası" olmaqdan əl çəkmədiyi aydındır. "Qoca qitə"də və okeanın o tayında "maşa"nın vasitəsilə Cənubi Qafqazda yeni müharibəni körükləndirməyə çalışan qüvvələrin varlığı sirr deyil. Azərbaycan isə sülh istəyir. Amma, eyni zamanda, hadisələrin istənilən istiqamətdə inkişafına hazırdır. Bakı özünün son 30 illik təcrübəsində "sülh istəyirsənsə, müharibəyə hazırlaş" aksiomunun hər zaman qüvvədə olduğunu gördü və bunu bir daha unutmayacaq.

İmran BƏDİRXANLI
XQ

Ekspert rəyi

Asif NƏRİMANLI,
siyasi analitik

Rusiya sərhədçilərinin hava limanından çıxarılması barədə informasiya Ermənistan hakimiyyətinin, ümumiyyətlə, qoşunun ölkədən çıxarmaq planının praktiki müstəviyə keçirməsi sayıla bilər. Bu məlumat doğrudursa, rəsmi İrəvan bununla iki gediş edir.

Birincisi, Qərbin istəyini müəyyən qədər yerinə yetirməklə təzyiqi azaldır və hərbi dəstəyin artırılmasına nail olur. Qərbin Rusiyanı Ermənistandan çıxararaq, onun yerinə gəlmək və bölgədə möhkəmlənmək niyyəti bəllidir. Fəqət Ermənistan hakimiyyəti bunu yalnız siyasi ritorika səviyyəsində edir, əməli addım atmır. Qərbin bununla bağlı İrəvana təzyiq göstərdiyi istisna deyil. İndi İrəvan praktiki addım atdığını Qərbə göstərir.

İkincisi, rəsmi İrəvan Moskvaya ata biləcəyi addımları göstərir və bununla şimaldan təzyiqi azaltmağa çalışır. Eyni zamanda, rus sərhədçilərin çıxarılması ilə gələcəkdə Rusiya hərbi bazasının çıxarılmasının da əsasını qoyur. Ermənistanın yeni konstitusiya layihəsində xarici ölkənin bu ölkədə hərbi mövcudluğunun qadağan olunacağı haqda məlumatlar var. Mümkündür ki, Ermənistan hakimiyyəti yeni konstitusiyanın qəbulundan öncə bu istiqamətdə addımlar atmağa başlayıb. Təbii ki, Rusiya bunu cavabsız qoymayacaq. Siyasi və iqtisadi müstəvidə rıçaqların işə salınması gözləntisi var. Amma iqtisadi sferadan fərqli olaraq, siyasi müstəvidə təsir imkanları əvvəlki qədər deyil. Bu baxımdan, daha çox iqtisadi təzyiqlər edilə bilər.

Yaranmış vəziyyət bölgədə Qərb–Rusiya qarşıdurmasının daha da kəskinləşəcəyi deməkdir. Bu qarşıdurma Azərbaycan üçün də risklər vəd edir. Çünki Qərb Ermənistanın Rusiyadan və KTMT-dən uzaqlaşması məqsədilə Azərbaycanla sərhəddə təxribatları körükləyə bilər. Ermənistan hərbi baxımdan Azərbaycan qarşısında duruş gətirə bilməz, amma mümkün təxribatlar zəminində rəsmi Bakıya təzyiqlər arta bilər.

Qalib lider Azərbaycanı işıqlı gələcəyə aparır

Ümummilli lider Heydər Əliyev tərəfindən 1993–2003-cü illər ərzində görülmüş genişmiqyaslı işlər Azərbaycanda siçrayışlı inkişafın başlaması üçün zəruri potensial formalaşdırmışdır. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, bu kursun ideoloji bazası əsasında yeni inkişaf modelini həyata keçirən, Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah, mədəni cəmiyyətin qurulması istiqamətində 2003-cü ildə bəyan edilmiş hədəflər artıq günümüzün reallığına çevrilmişdir. Bu gün dövlət başçısı tərəfindən təsdiq olunmuş müasir inkişaf konsepsiyası keyfiyyətcə yeni prioritetlər müəyyən edir. İnnovasiya əsaslı inkişaf modelinə keçid, yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın qurulması qarşıda duran ən mühüm prioritetdir.

2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyev Azərbaycan vətəndaşlarına tarixi müraciətində əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq ünvanını da göstərmişdi: "...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Müstəqilliyini günbəgün, ilbəil möhkəmləndirən Azərbaycan dövlətinin tarixində Prezident İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı getdikcə artır. Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi yazıldı. Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışdı, nəhayət, üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail oldu. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə Prezident İlham Əliyev xarici KİV-ə otuzadək müsahibə verdi ki, bu da münaqişə və Qarabağla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Müasir Azərbaycanın intensiv tərəqqisini təmin edən daha bir mühüm faktor Prezident İlham Əliyevin milli maraqlara əsaslanan, milli inkişafı şərtləndirən regionların sosial-iqtisadi inkişafı konsepsiyasıdır. Dövlət başçısı seçildikdən sonra bütün bölgələrin inkişafını strateji məqsəd kimi müəyyənləşdirən İlham Əliyev bu istiqamətdə mühüm uğurlara nail olunmasını təmin edib. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilib. Əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, həyatımızın bütün sferalarında demokratik dəyərlərin tam bərqərar olması istiqamətində inkişafın davamlılığı təmin olunub. Sözsüz ki, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə, güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi. Belə də oldu: Azərbaycan, doğrudan da, heç vaxt indiki qədər güclü olmayıb.

Xarizmatik liderlik və yüksək idarəçilik məharəti ilə fərqlənən Azərbaycan Prezidentinin müasir siyasət strategiyası nəticəsində ölkəmiz modernləşərək öz inkişafının yeni keyfiyyət mərhələsinə qədəm qoyub, həyatın bütün sahələri yenilənib. Milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanır. Bu praqmatik, çevik siyasət, sistemli və ardıcıl strateji kurs ölkəmizin müasir inkişafının əsas təminatçısıdır.

Qədirbilən xalqının sevgisi qazanmış Güclü lider İlham Əliyev öz daxili və xarici siyasətinin həyata keçirilməsində dərin zəka, universal düşüncəsi, analitik analiz qabiliyyəti ilə böyük qətiyyət nümayiş etdirir. Öz irsi şəxsi keyfiyyətlərinin daşıyıcısı olan müzəffər Ali Baş Komandan İlham Əliyev harada çıxış etməsindən, istənilən sahədə mövqe bildirməsindən asılı olmayaraq, daim start vəziyyətində olaraq qarşı tərəflər üzərində öz üstünlüyünü təmin edir. Əgər qısa və konkret olaraq 20 ilin uğurlarını ümumiləşdirərək ifadə etsəm, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması özü buna sübutdur.

Yeni Azərbaycan Partiyasından prezidentliyə namizəd kimi irəli surulən Qalib xalqın Qalib lideri İlham Əliyevin 7 fevral 2024 cü il tarixində keçirilmiş növbədənkənar prezident seçkilərində parlaq qələbəsi bir daha subut etdi ki, məqsədyönlü və xalqının, dövlətinin gələcəyə xidmət edən universal siyasəti bundan sonra da ölkəmiz Azərbaycana böyük uğurlar və tarixi ədaləti bərpa edən, ona söykənən Zəfərlər qazandıracaqdır.

Məlum olduğu kimi, 30 ildən artıq bir vaxtdan sonra bu seçki Azərbaycanımızın bütün ərazisini əhatə etdi. Yəni seçki məntəqələri suveren ölkəmizin Xankəndi, Şuşa, Xocalı, Ağdərə və digər azad olunmuş ərazilərində quruldu. Ümumiyyətlə Qarabağımıza qayıdış konsepsiyası çərçivəsində dədə-baba torpaqlarına dönən keçmiş məcburi köçkünlər öz yurdlarında səs verdilər. Bu tarixi hadisə isə ölkəmizin ictimai-siyasi mühitində yeni bir mərhələnin başlanğıcı olmaqla yanaşı, zəfər platformasında prezident seçkilərində qədirbilən xalqımız böyük coşqu və ruh yüksəkliyi ilə seçki məntəqələrinə axın etdi. Əlbətdə ki, xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu seçkiyə müharibəni zəfərlə bitirmiş,ərazi bütövlüyümüzü tam təmin edərək və sərhəd zolaqlarımızı müəyyənləşdirib sülhə doğru addımlayaraq getdik. Ölkəmiz hazırda, təkcə öz suverenliyini bərpa etməyib,eyni zamanda da bölgəyə yeni sabitlik və sülh gətirmişdir. Qalib xalqımız isə 7 fevral 2024 cü il Zəfər seçkisində öz Qalib liderini, Prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevi növbəti dəfə Prezident seçdi, ictimai-siyasi sabitlik içərisində firavan yaşayacaqdır.Nəhayət əminliklə deyə bilərik ki, qədirbilən xalqımız fevralın 7-də əvvəlki seçkilərdə olduğu kimi, yenə tarixi seçimini edəcəkdir. Yəni xalqımız sabitliyə, əmin-amanlığa, bütövlüyə səs verdi.Hətta qeyd edim ki, 2024-cü il fevral seçkiləri Azərbaycanın yüz illik tarixinə düşərək Zəfər seçkisi oldu.

Prezident İlham Əliyev yaxın gələcəkdə sosial-iqtisadi modelin məzmununu və strukturunu keyfiyyətcə yeni prinsiplər əsasında qurmaqla, iqtisadiyyatın sürətli və dayanıqlı artımının təmin edilməsi, ekoloji tarazlığın qorunması, bu məqsədə xidmət edən təşəbbüslərin dəstəklənməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviq edilməsi kimi məsələləri xususi qeyd etmişdir. Eyni zamanda Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində mühüm addımlar atılacaqdır.

Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un cari ildə ölkəmizdə keçirilməsinə dair yekdil qərarın qəbul edilməsi də beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və etimadının bariz göstəricisidir. Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi və Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması və eyni zamanda Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsini zəruri hesab etmişdir. Milli təhlükəsizlik sahəsində ölkəmizin qarşısında duran kompleks vəzifələrin son 20 il ərzində tam və effektiv həllinin nəticəsi olaraq Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması, müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi əsas məsələlərdən biridir.

Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz uğurlar məhz İlham Əliyev siyasətinin təntənəsidir və Ulu öndərin əbədiyaşar ideyalarından qaynaqlanır.

Əvəz ƏLƏKBƏROV,
Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra mudiri, Əməkdar müəllim

Elnur SADIQOV,
professor

Gürcüstan: hökumət dəyişsə də, Azərbaycanla münasibətlər davamlıdır

Son günlər regionda baş verən proseslər, xüsusən də Gürcüstanda hökumət dəyişikliyindən və Azərbaycanda növbədənkənar prezident seçkilərindən sonra iki ölkə arasında əlaqələrin inkişaf perspektivləri ilə bağlı müxtəlif fikirlər səslənir. Gürcüstanın Marneuli şəhərindəki "Azərbaycan evi"nin direktoru Məhəbbət İmanovla söhbətimiz də bu barədədir.

– Məhəbbət müəllim, bilirsiniz ki, son günlər regionda müxtəlif hadisələr baş verir. Siz bu hadisələrin fonunda Azərbaycan və Gürcüstan arasında dostluq və strateji əməkdaşlıq münasibətləri haqqında nə düşünürsünüz?

– Məlumdur ki, iki ölkə arasında dostluq və mehriban qonşuluq əlaqələrinin tarixi kökləri var. Müasir dovrdə iki ölkə arasındakı dostluq, qonşuluq və müttəfiqlik münasibətlərinin əsası Azərbaycan xalqının Ümummilli lideri, gürcü xalqının da yaxın dostu Heydər Əliyev tərəfindən qoyulub. Bu münasibətlər indi də yüksələn xətt üzrə inkişaf edir və daha da möhkəmlənir. Bu gün biz fəxrlə deyə bilərik ki, dövlət və hökumət başçılarımızın birgə səyləri nəticəsində ölkələrimiz arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu, münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyini deyir.

Onu da bildirim ki, Azərbaycan hər zaman Gürcüstan ilə dostluq və qardaşlıq münasibətlərinin inkişafında maraqlı olub və bu siyasət gələcəkdə də davam edəcək. Gürcüstanda hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq, bu münasibətlərə heç bir qüvvə xələl gətirə bilməyəcək.

– Bəs bu münasibətlərin inkişafında sadə xalqın rolunu necə görürsünüz?

– Gürcüstanda yaşayan yarım milyona yaxın aborigen azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər iki ölkə arasında körpü rolunu oynayırlar. Məlumdur ki, ulu öndər Heydər Əliyevin 1996-cı ildə Tbilisiyə rəsmi səfəri zamanı tərəflər "Dostluq, əməkdaşlıq və qarşılıqlı münasibətlər", "Cənubi Qafqazda sülh və əməkdaşlıq" haqqında müqavilələr imzalayıblar. Bu sənədlər hər iki ölkədə yaşayan xalqların birgə yaşayışının, qardaşlığının möhkəmlənməsinə, onların rifah halının yaxşılaşmasına xidmət edir. Azərbaycanlılar və gürcülər də bunu yaxşı başa düşürlər və dostluq körpüsünü daha da möhkəmləndirməyə çalışırlar.

– Bu gün Azərbaycanla Gürcüstanın birgə iştirakı ilə həyata keçirilən irimiqyaslı enerji, nəqliyyat və logistik layihələr mühüm dividendlər gətirir. Qarşıda daha iri, yeni alternativ enerji mənbələrindən "yaşıl enerji", birgə istifadənin perspektivlərini necə görürsünüz?

– Bu gün Azərbaycan və Gürcüstanı həm də birgə həyata keçirilən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Supsa, Trans–Anadolu Qaz Boru Kəməri kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri bağlayır. Qeyd olunan layihələr hər iki ölkəni bir-birinə strateji cəhətdən bağlayır və bölgədə yeni reallıqlara yol açır. Ölkələrimiz arasındakı yüksək əlaqələr gürcü ictimaiyyətini və Gürcüstanda yaşayan azərbaycanlıları çox sevindirir.

Onu da qeyd edim ki, Azərbaycan dövləti təkcə Gürcüstanla deyil, bir çox ölkələrlə mühüm qlobal layihələr həyata keçirir, Avropa ölkələri arasında siyasi, iqtisadi və sosial layihələr üzrə etibarlı tərəfdaş kimi iştirak edir. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu artıq beynəlxalq arenada öz mühüm əhəmiyyətini sübut edib. Hazırda Avropa və Asiyanı birləşdirən bu layihələr Azərbaycan və gürcü xalqlarının sosial rifah halının inkişafında, bir sözlə, regionun çiçəklənməsində mühüm rol oynayır. Orta dəhlizin əhəmiyyəti artdıqca Azərbaycan və Gürcüstan da dünya ölkələri sırasında güclənir. Düşünürəm ki, digər layihələr də bu baxımdan mühüm əhəmiyyət kəsb edəcək və regionumuz daha da inkişaf edib çiçəklənəcək. Lakin onu da qeyd etməliyəm ki, Cənubi Qafqazın digər ölkəsi olan Ermənistan da öz məkirli siyasətindən əl çəkməli, Azərbaycanla böyük sülh müqaviləsini imzaladıqdan sonra, onların da bu layihələrə qoşulması regionumuza daha böyük uğurlar gətirə bilər.

– Azərbaycanın Gürcüstandakı soydaşlarımızın problemləri, onların həllində mümkün rolu barədə nə deyə bilərsiniz?

– Gürcüstanda yaşayan yarım milyona yaxın azərbaycanlı müzəffər Prezident, Ali Baş Komandan İlham Əliyevin daimi dəstəyi və diqqəti ilə tam əhatə olunub. Buna nümunə olaraq Gürcüstanda yaşayan azərbaycanlıların təhsil, elm, gürcü cəmiyyətinə inteqrasiyasını, sosial rifahın yaxşılaşdırılmasını və s. göstərmək olar. Qeyd edim ki, 2010-cu ildən bu günə kimi Tbilisi ali təhsil müəssisələrində yeddi minə yaxın tələbənin təhsil ödənişləri Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən ödənilib. Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə azərbaycanlıların kompakt yaşadığı bölgələrdə, Azərbaycan dilli orta təhsil məktəblərinin, uşaq bağçalarının, idman komplekslərinin tikintisi, təmiri və yenidən qurulması, məscidlərimizin qazla təmin olunması, fiziki məhdudiyyətli insanlara qayğı kimi məsələlər həll olunur.

Eləcə də, Diasporla İş üzrə Dövlət Komitəsinin yerli azərbaycanlıların inkişafına, təhsilinə və inteqrasiyasına verdiyi dəstəklər danılmazdır. Çünki bu layihələr bütün regionu əhatə edir. Azərbaycanlıların yaşadığı rayonların hər birində, eləcə də paytaxt Tbilisidə gənclərin inkişafı və inteqrasiyası üçün tədris mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlər təhsilmizin, mədəniyyətizin, incəsənətmizin, milli kimliyimizin, adət-ənənələrimizin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Təbii ki, bunlar cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qayğısının nəticəsidir.

Onu da bildirmək istəyirəm ki, 44-günlük Vətən müharibəsi dövründə əslən Gürcüstandan olan şəhidlərimizin xatirəsinin əbədiləşdirlməsi məqsədilə cənab Prezidentin göstərişinə uyğun olaraq Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyi tərəfindən böyük işlər görülür.

– Azərbaycanın ərazi bütövlüyünün tam bərpasından sonra işğaldan azad edilmiş rayonlarda həyata keçirilən işləri necə dəyərləndirirsiniz?

– Otuz il xalqımızın həsrətində olduğu tarixi Azərbaycan torpaqları müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən 2020-ci ildə cəmi 44 günə işğaldan azad edildi. O torpaqları görməsək belə, bizə doğma və əzizdir. Prezident İlham Əliyevin göstərişi

ilə 2022-ci ilin aprel ayında Dünya Azərbaycanlılarının V Qurultayı məhz Azərbaycanın Mədəniyyət paytaxtı olan, Qarabağın tacı sayılan Şuşa şəhərində baş tutdu.

Biz də o tarixi qurultayda iştirak edirdik. Cənab Prezident ilham Əliyev qurultayda tarixi çıxış etdi. Bildirdi ki, işğal zamanı dünyada yaşayan azərbaycanlılar üçün də ağır olub. Çünki istər-istəməz bəzən müəyyən tədbirlərdə və ya başqa yerlərdə ermənilərin iddialı davranışları olurdu. Təbii ki, bu, bizim üçün çox ağır idi. Anacq cənab Prezident İlham Əliyevin dediyi kimi, bu gün dünyada və Gürcüstanda yaşayan azərbaycanlılar başı dik, alnıaçıq, qalib xalqın nümayəndələri kimi yaşayır və fəaliyyət göstərirlər. Çünki dünyada yaşayan azərbaycanlıların ürəyi hər zaman Azərbaycanla döyünüb.

İkinci Qarabağ müharibəsi dövründə Gürcüstanda yaşayan yarım milyona yaxın azərbaycanlı Azərbaycan Prezidentinə, müdrik Azərbaycan xalqına və rəşadətli ordumuza dəstək olub. Bu, tarixi birlik nümunəsi idi.

Biz Şuşa şəhərinə gedərkən Zəfər yolu ilə getdik. Qısa müddət ərzində böyük quruculuq işləri görüldüyünün şahidi olduq. Qarabağda hava limanları, yaşayış binaları, infrastruktur layihələri, məscid və məbədlərin yenidən bərpa işlərinin şahidi olduq. Eyni zamanda, Şuşa şəhəri tarixi bir diyar olduğu üçün orada tarixi izləri saxlamaq işlərinə necə həssaslıqla yanaşıldığını gördük. Bu gün biz Füzulidə, Laçında, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, eləcə də azad olunmuş digər torpaqlarda gedən bərpa-quruculuq işlərini izləyirik. Bu, böyük hadisə olmaqla yanaşı, dövlət başçısının qətiyyətindən, iradəsindən və nüfuzundan xəbər verir. Və bütün dünya şahid olur ki, otuz il işğalda olan torpaqlar ermənilər tərəfindən talan və viran edilmişdir. Öz sahibi isə o torpaqları azad edəndən sonra qısa müddət ərzində dirçəldib nəfəs verir. Məcburi köçkünlər otuz il əvvəl öz yurdlarını acı göz yaşları ilə tərk etsələr də, otuz il sonra sevinc göz yaşı ilə geri dönürlər.

– Azərbaycanda növbədənkənar prezident seçkiləri haqında fikrinizi bilmək maraqlı olardı.

– Təbii ki, növbədənkənar Prezident seçkilərini müsbət qarşılayırıq. 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusu Qarabağda antiterror əməliyyatları keçirdikdən və Xocalı, Ağdərə, Əsgəran, Xocavənd və Xankəndi azadlığa qovuşduqdan, ölkənin suverenliyi təmin edildikdən sonra bütöv Azərbaycan tarixində ilk dəfə Prezident seçkiləri keçirildi. Hər birimiz bilirik ki, bu seçkilərin tarixi əhəmiyyəti böyükdür. Müzəffər Prezident İlham Əliyev bütöv Azərbaycanda multikulturalizm, tolerantlıq, regionda sülh, birgəyaşayış istiqamətində Azərbaycan modelini təşviq edir. Biz, Gürcüstanda yaşayan azərbaycanlılar hər zaman möhtərəm cənab Prezident İlham Əliyevin siyasətini dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Xalqımıza tarixi zəfər yaşadan məhz cənab İlham Əliyev olub. Xalqımız da bunu qiymətləndirməli idi və qiymətləndirdi. Fevralın 7-də növbədənkənar seçkilərdə müzəffər Prezidentimiz İlham Əliyev şəksiz qələbə qazandı. Müdrik xalqımız ən düzgün seçimini etdi. Əminik ki, Azərbaycan xalqı öz lideri ilə daha böyük zəfərlərə və zirvələrə doğru gedəcək. Biz birlikdə güclüyük!

P.ƏMİRCANOV
XQ

Qarabağ layihələri Azərbaycanın güc və qüdrətini təcəssüm etdirir

(əvvəli 1-ci səhifədə)

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə Azərbaycan üzrə statistik vahidlərin 3,1 faizi, kiçik, orta və iri sahibkarlıq subyektlərinin 2,6 faizi, fərdi sahibkarlıq subyektlərinin 6,8 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qeydə alınıb, yatırılan investisiyaların 31,7 faizi, pərakəndə ticarət dövriyyəsinin 2,4 faizi, sənaye istehsalının 0,4 faizi, ictimai iaşə dövriyyəsinin 2,1 faizi bu rayonların payına düşüb.

Yanvarın 1-nə fərdi sahibkarlar istisna olmaqla dövlət reyestrində qeydiyyatdan keçmiş statistik vahidlərin sayı 2023-cü ilin əvvəli ilə müqayisədə Qarabağ iqtisadi rayonunda 3,9 faiz artaraq 5041, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 7,3 faiz artaraq 1128 olub.

Hesabat ili ərzində işğaldan azad edilmiş rayonlarda 147 yeni müəssisə və təşkilat, 2662 yeni fərdi sahibkarlıq subyekti yaradılıb. Əvvəlki illə müqayisədə yeni yaradılan müəssisə və təşkilatların sayı 45,5 faiz, fərdi sahibkarlıq subyektlərinin sayı 23,4 faiz yüksəlib. Belə ki, 2022-ci ildə düşməndən təmizlənən rayonlarda 101 yeni müəssisə və təşkilat, 2157 yeni fərdi sahibkarlıq subyekti fəaliyyətə başlayıb. Xatırladaq ki, hesabat dövründə ən çox müəssisə və təşkilat Ağdam (35), Cəbrayıl (22) və Laçın (19) rayonlarında açılıb.

Ötən il Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin 2,4 faizi, başqa sözlə, 1 milyard 420 milyon manatı Qarabağ iqtisadi rayonunun payına düşüb. Bu isə 2022-ci illə müqayisədə 4 faiz çoxdur. İl ərzində Ağcabədi rayonu üzrə pərakəndə ticarət dövriyyəsi 382 milyon 81 min manat (illik 0,9 faiz çox), Ağdam üzrə 83 milyon 929 min manat (illik 16,9 faiz çox), Bərdə rayonunda 637 milyon 931 min manat (illik 6,2 faiz çox), Füzulidə 89 milyon 398 min manat (illik 8,3 faiz çox) olub.

Hesabat dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 6,4 milyard manat investisiya yatırılıb. İl ərzində Qarabağda əsas kapitala 2 milyard 438 milyon 21 min manat vəsait yönəldilib. Bunun 2 milyard 362 milyon 675 min manatı və yaxud 96,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilib. İqtisadi rayon üzrə ən çox investisiya 623 milyon 158 min manat olmaqla Şuşa rayonuna yatırılıb. Bu da Qarabağ üzrə ümumi investisiyaların 25,6 faizini təşkil edib. Həmin vəsaitin 614 milyon 563 min manatı və yaxud 98,5 faizi tikinti-quraşdırma işlərinə xərclənib.

2023-cü ildə Xankəndi şəhərində əsas kapitala 31 min 500 manat investisiya yönəldilib. Bu göstərici Ağdamda 568 milyon 374 min manat, Füzulidə 677 milyon 174 min manat, Xocalıda 304 milyon 223 min manat, Xocavənddə 113 milyon 951 min manat olub. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə isə əsas kapitala yönəldilmiş vəsaitin məbləği 3 milyard 955 milyon 190 min manat təşkil edib. Bunun 3 milyard 749 milyon manatı və yaxud 94,8 faizii tikinti-quraşdırma işlərinə sərf edilib.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, ümumilikdə, 261 milyon 712 min manat həcmində sənaye məhsulu istehsal olunub. Bu göstəricinin 242 milyon 860 min manatı Qarabağ iqtisadi rayonunun payına düşüb.

İl ərzində sənaye sektoru üzrə ÜDMin həcmi Ağcabədi rayonunda 76 milyon 70 min manat, Bərdədə 72 milyon 967 min manat, Ağdamda 30 milyon 728 min manat, Tərtərdə 28 milyon 680 min manat, Füzulidə 26 milyon 772 min manat, Şuşada 6 milyon 496 min manat, Xocavənddə 1 milyon 19 min manat, Xocalı rayonunda isə 124 min manat təşkil edib.

Hesabat dövründə Şərqi Zəngəzur iqtisadi rayonunda 18 milyon 852 min manat həcmində sənaye məhsulu istehsal edilib. Bu iqtisadi rayonda ən çox sənaye istehsalı 11 milyon 189 min manat həcmlə Laçın rayonunda olub. Cəbrayıl rayonunda sənaye istehsalı 3 milyon 344 min manat, Kəlbəcərdə 2 milyon 7 min manat, Qubadlıda 1 milyon 187 min manat, Zəngilanda isə 1 milyon 124 min manat təşkil edib. Ümumilikdə, 2023-cü ildə Azərbaycanda 66 milyard 619 milyon 55 min manat həcmində sənaye məhsulu istehsal olunub.

Ötən il Qarabağ iqtisadi rayonunda 411min ton dənli və dənli paxlalı bitkilər (illik 0,04 faiz çox) istehsal edilib. Şərqi Zəngəzur iqtisadi rayonunda isə həmin göstərici isə 20 min ton olub. Şərqi Zəngəzurun heyvandarlıq sahəsində də müsbət rəqəmlər qeydə alınıb. Belə ki, hesabat dövründə adı çəkilən iqtisadi rayonda 96 min 169 iribuynuzlu mal-qara, o cümlədən 44min 38 inək və camış olub ki, bu da illik müqayisədə müvafiq olaraq 2,2 faiz və 1,6 faiz çoxdur.

Ötən il Qarabağ iqtisadi rayonu üzrə avtomobil nəqliyyatı ilə 4 milyon 368 min ton, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə isə 869 min ton yük daşınıb. Bu isə 2022-ci illə müqayisədə müvafiq olaraq 6 faiz və 9 faiz çox təşkil edib.

Hesabat dövründə sözügedən iqtisadi rayonlarda yeni iş yerlərinin yaradılması da diqqət mərkəzində saxlanılıb. Belə ki, ötən il Qarabağ iqtisadi rayonunda 984 yeni iş yeri açılıb. Bu da 2022-ci illə müqayisədə 7 faiz çox olub. Şərqi Zəngəzurda isə hesabat dövründə illik müqayisədə 3,4 dəfə çox, yəni 751 yeni iş yeri açılıb.

Qeyd edək ki, ötən il Ağdam rayonunda Bərdə-Ağdam, Füzuli-Hadrut, Şükürbəyli-Cəbrayıl-Hadrut, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yolları, "Cəbrayıl" və "Hadrut" qovşaq elektrik yarımstansiyaları, Cəbrayıl, Füzuli və Xocavənddə Rəqəmsal İdarəetmə mərkəzləri, Kəlbəcər rayonunda hərbi hospital, "Qamışlı", "Meydan", "Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyaları, Laçın rayonunda "Qorçu" yarımstansiyası, "Laçın" şəhər yarımstansiyası, "Həkəri Balıq Təsərrüfatı", Laçın rayonunun sənaye zonasında mebel fabriki, Şuşa rayonunda Zarıslıçay nasos stansiyası, Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi, Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi, Şuşa Yaradıcılıq Mərkəzi, "Yasəmən" hoteli, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri, Milli Xalça Muzeyinin Şuşa filialı, Mehmandarovların malikanə kompleksi, Zəngilan Konqres Mərkəzi Kompleksi və digər mühüm əhəmiyyətli obyektlər istifadəyə verilib.

Vaqif BAYRAMOV
XQ

Prezident İlham Əliyev "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" 2024-cü il 13 yanvar tarixli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

COP29-un Təşkilat Komitəsi gücləndirildi

Dövlət başçısının imzaladığı bu önəmli sənəd COP29-un müstəqil Azərbaycanın təşkil edəcəyi ən böyük tədbir olduğundan, burada qlobal əhəmiyyətli məsələlərin müzakirə ediləcəyindən xəbər verir.

Ümumiyyətlə, COP29-la bağlı respublikamızdan böyük gözləntilər var. Ona görə də həm hazırlıq prosesinin, həm də tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruridir. Bax, elə bu baxımdan da Təşkilat Komitəsinin (TK) tərkibi bir qədər də genişləndirilib. Belə ki, faktiki olaraq TK-də gender balansı tam təmin olunub. Bu isə Azərbaycan Prezidentinin qadınların cəmiyyətdəki roluna olan diqqət, etimad və hörmətin göstəricisidir.

Bu sahədə dünyada vətəndaş cəmiyyəti çox fəaldır. Ona görə TK-yə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib. COP29-da müzakirə olunacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, TK-da iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar. Bir sözlə, yuxarıda adı çəkilən sərəncamın əsas ideyası TK-nin maksimum inklüzivliyinin təmin edilməsidir.

Qeyd edək ki, neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib. COP29-un Bakıda keçirilməsi qərarı isə həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə olan qlobal dəstəyi nəzərə çarpdırır.

Onu da xatırladaq ki, bərpaedilən və "yaşıl enerji" əsasında istehsal olunan elektrik ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir, statistik göstəricilərə görə, ölkənin quruda külək və günəş enerjisinin həcmi 27 giqavat, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 giqavat təşkil edir.

2020-ci ildə 44 günlük müharibədən dərhal sonra Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru, Naxçıvanı "yaşıl enerji bölgəsi" adlandırıb və bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb.

Beləliklə, Azərbaycan apardığı məqsədyönlü iş, böyük zəhmət və bu sahədə qazandığı uğurlar sayəsində İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi etməyə tam layiqdir.

XQ

1 ayda əmlak gəliri 15 milyon manatdan çox olub

Bu ilin ilk ayında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən özəlləşmə və icarədən dövlət büdcəsinə 15,3 milyon manat vəsaitin ödənilməsi təmin edilib.

Dövlət xidmətinin məlumatına görə, ötən ay özəlləşdirmədən isə dövlət büdcəsinə daxilolmalar 12,3 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 dəfə çoxdur. Yanvar ayında, həmçinin 46-sı qeyri-yaşayış, 155-i isə torpaq sahələrinə aid olmaqla, ümumilikdə, 201 yeni icarə müqaviləsi bağlanılıb. Daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən isə dövlət büdcəsinə 3 milyon manat vəsaitin ödənilməsi təmin olunub.

XQ

Avropa Azərbaycandan "yaşıl enerji" gözləyir

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasına töhfə verməsi üçün bərpaolunan enerji potensialı kifayət qədərdir. Belə ki, təsdiqlənmiş proqnozlara görə, ölkəmizin quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir. Dünya Bankının bir qolu olan Beynəlxalq Maliyyə Korporasiyası da Azərbaycanın Xəzər dənizində yüksək bərpaolunan enerji potensialına malik olduğunu təsdiqləyib.



Məlum olduğu kimi, son illər Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilib. Ölkə Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsində bildirmişdi ki, biz istəyirik öz vəsaitimizi bu sahəyə ayıraq ki, həm ölkəmizdə, necə deyərlər, "yaşıl enerji" inkişaf etsin, həm də dünyaya töhfə verək. Azərbaycan isə bütün dünyanın karbon emissiyalarının azaldılması üçün səfərbər olduğu müasir dövrdə zəngin enerji potensialından səmərəli istifadə etməklə bağlı lazımi işlər görür. Ötən illərdə bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda ölkəmizin ümumi enerji istehsalında "yaşıl enerji"nin payı, təqribən, 20 faiz təşkil edir.

Göründüyü kimi, Azərbaycan yaxın gələcəkdə özünün enerji ixracında bərpaolunan enerjinin payını kəskin artırmağı hədəfləyib. Xatırladaq ki, Prezident İlham Əliyev yerli televiziya kanallarının nümayəndələrinə verdiyi müsahibəsində bu vacib məqama toxunaraq bildirmişdi ki, "yaşıl enerji"yə gəldikdə, yenə də burada Azərbaycan öz rolunu oynayacaq. "Yaşıl enerji" dəhlizinin, o cümlədən Qara dənizin dibi ilə çəkiləcək kabelin də Azərbaycanın resurslarına hesablandığını diqqətə çatdıran dövlət başçısının sözlərinə görə, "yaşıl enerji"ni ixrac etməklə ölkəmizin önəminin daha da artacağını Avropa Komissiyasında da yaxşı anlayırlar. Təsadüfi deyil ki, bu il martın 1-də Bakıda keçiriləcək Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının gedişində bərpaolunan enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti, eləcə də perspektiv imkanlar geniş müzakirə olunacaq.

Yeri gəlmişkən, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson martın 1-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı ilə bağlı müsahibəsində hazırda təmsil etdiyi qurumun Gürcüstan və Rumıniya arasında Qara dənizin dibi ilə ikitərəfli xəttin çəkilməsi təşəbbüsünü böyük maraqla izlədiyini diqqətə çatdırıb. Texniki-iqtisadi əsaslandırmanın hazırlığının davam etdiyini bildirən xanım Simson, həmçinin deyib ki, bu layihə artıq Avropanın elektrik enerjisi ötürmə sisteminin operatorlar şəbəkəsinin inkişafı üzrə onillik plana daxildir. Onun sözlərinə görə, Qara dənizin dibi ilə çəkiləcək kabel xətti Avropa İttifaqının "Qlobal qapı" strategiyasına flaqman layihə kimi daxil edilib.

Enerji komissarı bunun sahə üzrə ilk mühüm layihə olduğunu və "yaşıl enerji" tədarükünün, o cümlədən bərpaolunan enerji mənbələrindən mümkün hidrogen ticarəti imkanı üzrə daha geniş dəhlizin nəzərdə tutulduğunu qeyd edib. "Getdikcə daha çox ölkənin bu təşəbbüsə qoşulmaqda maraqlı olduğunu bildirməsi faktını müsbət qarşılayır və onları "yaşıl enerji" dəhlizinn yaradılmasının iqtisadi əsasını yaxşılaşdırmağa və bununla təşəbbüsdən qarşılıqlı faydanı artırmağa çağırırıq", - deyə Kadri Simson əlavə edib.

Energetika nazirinin müavini K.Abbasov Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilmiş "Enerjiyə baxış üzrə 14-cü Beynəlxalq Enerji Agentliyi – Beynəlxalq Enerji Forumu – Neft İxrac Edən Ölkələr Təşkilatı Simpoziumu"nda çıxışı zamanı ölkəmizin enerji sektorunda həm ənənəvi, həm də bərpaolunan enerji mənbələri baxımından əldə etdiyi nailiyyətlərdən ətraflı bəhs edib. O, qeyd oedib ki, Azərbaycan COP28 çərçivəsində "yaşıl enerji" və enerji səmərəliliyi ilə bağlı təşəbbüslərə qoşulub və bərpaolunan enerjinin ölkənin elektrik enerjisi üzrə ümumi qoyuluş gücündə payının 2027-ci ilədək hazırkı 20 faizdən 33 faizə yüksəldilməsini planlaşdırır.

Nazir müavini, həmçinin deyib ki, Azərbaycanın "yaşıl hidrogen" sahəsinə marağı ifadə edilib və vurğulanıb ki, aşağı karbonlu enerjiyə artan tələbatı ödəmək üçün hidrogenin bərpaolunan enerji mənbələri hesabına istehsalı və ixracı potensialı araşdırılır.

Qeyd edək ki, simpoziumda "Enerji təhlükəsizliyi, texnologiya və davamlılıq – Ssenarilər və bazarlar", "Əsas dünyagörüşü və müqayisəli təhlil nəticələri", "Enerji təhlükəsizliyində ticarət və investisiya, Bazar sabitliyi və əlverişli giriş" və "Ortaq məqsədlərə çatmaq üçün siyasət və enerji bazarı təşviqləri" adlı 4 sessiya üzrə müzakirələr aparılıb.

Mirbağır YAQUBZADƏ
XQ

Fransa İrəvanı müharibəyə sürükləməkdən əl çəkmir

(əvvəli 1-ci səhifədə)

Əgər Azərbaycanın prinsipial mövqeyi, güclü ordusu olmasaydı, işğal faktını aradan qaldırmaq mümkün olmazdı. Hətta, Ermənistan İkinci Qarabağ müharibəsindəki məğlubiyyətə, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatla öz üzərinə öhdəlik götürməsinə baxmayaraq, qoşunlarını Qarabağın separatçı xuntanın nəzarətində qalmış hissəsindən çıxarmaqdan imtina etdi. Bu, yalnız lokal xarakterli antiterror tədbirləri sayəsində baş tutdu. İndi belə bir ölkənin silahlanması, əlbəttə, Azərbaycanda təhlükəsizlik qayğılarının yaranmasına səbəb olur.

Düzdür, ölkəmiz regionda proseslərin istənilən formada inkişafına hazırdır. Dövlətimizin başçısı Azərbaycan Ordusunun hazırda Vətən müharibəsi dövründəkindən daha güclü olduğunu bir neçə dəfə bildirib. Bununla belə, Azərbaycan yeni müharibə, əlavə qan tökülməsini arzulamır.

Eyni zamanda, İrəvanın silahlandırılması onun Azərbaycanla sülh müqaviləsi imzalamasına marağını azaldan amildir. Paşinyan hökuməti yenidən başqa xəyallara düşə, revanş arzulayar ki, bu da sülh müqaviləsi üzrə danışıqları poza bilər.

Onu da bildirək ki, İrəvan–Paris əlaqələrinin hər zaman yüksək səviyyədə olmasına baxmayaraq, Ermənistanın dövlət müstəqilliyini bərpa etməsindən indiyədək Fransa müdafiə nazirlərindən heç biri Hayastana səfər etməmişdir. Bunun özü də diqqətçəkən nüansdır və iki ölkənin müdafiə sahəsində əməkdaşlığının dərinləşməsindən xəbər verir.

Səfərin özünə gəldikdə isə qeyd etmək lazımdır ki, fransız nazir təmtəraqla qarşılanıb. Səhər saatlarında müdafiə nazirliyinin inzibati binasının həyətində fəxri qarovul dəstəsinin və hərbi orkestrin iştirakı ilə Lekornunun qarşılanma mərasimi olub. Ermənistan və Fransanın dövlət himnləri səsləndirilib. Sonra hayların müdafiə naziri Suren Papikyan fransalı həmkarını qəbul edib. Lekornu ilə İrəvana gələn nümayəndə heyətinə "MBDA", "Nexter", "Safran", "Thales" və "Arquus" kimi müdafiə şirkətlərinin təmsilçiləri də daxildir.

Nazirlərin görüşündən sonra iki ölkə arasında yeni əməkdaşlıq sazişləri imzalanıb.

Daha sonra keçirilən mətbuat konfransında S.Lekornu İrəvana qahmar çıxıb. Deyib ki, heç kim Ermənistanı ordusunun imkanlarını daha da inkişaf etdirdiyinə görə tənqid edə bilməz: "Lazım olarsa, qısa, orta və uzaqmənzilli raketlər də Ermənistanın müdafiə qabiliyyətinin inkişafının tərkib hissəsi olacaq. Ermənistana hansı texnikanın gələcəyi ilə bağlı çox təfərrüata varmayacağam, lakin bunların hamısı müdafiə baxımından əhəmiyyət kəsb edir".

O qeyd edib ki, hazırda prioritet məsələ silahların əldə edilməsi və onlardan istifadə üçün şəxsi heyətin hazırlanmasıdır: "Ermənistanın özünü müdafiəsinə kömək etmək bizim üçün prioritet məsələdir. Əgər Ermənistan təhdid altında olmasaydı (?), belə müzakirələrə ehtiyac qalmazdı".

Lekornu onu da bildirib ki, Fransanın Ermənistanda daimi hərbi müşaviri olacaq.

S.Papikyan isə söyləyib ki, "Ermənistan öz ərazi bütövlüyünü və suverenliyini qorumaq üçün" (?) silah-sursat alır. O, Ermənistan–Fransa hərbi əməkdaşlığının heç kimə qarşı yönəlmədiyi tezisini bir daha təkrarlayıb.

N.Paşinyan isə fransız naziri qəbul edərkən deyib ki, Fransa Ermənistanın təhlükəsizlik sahəsində münasibətləri şaxələndirmək qərarına ilk cavab verən ölkələrdən biridir.

Mövzu üzrə söhbətləşdiyimiz Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki, Fransa, Hindistan və İran işğalçı dövləti silahlandırırlar. Onun sözlərinə görə, Ermənistanda işğalçılıq düşüncəsi bitməyib. Bunun bitmədiyi müddətcə isə Ermənistanın silahlandırılması region üçün ciddi təhdiddir: "Silahların müdafiə xarakteri daşıdığını nə qədər desələr də, bunun belə olmadığı hər kəsə aydındır. Ermənistanın konstitusiyasında, digər qanunlarında hələ də Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları qalmaqdadır.

"Qarabağ hərəkatı"nın başlamasının 36-cı ildönümü münasibətilə bugünlərdə İrəvanda keçirilən aksiyada Paşinyana Qarabağdan imtina etməməklə, əsas qanunu dəyişdirməməklə bağlı çağırış edildi. Yəni, işğalçı zehniyyət hələ də davam edir. Belə bir dövləti silahlandırmaq onun bir gün yenə hücuma keçə biləcəyi deməkdir".

C.Vəliyev qeyd etdi ki, Fransanın atdığı bu addım gərginliyi, necə deyərlər, canlı saxlamağa xidmət edir: "Fransa, eləcə də İran Ermənistan və Azərbaycan, habelə Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşmasını istəmirlər. Əgər bu, baş verərsə, onların Cənubi Qafqaza müdaxilə ehtimalı aradan qalxacaq. Hər dövlətin özünün siyasi taktikası var. Bunların taktikası regionda mövcudluqlarını daha çox münaqişələr, silahlandırma üzərindən davam etdirməkdən ibarətdir. Azərbaycan və Türkiyə isə bildirirlər ki, Zəngəzur dəhlizi layihəsini həyata keçirək, digər kommunikasiyalar açılsın, enerji xətləri işləsin, ticarət edək. Yəni, iki ölkə bu məqamlar üzərindən əməkdaşlıq qurulmasını istəyir. Ancaq Fransa Ermənistanla əməkdaşlığını onu silahlandırmaq üzərində qurur".

Politoloq hesab edir ki, Fransanın bu addımına son dövrlərdə baş verən hadisələr kontekstində də baxmaq lazımdır. Onun fikrincə, xüsusilə, fevralın 17-də Münxendə Azərbaycan və Ermənistan liderləri arasında keçirilən görüşdə Fransanın iştirak etməməsi diqqət çəkir: "Paris son üç ildə Azərbaycana bir neçə dəfə diplomatik hücumlar etdi. Azərbaycan həmin hücumların qarşısını aldı və Fransaya qalib gəldi. Məncə, Münxendə keçirilən görüş də bunlardan biri idi. Çünki Makron bu görüşlərdə iştirak etməkdə davamlı israr edirdi. Amma Azərbaycan bunu istəmirdi. Göründüyü kimi, Münxendə ölkəmizin istədiyi oldu. Buna görə də Fransa aqressivləşib. Fransa hər dəfə Azərbaycana uduzduqca, Ermənistana daha çox dəstək vermək üçün yollar axtarır. Zənnimcə, Makronun Paşinyanın Parisə səfərindən dərhal sonra müdafiə nazirini İrəvana göndərməsinin arxasında bu dayanır".

BMTM-in şöbə müdiri Fransanın Ermənistanı silahlandırmasının Rusiya ilə birbaşa bağlılığının olduğunu güman etmir: "Xeyr, Fransa Rusiyanın Ermənistanda hegemonluğundan və ya dominant mövqeyindən narahat deyil. Bunu fransızlar özləri də ifadə edirlər. Əksinə, Paris Rusiyanın Azərbaycan və Türkiyənin regionda güclənməsinə qarşı çıxmamasından narahatdır. Yəni, Fransa Ermənistanın silahlandırılmasını Azərbaycan və Türkiyəyə qarşı həyata keçirir. Ermənistanı, necə deyərlər, Rusiyanın əlindən almaq üçün həyata keçirmir. Biz bunu Paşinyanın və Makronun Parisdə verdiyi açıqlamalarında da gördük. Onlar Rusiyaya qarşı heç bir tənqidi fikir səsləndirmədilər. Təkcə Azərbaycan və Türkiyəyə qarşı fikirlər səsləndirdilər. Niyyətlərini açıq-aşkar bəyan etdilər. Bu mənada deyə bilərik ki, Fransa Ermənistanı bölgədə gərginliyi davam etdirmək, Azərbaycan və Türkiyəyə qarşı istifadə etmək və regionda öz varlığını bu gərginlik vasitəsilə qorumaq üçün silahlandırır".

Politoloq Yeganə Hacıyeva isə dedi ki, Fransa hökuməti hələ 2021-ci ildə Ermənistanla müdafiə əməkdaşlığının genişləndirilməsi üzrə strategiya işləyib hazırlayıb. Onun sözlərinə görə, həmin strategiyanın həyata keçirilməsi isə 2023-cü ilin aprel ayında Fransa xarici işlər naziri Ketrin Kolonnanın Ermənistana səfərindən sonra baş verdi: "Fransanın Ermənistana silah-sursat tədarükü üzrə xüsusi hərbi attaşenin

təyin olunması da Kolonnanın İrəvana səfəri zamanı elan olundu. Həmin təyinatla Ermənistan–Fransa müdafiə əməkdaşlığı fəallaşdı. Bu, Azərbaycan və Ermənistan arasında həm Vaşinqton, həm də Brüssel formatı çərçivəsində aparılan danışıqlar fonunda Fransanın gərginliyi yenidən bərpa etmək cəhdləri idi. Bundan bir neçə gün sonra isə Fransanın Ermənistana zirehli texnika və silah tədarükü başladı. Keçin ilin may ayından başlayaraq 50 ədəd "VAB MK3" tipli zirehli texnika tədarük edildi. Bu il üçün isə Fransanın "Arquus" şirkətinin istehsalı olan "Bastion" və "Şerpa" zirehli maşınlarının tədarükü planlaşdırılır. Planlaşdırılan silah təchizatına 250 kilometr məsafədə rəqib təyyarələrini aşkar etməyə imkan verən üç "Ground Master" radarı (GM-200), həmçinin gecəgörmə cihazları daxildir. Tərəflər arasında imzalanan müdafiə sahəsində əməkdaşlıq sazişində Fransa ordusunun bu il erməni hərbçiləri üçün üç dəfə dağlarda döyüş hazırlığı kursu keçirməsi nəzərdə tutulur".

Y.Hacıyeva hesab edir ki, rəsmi Paris təcavüzkar Ermənistanı müasir silahlarla təmin etməklə sülh prosesinə zərbə vurmağa və regionda gərginliyin artmasına çalışır: "Fransa aktiv şəkildə Cənubi Qafqazda hərbi mövcudluğunu genişləndirmək üçün Ermənistanla müdafiə sahəsində əməkdaşlığın hüquqi bazasını formalaşdırmaq işinə girişib. Ümumiyyətlə, bu, Parisin Ermənistanın hərbi arsenalını genişləndirmək istiqamətində ilk addımları deyil. Fransa həm işğal dövründə, yəni ATƏT-in Minsk qrupunun həmsədri olduğu dövrdə, həm 44 günlük Vətən müharibəsi dövründə, eləcə də ondan sonra Ermənistan ordusuna Azərbaycan hərbçilərinə və mülki vətəndaşlarına tuşlamaq üçün silahların verilməsində iştirak edib. Vətən müharibəsinə qədər iki ölkə arasında münasibətlərin hərbi-siyasi ölçüsünü tam əhatə edəcək hərtərəfli strateji saziş və ya müqavilə mövcud deyildi. Hazırda isə Fransa Ermənistanla müdafiə sahəsində əməkdaşlığın inkşafını üç istiqamətdə: ikitərəfli, Avropa İttifaqının missiyası və NATO çərçivəsində davam etdirmək üçün hüquqi baza formalaşdırır".

Müsahibimiz onu da qeyd etdi ki, son iki il ərzində ölkələr arasında imzalanmış sazişlərə əsasən Fransa Ermənistana hava hücumundan müdafiə, hərbi alpinizm, sülhməramlı və Aİ-nin missiyası çərçivəsində hərbi yardımlar göstərir. Fransız nazirin Ermənistana səfərinin İrəvanın revanşizm cəhdlərinə yeni impuls verəcəyi şübhəsizdir.

Səxavət HƏMİD
XQ

Azərbaycanın Ermənistana ərazi iddiası yoxdur

"İndependent Arabia" nəşrində Azərbaycan və Ermənistan arasında sülh danışıqları və Fransanın bu prosesə təsirinə dair məqalə yayımlanıb.

Yazıda ilk olaraq Ermənistanın baş naziri Nikol Paşinyanın bu günlərdə Fransaya rəsmi səfəri, burada dövlət başçısı Emmanuel Makron ilə görüşü və verilən bəyanatlara diqqət ayrılıb. Nəşr mövzu ilə bağlı Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovdan müsahibə alıb. E.Əmirbəyov qeyd edib ki, Azərbaycan 30 il Ermənistanın işğalı altında olmuş Qarabağ regionunu azad etdikdən sonra yekun sülh müqaviləsinin bağlanması üçün fürsətlər yaranıb. O, bu kontekstdə hər iki ölkənin rəhbərlərinin ən son olaraq Münxen Təhlükəsizlik Konfransı çərçivəsində görüşlərinə işarə edib.

İkitərəfli münasibətlərin inkişafı və sülh müqaviləsinin bağlanması üçün yaranan imkanlardan, eləcə də Azərbaycan və Fransa arasında soyuq olan əlaqələrdən bəhs edən E.Əmirbəyov, hazırda Ermənistan tərəfindən xoş niyyətin nümayiş etdirilməli olduğunu vacib hesab edib. Çünki sülhün əldə olunması Ermənistanın siyasi iradəsindən asılıdır.

Azərbaycanın Ermənistan ərazilərinə iddialı olması kimi cəfəng fikirlərinə aydınlıq gətirərək bildirib ki, Azərbaycan sülh müqaviləsinin müsbət nəticəsi kimi bütün nəqliyyat yollarının açılmasının tərəfdarıdır. Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı saxlayan, qışda Gürcüstan ilə yolların keçilməz olduğu və yalnız İranla rahat gediş-gəlişə malik Ermənistan bu məsələdə dilemma qarşısındadır.

Azərbaycan rəsmisi sonda bildirib ki, sülh müqaviləsinin bağlanması və iki ölkə arasında diplomatik münasibətlərin qurulması özü ilə bir çox üstünlüklər gətirə bilər və region tranzit yüklərin daşınması üçün əhəmiyyət qazanar.

XQ

XİN: Nikol Paşinyan sülh prosesinə zərbə vurur

Ermənistanın baş naziri Nikol Paşinyanın Fransanın "France 24" telekanalına verdiyi müsahibədə ölkəmizə qarşı yenidən səsləndirdiyi əsassız iddialar bölgədə qəsdən gərginlik yaradaraq, sülh prosesinə növbəti zərbə vurmaq məqsədi daşıyır. Bu barədə Ermənistanın baş nazirinin səsləndirdiyi iddialara dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində qeyd edilib.

Bildirilib ki, Almaniya Kanslerinin təşəbbüsü ilə liderlər arasında keçirilmiş sonuncu görüşdən sonra Ermənistan tərəfindən bu kimi açıqlamalar verilməsi və bunun üçün məkanın məhz Fransa olaraq seçilməsi, Almaniyanın səylərinə Ermənistan tərəfindən hörmətsizlik olmaqla, Fransa tərəfindən sülh prosesinə davam edən mənfi təsirlərin göstəricisi kimi qiymətləndirilir: "Guya, Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşması, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə əməl etmədiyi kimi iddialar mövcud faktların açıq-aşkar təhrif olunması və beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır".

Açıqlamanın sonunda qeyd edilir ki, Ermənistanın Konstitusiyasında, qüvvədə olan qanunvericilik aktlarında, rəsmi məktublarında və bəyanatlarında, beynəlxalq təşkilatlar və məhkəmələrdə yaydığı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların davam etməsi Ermənistan rəhbərliyinin Azərbaycan–Ermənistan sülh gündəliyinin irəli aparılmasında maraqlı olmadığını təsdiq edir.

XQ

Azərbaycan deputatları ATƏT PA-nın iclasında

ATƏT Parlament Assambleyasının (ATƏT PA) 23-cü qış sessiyasının ikinci günü ATƏT məkanında keçirilmiş seçkilərlə bağlı çıxışlar dinlənilib.

Milli Məclisin deputatı, ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev komitələrin birgə iclasında ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkiləri barədə çıxış edib. O, diqqətə çatdırılıb ki, seçkilər qanunvericiliyə uyğun, nizam-intizamla və peşəkarlıqla keçirilib, milyonlarla Azərbaycan vətəndaşı ədalətli və şəffaf seçkilərdə öz konstitusion hüquqlarından istifadə edib. Seçkilərdə 76,43 faiz fəallığın qeydə alınması əhalinin seçki prosesinə etimadını nümayiş etdirir. Prezident İlham Əliyev qalib Ali Baş Komandan kimi Azərbaycan xalqının böyük dəstəyini (səslərin 92,12 faizi) qazanıb.

Azay Quliyev yekunda Azərbaycanda seçkiləri müşahidə etmiş iştirakçı dövlətlərin nümayəndə heyətlərinə təşəkkürünü bildirib.

*

İqtisadiyyat komitəsində isə ATƏT məkanında iqtisadi vəziyyətə dair müzakirələr aparılıb.

Milli Məclisin üzvü Tahir Mirkişili İqtisadiyyat komitəsinin iclasında bildirib ki, iqtisadi təhlükəsizliyi müzakirə edərkən üzv dövlətlər arasında təhlükəsiz nəqliyyat əlaqələri dəstəklənməlidir. Güvən və mehriban qonşuluq şəraitində inşa edilən bu layihələrdən biri də Orta Dəhlizdir.

Bildirilib ki, Orta Dəhliz Çindən Qazaxıstan, qismən də Özbəkistan və Türkmənistandan keçməklə, Xəzər dənizindən Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Qara dənizə uzanan multimodal quru və dəniz nəqliyyatı marşrutudur. Şimal dəhlizində yaranmış maneələr də getdikcə Orta Dəhlizin əhəmiyyətini artırır.

XQ

Doha beynəlxalq sərgisində Azərbaycan günləri

"Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisində keçirilən Azərbaycanın Milli Günü çərçivəsində Qətər Milli Kitabxanasında "Qədim köklərə malik Azərbaycan mədəniyyəti" adlı kitab sərgisi və "Üç dilin şairi – Məhəmməd Füzuli" adlı tədbir keçirilib.

Qətərin dövlət katibi, Qətər Milli Kitabxanasının prezidenti doktor Həməd bin Abdulaziz Al-Kuvari Qətərlə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli Qətərdə Azərbaycan Mədəniyyəti Günlərinin təşkilində zəhməti keçən hər kəsə minnətdarlığını bildirib. Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov iki ölkənin milli kitabxanaları arasında əməkdaşlıq haqqında məlumat verib. Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Məhəmməd Füzuli yaradıcılığının ideya-bədii xüsusiyyətləri haqqında söz açıb, onun Türk-İslam dünyasında ədəbi düşüncəyə təsirindən danışıb.

İştirakçılar "Qədim köklərə malik Azərbaycan mədəniyyəti" sərgisi ilə tanış olublar. Qonaqlar, həmçinin milli şirniyyatlarımızın dadına baxıblar.

*

Axşam saatlarında isə sərgidə Azərbaycan müsiqisindən ibarət konsert proqramı təşkil olunub.

Konsertdə "Natiq" ritm qrupunun ifasında "Şuşanın ritmləri", "Mehriban", Azərbaycan ritmləri, "Cəngi", "Qaytağı", "Qarabağ" kompozisiyası, Xalq artisti Ənvər Sadıqov və "Buta" qrupunun ifasında "Fantaziya" və digər bəstələr, Azərbaycan

Dövlət Rəqs Ansamblının ifasında "Odlar Yurdu" süitası, "Qaytağı" rəqsi, "Zəngəzur yallısı" təqdim edilib.

Xatırladaq ki, 2023-cü il oktyabrın 2-də başlayan və bu il martın 28-dək fəaliyyət göstərən "Doha Ekspo 2023"də Azərbaycan milli pavilyonla təmsil olunur. Fevralın 21-dən başlanan Azərbaycan Mədəniyyəti Günləri bu gün başa çatacaq.

XQ

“Xocalıya ədalət!” harayı dünyada əks-səda doğurur

Səriyyə Müslümqızı: Həmin gecə nəslimizdən 49 nəfər qətlə yetirilib

Fevral ayında doğulmuşam, anam da fevralda dünyaya gəlmişdi. Amma indi fevral mənim üçün təqvimin ən qara ayıdır. Aradan illər keçməsinə baxmayaraq, fevral gecəsinin sazağını, şaxtasını indi də canımda hiss edirəm, – deyə Xocalı soyqırımının şahidi, həmin hadisələrdən bəhs edən 21 kitabın və 7 sənədli filmin müəllifi Səriyyə Müslümqızı söhbət açır.

– Bir gecənin içində uşaqlığımı, gəncliyimi keçirdiyim doğma yurdum, mənə dünya qədər əziz olan ata ocağımız məhv oldu. Təsəvvür etmək çətindir ki, Xocalıda keçirdiyim günlərin yadigarı olan bircə şəklim də qalmayıb. Ən dəhşətlisi isə odur ki, həmin gecədə anamı, üç əmim oğlunu itirdim. Xocalıda ən böyük itkini verən bizim nəsil olub, nəslimizdən 49 nəfər həmin gecə qətlə yetirilib. Xocalıda həlak olan 63 uşaqdan 19-u, 70 qocadan 20-si mənim ən yaxın qohumum idi…

O, Xankəndi Pedaqoji Universitetini bitirib, orta məktəbdə müəllim işləyib. Ötən əsrin 90-cı illərindən sonra müxbirlik fəaliyyəti ilə məşğul olub. “Xocalının səsi”, “Səhər” və digər mətbuat orqanlarında çalışıb. 15 ilə yaxındır ki, “Erməni Təcavüzünün Tanıdılması” İctimai Birliyinin sədridir. Türkiyədə, Almaniyada Azərbaycan həqiqətlərinin dünyada yayılması ilə əlaqədar müxtəlif tədbirlərin təşkilatçısı olub. Macarıstanda kütləvi qırğınların qarşısının alınması mövzusunda beynəlxalq tədbirin, Qarabağın işğalına qarşı Avstriyada və Bosniya-Herseqovinada keçirilən beynəlxalq konfransların iştirakçısıdır. “Faciəyə gedən yol”, “Xocalı yaşayır”, “Onlar heç vaxt böyüməyəcəklər”, “Xocalı ölməyib”, “Xocalıdan gələn var”, “Ölümdən o yandakı Xocalı”, “Xocalı uşaqları, qan içində qar çiçəyi”, “Dünya susmasın gərək”, “Sonda ümid ölür”, “Kəfəndən biçilən gəlinlik paltarı” kitablarının müəllifidir. Həmin kitabların çoxu bir neçə dildə çap edilib, “Onlar heç vaxt böyüməyəcəklər” kitabı isə türk, rus, ingilis, alman, ərəb, macar və malay dillərinə tərcümə olunub.

– Məni ən çox göynədən odur ki, soyqırımı baş verən gecə anamın qətlə yetirildiyi Qaraqaya ilə aramızdakı məsafə çox az olub. Amma mən nə onun harayına yetə bilmişəm, nə ona əlim çatmayıb, nə də bundan xəbərim olub, - deyə Səriyyə xanım ürək ağrısı ilə xatırlayır.

– Faciə gecəsi qətlə yetirilənlərin meyitləri Ağdam məscidində yuyata gətirilirdi. Onların çoxu yandırılaraq tanınmaz hala salınmış, gözləri çıxarılmış, başlarının dərisi soyulmuşdu. Anamın meyitini 23 gün sonra tapa bildim. Güllə kürəyindən dəyib ürəyindən çıxmışdı. Onun əyninə geyindiyi paltarı indi də son yadigar kimi saxlayırıq...

Bu yaxınlarda Xocalıda kütləvi məzarlığın aşkar edilməsi barədə danışan Səriyyə Müslümqızı deyib: “Qaniçən erməni quldurlarının Xocalıda kütləvi məzarlıqlar salması barədə çoxdan deyilirdi. Heç şübhəsiz ki, orada başqa məzarlıqlar da var. Neçə illərdən bəri apardığım şəxsi araşdırmalara görə, Qarqarçayın sahilində Xocalı sakini Cəlil kişinin ailə üzvlərinin də qəbirləri olmalıdır. Ermənilər faciə gecəsi zirzəmidə gizlənən ailə üzvlərini hamılıqla qətlə yetiriblər və ailə başçısının özünə həyat yoldaşı, oğlu, gəlini, qızı və nəvəsinin qəbrini qazdırıblar. Tam əminliklə deyirəm ki, Xocalının içində, hətta ətraf meşələrdə də başqa kütləvi məzarlıqların olması istisna edilmir”.

– Qarlı-çovğunlu gecədə ata ocağından ayrılanda dönüb doğma yerlərə baxdım və ürəyimdə tezliklə geri dönəcəyimə söz verdim. Lakin aradan çox uzun illər keçdi, bu illər ərzində mən demək olar ki, öz yurdumdan ayrılmadım, gündüz Xocalının xəyalları ilə yaşadım, gecələr onu yuxularımda gördüm, bu illər ərzində onun nisgili ilə yaşadım. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, igid əsgər və cəsur zabitlərin canı-qanı bahasına 32 ildən sonra yenidən əzizlərimizin ruhu dolaşan o yerlərə dönəcəyik. Açığını deyəcəyəm, Xocalıya dönmək mənim üçün heç də asan deyil. Bu illər ərzində gecə-gündüz məni bir an da olsun tərk etməyən xatirələrlə yenidən qol-boyun olmalı, ata ocağımızda çıraq yandırmalıyam. Axı bir vaxtlar mən o evdə anamla yaşayırdım, indi anamsız ora necə dönəcəyəm? - deyə Səriyyə xanım sual verir.

Süleyman QARADAĞLI

YAP Veteranlar Şurası soyqırımı qurbanlarını yad edib

Yeni Azərbaycan Partiyası Veteranlar Şurası partiyanın Nərimanov rayon təşkilatının qərargahında Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar “Azərbaycan həqiqətləri yeni geosiyasi reallıqlar kontekstində” mövzusundaanım mərasimi keçirib.

Əvvəlcə Xocalı faciəsi qurbanlarının və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məclisdə YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev Xocalı faciəsi zamanı dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyini, əsir götürülən insanların dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını bildirib. O, ulu öndər Heydər Əliyevin tariximizin ən qanlı səhifələrindən olan Xocalı soyqırımına siyasi-hüquqi qiymət verərək haqq səsimizi dünya dövlətlərinin və beynəlxalq təşkilatların diqqətinə çatdırdığını vurğulayıb: “Ümummilli liderin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı Soyqırımı Günü haqqında” Qərar qəbul edib. Bu qərardan sonra Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı Xocalı Soyqırımı Günü kimi qeyd olunur”.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə Xocalı soyqırımının erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifələrindən biri olduğunu diqqətə çatdırıb: “Xocalıda dinc əhalinin qətlə yetirilməsinin Ermənistanın irqi və dini dözümsüzlüyə əsaslanan genişmiqyaslı zorakılıq və ilhaq siyasətinin bir hissəsi olduğu vurğulanıb.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayətin beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almasını xüsusi diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində bu soyqırımının, ermənilərin törətdikləri digər vəhşiliklərin dünya ictimaiyyəti tərəfindən tanınması, obyektiv qiymətini alması üçün kompleks tədbirlər həyata keçirilir.

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Nuru Məmmədov, Milli Məclisin deputatı Sevinc Fətəliyeva ermənilər tərəfindən törədilmiş bu faciənin təkcə azərbaycanlılara deyil, həm də bütün bəşəriyyətə qarşı qanlı cinayət olduğunu qeyd ediblər. Onlar Xocalı şəhərinin ötən il sentyabrın 19-da Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan tamamilə təmizləndiyini qürurla qeyd ediblər. Bildirilib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycanın üçrəngli bayrağını ucaltmaqla soyqırımı qurbanlarının qanının yerdə qalmadığını, onların qisasının alındığını sübut etdi.

XQ

Xocalı şəhidlərinin intiqamı alındı

30 ildən çox idi ki, fevral ayının sonuna yaxın hər birimizin Xocalı adlı ürək yaramıza sanki duz səpilirdi. Mətbuatda çoxlu yazılar yazır, o günahsız qurbanları kədərlə yad edirdik. Bu il isə biz onları sevinc göz yaşları ilə, başımızı dik tutaraq anırıq. Əminliklə ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı!

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Dövlət Bayrağını ucaltdı və bununla da, keçdiyimiz enişli-yoxuşlu, qanlı-qadalı şərəf yolumuzun məntiqi nəticəsini təsdiqlədi. 30 ildən çox məkrli erməni xislətinə, dünya ermənilyinin havadarlarına, Qərb “biganəliyinə”, dünya terrorizminin ən qanlı və murdar dəstələrinə, Eçmiədzin emissarlarının uydurduqları xristian təəssübkeşliyinə qarşı apardığımız mübarizənin çox vacib mərhələsi başa çatdı.

2020-ci ilin payızında Azərbaycanın tarixi torpaqlarının işğalına son qoyuldu. ATƏT-in Minsk qrupu həmsədrlərinin “münaqişənin hərbi yolla həlli yoxdur” kimi 30 illik tezisi 44 gün ərzində darmadağın oldu və Cənubi Qafqazın geosiyasi arxitekturasında tam fərqli reallıq yarandı.

Regionun iqtisadi potensialının 80 faizindən çoxuna malik olan Azərbaycanın, geosiyasi əhəmiyyəti istər Qarabağın təbii-mineral ehtiyatları, istərsə də Şimalla Cənub, Qərblə Şərq arasında mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanlarının kəskin şəkildə artması baxımından Xəzər–Qara dəniz hövzəsi, Cənubi Qafqaz, Orta Asiya və hətta Yaxın Şərqdə daha da yüksəldi. Biz qalib gəldik, çünki onlardan bütün parametrlər üzrə, müqayisəyəgəlməz dərəcədə güclüyük. Regionda sabitliyin, təminatlı sülhün yaranması üçün olduqca əlverişli vəziyyətin yarandığını nəzərə alaraq yenə də öz sülhpərvərliyimizi nümayiş etdirdik.

Xankəndidə Azərbaycan bayrağını ucaldarkən Prezidentimizin böyük qürur və eyni zamanda ürək ağrısı ilə söylədiyi kimi “Azərbaycan xalqı yaxşı bilir və əminəm, dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər”. Amma dünya şahid oldu ki, antiterror əməliyyatı ilə cəmi 23 saat kifayət etdi ki, Azərbaycan Bayrağı Xankəndi, Xocalı və Əsgəranda ucalsın!

Ermənistana gəldikdə isə, işğalçılığı dövlət siyasəti səviyyəsinə qaldıran, 44 günlük müharibədə məğlubiyyət acısı yaşayan bir ölkədə dövlətin, cəmiyyətin bəlkə də qarşısıalınmaz çöküşü haqda ovqatın inama çevrilməsi prosesi – “deklinizm” hökm sürməyə başladığı bir vaxtda, məğlub Ermənistan sülh təklifini ən alternativ yol kimi qəbul etməli olduğu halda, erməni şairi E.Çarentsin təbirincə desək, erməni xisləti tam gücü ilə işə düşdü. Azərbaycanlılara qarşı 30 ildə etnik təmizləmə və kütləvi qırğınlar törətmiş Ermənistan rəhbərliyi, onların havadarları, qərb “insanpərvərləri” və xristian “təəssübkeşləri”ndən ibarət bir xor Azərbaycanı etnik təmizləmədə təqsirləndirməyə başladılar. Azərbaycanın Xankəndidə öz bayrağını ucaltdıqdan sonra “etnik təmizləmə” Ermənistanın çoxsaylı siyasilərinin dilindən, müxtəlif Avropa tribunalarından tez-tez səslənir.

Hərçənd bu kəlməni ilk dəfə Ermənistan Prezidenti S.Sarkisyan 30 il əvvəl Tomas de Vaal adlı jurnalistin yazdığı “Qara Bağ” adlı kitabda səsləndirmişdi: “Tomas de Vaal: Mənə elə gəlir ki, sadəcə olaraq, siz adətən dəhliz qoyurdunuz ki... S.Sarkisyan: Bu, əsasən, Xocalıdan sonra belə oldu. Çünki əslində bizim müharibəmiz başqalarından bir qədər fərqlənirdi. Bizdə elə alındı ki, müəyyən etnik təmizləmə gedirdi. Başqa cür ola da bilməzdi...” Əlavə şərhə ehtiyac yoxdur. Xocalı qətliamı əsil etnik təmizləmə idi və bu gün müxtəlif tribunalardan Azərbaycanı etnik təmizləmə siyasətində təqsirləndirən müxtəlif çeşidli Avropa siyasiləri Ermənistan prezidentinin əsil etnik təmizləmə siyasəti haqda etirafını görməzdən gəlir, anlamaq istəmirlər ki, ikili standartlarla erməni faşizmini stimullaşdırırlar.

Təsadüfi deyil ki, acınacaqlı günlərində belə Ermənistan rəhbərliyi sülh təklifini xilas yolu kimi qəbul etməli olduqları halda, ərazi iddialarından əl çəkmək fikrindən uzaqdır və sülh sazişinin imzalanması yolunda süni maneələr yaratmaqdadır.

Yuxarıda qeyd etmişdik ki, biz məkrli erməni xislətinə qarşı apardığımız mübarizənin çox vacib mərhələsini şərəflə başa çatdırdıq. Lakin mübarizə bitməyib, erməni faşizminin səsi hələ də eşidilməkdədir.

Biz Xocalı faciəsini heç vaxt unutmamalıyıq. O məşum gecədə vəhşicəsinə qətlə yetirilən günahsız insanların – məsum körpələrin, qadınların, qocaların qisası alındı. Onların 30 il rahatlıq tapmayan ruhları şad oldu. Prezidentimizin hər birimizin ürəyindən gələn, hər birimizin adından səsləndirdiyi kimi “Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub”.

Biz Xocalı faciəsini həm də ona görə unutmamalıyıq ki, bu faciə unutqanlığımızın cəzası olan növbəti dəhşətli bir xatırlatmadır. Bunları unutmağımızın bədəli, bir qayda olaraq çox ağır olur və biz bundan ciddi nəticələr çıxarmalıyıq. Çünki düşmənimizin xisləti dəyişməzdir. Ölkə rəhbərimiz Xocalı şəhərində Dövlət Bayrağını ucaldarkən demişdir: “Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir? Həmin ölkələr ki, o vaxt –1992–1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində.”

Biz də dəyişmirik, daha da mətinləşir, daha da güclənirik! Prezidentin dediyi kimi “...xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı.”

Bəli! Əyilmədik, sınmadıq! Və heç vaxt əyilməyəcəyik! Sınmayacağıq! Qurub yaradacağıq! Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin mayında başlamış “Xocalıya ədalət!” kampaniyası, “Xocalıya böyük qayıdış”a çevrilməkdədir! Xalqımızın 7 fevral Prezident seçkilərində nümayiş etdirdiyi yekdillik və müdrik seçim onu deməyə əsas verir ki, 30 ildən çox matəmdə olan o torpaqlarda tezliklə şən həyat qaynayacaq!

İlham MƏDƏTOV,
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Bu il Xocalı həsrəti bitəcək

Azərbaycan Ordusunun ötən ilin sentyabrında keçirdiyi birgünlük antiterror tədbirləri nəticəsində Xocalı şəhəri separatçılardan təmizlənib. İşğaldan azad olunmuş bütün əraziləri kimi, Xocalı şəhərində də təmir-bərpa işlərinə başlanılıb. Hava şəraitinin soyuq keçməsinə baxmayaraq, gecə saatlarına qədər işlər davam edir. İnşaatçılar arasında xoçalılar da var.

Hazırda şəhərdə çox sayda tikinti şirkəti fəaliyyət göstərir və hər şirkətin cavabdeh olduğu məhəllələr də var. Bu şirkətlərdən biri “MİDA” MMC-dir. “MİDA” 8,5 milyon manatlıq müqaviləyə əsasən, Xocalı şəhərində 3,34 hektar ərazidə yerləşən 15 çoxmənzilli yaşayış binasının əsaslı təmiri və ərazinin abadlaşdırılması işlərini həyata keçiririr. Digər şirkət isə “Bakı Abadlıq Xidməti” MMC-dir. Firma Xocalı şəhərinin bərpa və yenidən qurulmasında yaxından iştirak edir. Bundan başqa, qurum Kərkicahan qəsəbəsi, Malıbəyli və Turşsu kəndlərinin bərpasına da cavabdehdir. Adı çəkilən yaşayış məntəqələrinin bərpası və yenidən qurulması tədbirlərinə başlamaq məqsədilə şirkətlə 152 milyon 247 min 600 manat məbləğində müqavilə imzalanıb.

“Bakı Abadlıq Xidməti” MMC-nin memarı Elnur Abdullayev bildirib ki, hazırda Xocalı şəhərinin ərazisində 283 fərdi evdə əsaslı bərpa-quruculuq işləri görülür. “Fərdi evlərlə yanaşı, şəhərin infrastrukturu da yenidən qurulur. Artıq rabitə, elektrik, içməli su, kanalizasiya və digər daşıyıcı xətlərin çəkilişi yekunlaşıb, ev birləşmələri işi aparılır.

Xocalı şəhəri dağıntılarla bərabər, ekoloji terrora da məruz qalıb. Yabanı bitkilərdən, məişət tullantılarından təmizləmə işləri də davam edir. Tullantıların yığılması üçün 10 hektar sahədə poliqon yaradılacaq.

Təmir-bərpa işləri ilə yanaşı, Xocalı ətrafındakı meşəlik ərazilər də minalardan təmizlənir. Bu da onu göstərir ki, təmir-bərpa işləri daha geniş əraziləri əhatə edəcək. Onların rabitə və internetlə bağlı heç bir problemləri olmayacaq. Çünki “Azercell Telekom” MMC Xocalıda baza stansiyalarını işə salıb. İndiyədək şəhərdə internet magistral xətti və geniş-zolaqlı internet şəbəkəsinin yaradılması təmin edilib.

Bu ildən şəhərin bərpa-tikinti qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi həyata keçiriləcək. Xocalılar tamamilə yenilənmiş, zəruri yaşayış şəraitinin yaradıldığı evlərdə məskunlaşacaqlar.

Beləliklə, vaxtilə soyqırımı və dağıntılara məruz qoyulan Xocalının azad olunması və dərhal bərpasına başlanılması mənəvi baxımından çox böyük əhəmiyyət daşıyır. 32 ildən sonra xocalılar doğma şəhərlərində gələcəyə böyük ümidlərlə öz həyatlarını davam etdirəcəklər.

Pünhan ƏFƏNDİYEV
XQ

Ədəbiyyata xidmətlə qazanılan əbədiyyət

Dünən Milli Azərbaycan Ədəbiyyatı Muzeyində "Elmimizdə və qəlbimizdə yaşayan Həmid Araslı" mövzusunda elmi sessiya və anım mərasimi keçirilib.

Məclisi giriş sözü ilə açan muzeyin direktoru Rafael Hüseynov akademik Həmid Araslının ömür yolu və yaradıcılığı barədə ətraflı məlumat verib. O qeyd edib ki, 115 il əvvəl bu gün anadan olmuş görkəmli alim zəngin araşdırmaları ilə ölkəmizdə ədəbiyyatşünaslığın inkişafına dəyərli töhfələr verib. Azərbaycan ədəbiyyatı tarixinin sistemləşdirilməsi və dolğun mənzərəsinin yaradılması onun mühüm elmi nailiyyətlərindəndir.

Akademik Rəfael Hüseynov daha sonra bildirib ki, Həmid Araslı SSRİ və dünya ədəbiyyatşünaslığında yanlış konsepsiyaların geniş yayıldığı bir zamanda Nizami sənətinin milli ruhuna xüsusi həssaslıqla yanaşıb, şairin öz irsinə əsaslanaraq onun türkcə düşünüb farsca yazdığını elmi dəlillərlə sübut edib. "Böyük Azərbaycan şairi Füzuli" monoqrafiyası da alimin eyni elmi yanaşmasının məhsuludur.

Həmid Araslı bir çox xidmətləri ilə yanaşı, Ədəbiyyat Muzeyinin yaradılmasında da fəal iştirak edib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar bildirib ki, "Koroğlu" dastanı qollarının toplanaraq kitab halına gətirilməsində, "Kitabi-Dədə-Qorqud" kimi təməl kitabların işıq üzünə çıxarılaraq tədqiq edilməsində Həmid müəllimin rolu əvəzsizdir. Repressiyanın baş alıb getdiyi bir dövrdə bir xalq üçün bu qədər mühüm və tarixi dəyərləri ortaya çıxarmaq, təbliğ və nəşr etmək böyük risk tələb edirdi. Hər cür təhdidə, təzyiqə, tənqidə baxmayaraq, Həmid müəllim bu böyük vəzifəni uğurla həyata keçirə bilib.

Professorlar Təhsin Mütəllimov, Tofiq Məlikli, Möhsün Nağısoy, İmamverdi Həmidov, Şəfəq Əlibəyli, filologiya üzrə fəlsəfə doktorları Laura Orucova və Nüşabə Əlizadə Həmid Araslının Azərbaycan ədəbiyyatı qarşısındakı xidmətlərindən danışıblar, onun yüksək insani keyfiyyətlərindən söz açıblar.

Sonda akademik Həmid Araslının qızları – professorlar Dürdanə və Nüşabə Araslılar atalarının xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlıq ediblər.

Qabil YUSİFOĞLU
XQ

Əli bəy Hüseynzadə – 160

XX əsr Azərbaycan–türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri, mütəfəkkir yazıçı, publisist və ədəbiyyat tənqidçisi Əli bəy Hüseynzadə xalqımızı hümmətçilik düşüncəsindən millətçilik məfkurəsinə yönləndirən dahilərimizdəndir. 160 illik yubileyi ərəfəsində böyük şəxsiyyətin irsinin tədqiqatçısı kimi tanınan filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turanla həmsöhbət olduq.

Milli istiqlal məfkurəsinin atası

Xatırladaq ki, indiyədək 40-dan artıq kitabı nəşr edilən Azər Turanın Əli bəy Hüseynzadə ilə bağlı araşdırmalarından ibarət kitabları Bakı ilə yanaşı, Moskva, İstanbul və başqa şəhərlərdə yüksək tirajla çap edilərək geniş oxucu marağına səbəb olub. Azər müəllimin Əli bəy Hüseynzadə irsini dəyərləndirmələri istiqlal məfkurəsi tariximizə məhz bugünün prizmasından yanaşması ilə diqqət çəkir.

– Fevralın 7-də Azərbaycan bağımsızlığını elan edəndən sonra ilk dəfə idi ki, Prezident seçkiləri ölkəmizin bütün ərazilərini əhatə edirdi. Prezident isə Xankəndidə səs verdi. Son vaxtlar Xankəndi adı yaddaşıma Əli bəy Hüseynzadənin misraları ilə assosiasiya edir: "Bu yerləri Türkə vermişdir Tanrı!"

Əli bəy Hüseynzadənin yubileyi ilə bağlı düşüncələrə daldığım zaman öncə 2018-ci il martın 17-də onun ömrü boyu İstanbulda yaşamış qızı Feyzavər Alpsar Turanla olan telefon söhbətimizi xatırlayıram. Hüseynzadənin dünyasını dəyişdiyi gün idi və Feyzavər Alpsar məhz həmin gün Prezident İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmişdi. Xəbərin sevincini bölüşmək üçün dərhal ona zəng vurdum. Ordenlə təltif olunmasından xəbərsiz idi. 99 yaşlı Feyzavər xanım hər zamankı kübar və həzin səsiylə "Mən nə etdim ki? – dedi. – Sağ olsun, sayın Aliyev, əlbəttə, bunu türk kültürünün böyük mütəfəkkiri babamın adına sevinclə qarşılayıram".

İlham Əliyev Feyzavər xanımı təkcə bu ordenlə sevindirmədi ki... Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi ilə bağlı 2014-cü ildə verdiyi sərəncam, Əli bəy Hüseynzadənin əsərlərinin dövlət varidatı elan edilməsi, kitabının latın qrafikası ilə kütləvi tirajla nəşri, Cümhuriyyətin 100 illiyi günlərində onun varisinə verilən yubiley medalı... Atasının 100 ildən sonra fikir həyatımıza belə vüsətlə qayıtması varisi çox sevindirmiş, heç vaxt görmədiyi Azərbaycana daha da yaxınlaşdırmışdı. Bəlkə elə bu səbəbdən də Feyzavər xanım atasına aid olan hər şeyi, o cümlədən çox qiymətli rəsm əsərlərinin hamısını qarşılıqsız olaraq Azərbaycana bağışladı.

Azər Turan Bibi heybət məscidindən də bəhs edərək onun bərpasında Əli bəy Hüseynzadənin də, necə deyərlər, rolu olduğuna işıq tutur:

– 1936-cı ildə partladılıb dağıdılmış Bibi heybət məscidi müstəqillik illərimizdə yenidən quruldu. Ötən yüzilin əvvəllərində, konkret isə 1908-ci ildə, yəni "Səadət" məktəbinin müdiri olduğu sıralarda Hüseynzadə Bibi heybət məscidinin şəklini çəkir. Bəlli səbəblərə görə əsəri satışa çıxarır. Bakıdakı ingilis konsulu Mak Donnel şəkli almaq istəyir. Hacı Zeynalabdin Tağıyev hadisəni eşidir və buna imkan vermir. "Öz məscidimizin şəkli öz şəhərimizdə qalsın" – deyib, tablonu özü alır. Az qala, bir əsr sonra Azərbaycan müstəqil olur. Ulu öndər Heydər Əliyev məscidi yenidən, amma əslində necə vardısa, elə, yəni olduğu kimi inşa etdirmək istəyir. Və o zaman Hüseynzadənin çəkdiyi və Hacının iltifatı ilə öz şəhərimizdə qalan tablo da etibarlı şahidlərdən olur. Müxtəlif sənədlərin, o cümlədən, həm də bu tablonun əsasında Bibi heybət məscidi yenidən qurulur. Və 2008-ci ildə bərpadan sonra məscidin açılış lentini kəsmək İlham Əliyevə nəsib olur...

Müsahibimiz sonra Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi ilə bağlı Prezident sərəncamını dəyərləndirir:

– Əvvəldə qeyd etdiyim kimi, bu sərəncam fikir həyatımızda yeni bir dövrün başlandığından xəbər verirdi. Çünki həmin sənəd Hüseyzadənin yalnız ədəbi-estetik deyil, həm də ideoloji baxışlarının dominant fikir olaraq təcrübədə tətbiq edilməsinə vəsilə oldu. Yuxarıda xatırlatdığım "Bu yerləri Türkə vermişdir Tanrı, Ey düşmən, burası Turan qapısı" misralarının yaratdığı ideoloji intibahlarla biz bu gün Zəngəzur səmtinə yönəlirik. Bu isə ərazi bütövlüyü təmin olunmuş Vətəndə 100 il sonrakı perspektivdən – Vahid və Bütöv Azərbaycan həqiqətlərindən soraq verir. Bu, son 250 ildə millətimizə Tanrının böyük iltifatıdır.

Bu mənada, mədəni Turançılığın yaradıcısı və ideoloqu olan Əli bəy Hüseynzadənin irəli sürdüyü məfkurənin başında indi İlham Əliyev dayanır. Və İlham Əliyevin yürütdüyü siyasətin hesabına biz artıq Əli bəy Hüseynzadə ideallarının ölkəsində yaşayırıq və bu ölkənin siyasi, ideoloji səmtini müəyyənləşdirən İlham Əliyevin təbirincə, Hüseynzadə türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayıb, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürüb və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edib...

Əli bəy Hüseynzadənin əsərlərinin dövlət səviyyəsində ilk təqdimatı da, yuxarıda xatırlatdığım kimi, İlham Əliyevin latın qrafikalı nəşrlərin həyata keçirilməsi ilə bağlı 2004-cü ildə imzaladığı sərəncamdan sonra – 2007-ci ildə gerçəkləşdi: Hüseynzadənin "Seçilmiş əsərləri" 25 min tirajla nəşr olundu... 2018-ci ilin həmin mart günündə Feyzavər Alpsarı ona "Dostluq" ordeninin verilməsi münasibəti ilə təbrik edəndə inandım ki, qızına verilən bu orden 100 il bundan qabaq Əli bəy Hüseynzadənin həyata keçirdiyi işlərin qarşılığında Azərbaycan adına bir qədirdanlıq nümunəsidir. İlham Əliyevin timsalında dövlətimizin öz dəyərlərinə bütövlükdə sahib çıxmasının gözəl və misilsiz bir örnəyidir. Heyf ki, Feyzavər Alpsar yer üzünün koronovirusla çalxalandığı 2020-ci ilin 25 aprelində dünyasını dəyişdi. Yollar bağlı olsa da, Azərbaycan adından ilk təziyə sözlərini İlham Əliyev yazdı, Feyzavər xanımla bağlı millətə ilk başsağlığını o verdi: "...Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini dərin kədər hissi ilə qarşıladım. Feyzavər Turan Alpsar böyük mütəfəkkirin ədəbi-elmi irsinin qorunub saxlanmasında mühüm rol oynamışdır..."

İlham Əliyev 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirdi. O Bakıda ki, bu gözəl şəhər hələ erməni əsarətində olanda və hələ paytaxt elan edilməzdən öncə, Hüseynzadə "Azərbaycanın təbii paytaxtı Bakıdır, Bakını Azərbaycana çox görən kim olursa-olsun, Azərbaycan xalqının ən mənfur düşmənidir", – deyə Qafqaz İslam Ordusuna varılacaq son hədəfi – Bakını nişan vermişdi.

Dövlət başçımız 2018-ci ili Azərbaycanda Cümhuriyyət ili elan etdi. O Cümhuriyyət ki, 1918-ci ildə Gəncədə Əli bəy Hüseynzadə ölkənin "irəli gələnləri, münəvvərləriylə birgə Azərbaycanın bir Cümhuriyyət halında təsis və təşkil olunmasında yaxından iştirak" etmişdi. XX yüzilin əvvəllərində Əli bəy Hüseynzadə də daxil olmaqla, millət atalarımızın xəyal edə bilmədiyi ideyaları XXI yüzilin 20 ilində məhz İlham Əliyev gerçəkləşdirdi. Vətənin milli birlik düsturunu yaratdı. Və bu hərəkat, Qarabağ Zəfəri kontekstində Turan idealını aktuallaşdırdı.

2021-ci ildə Hüseynzadənin təbirincə, "Qarabağın mərkəzi və bir çox Qafqasiya türk ədəbə və şüərasının vətəni olan" Şuşa şəhərində İlham Əliyev Rəcəb Tayyip Ərdoğanla birgə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini imzaladı.

İlham Əliyev Azərbaycanda türk qanlı, islam imanlı, Avropa fikirli bayrağımız üçün Bayraq meydanlarını qurdu. Bayraq meydanları qurmaqla kifayətlənmədi, o əziz bayrağı Şuşada, Xankəndidə, Xocalıda və işğaldan azad etdiyi digər Qarabağ şəhərlərində ucaltdı. O bayrağın ki, onu mənalandıran türkləşmək, islamlaşmaq, avropalaşmaq amilinin ideoloqu da Hüseynzadə idi.

Daha sonra Azər Turan Türk birliyi ideyasının reallaşmasından inam və öyünclə bəhs edir:

– 2020-ci ildə İkinci Qarabağ savaşında Türkiyə mənəvi-siyasi baxımdan Azərbaycanın yanında oldu. Əli bəy Hüseynzadə 1918-ci ildə yazırdı: "Azərbaycanı qurtaran Anadolu öz-özünü də qurtarır. Buna şübhə etməyiniz! Deyirlər ki, dağ-dağa qovuşmaz isə insan-insana qovuşur! Xeyr, tarixin elə anları vardır ki, dağ da dağa qovuşur, bu gün Ərciyəs dağı Qaf dağına qovuşur və qovuşduqca yüksəlir!.."

Ötən il dekabrın 30-da "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "Ədəbiyyatda həsrət mədəniyyət hadisəsidir, yaxud yeni tariximizin Qərbi Azərbaycan mərhələsi" məqaləmdə yazmışdım ki, milli tariximizin ən məsul dövründəyik. Budəfəki seçki fevral ayına təsadüf edəcək – Turan düşüncəsini ilk dəfə siyasi gündəmə gətirən Əli bəy Hüseynzadənin doğulduğu tarixə. Fevralda böyük mütəfəkkirin 160 yaşı tamam olacaq... Bu gün Turan yolunda Azərbaycana onun ideyaları çox lazım oldu: "Menşikov, Maqda Neyman, Çerevanski, "Mşak", "Arşalyus" və sairə divlər, ifritlər arxadan, sağdan, soldan istədikləri qədər çığır-bağır etsinlər, biz qorxub geri baxanlardan deyiliz!.." Necə də zamanımızla səsləşən fikirlərdir!

Burada bizə qarşı bədxahlıq edən Fransa prezidentinin və senatının, eləcə də AŞPA-nın hərəkətlərinə bu gün Azərbaycan xalqının Əli bəy Hüseynzadənin 100 il əvvəlki tövsiyəsi ilə cavab verdiyini qeyd etmək yerinə düşər: "Qəm yemə, səbr et, bu da yahu, keçər".

Bəli, bir əsr əvvəl Azərbaycanda pərvəriş tapmış böyük Turan məfkurə dalğası daha güclü şəkildə qabarmaqdadır.

Hazırladı:
Əli NƏCƏFXANLI
XQ

Ölkəmizi dünyaya tanıdanlar

Dünya genetika elminə adını yazmış azərbaycanlı alim

Egey Universitetinin professoru Afiq Bərdəlinin rəhbərlik etdiyi araşdırma qrupu Türkiyədə çox rast gəlinən "Aralıq dənizi qızdırması" xəstəliyinin 13 fərqli növünü aşkar edib. Tədqiqat şiddətli qarın və əzələ ağrılarına, yüksək hərarətə səbəb olan bu xəstəliyin diaqnozu qoyulan 80 min xəstə və 12 milyon "Aralıq dənizi qızdırması" daşıyıcısı üçün ümid yaradıb.

Qardaş Türkiyənin "Yeni əsr" qəzetində oxuduğum bu məlumat orada yaşayan həmyerlimizlə tanışlığımıza körpü oldu. İzmirin elitar mühitində, elmi mərkəzlərində onun yaxşı tanınması məni çox sevindirirdi.

Bərdənin Arabaçılar kəndində 1962-ci ildə doğulan Afiq Hüseynov Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsində təhsil alıb, sonra Moskvada Rusiya Səhiyyə Nazirliyinin Uşaq Xəstəlikləri İnstitutunda və İtaliyanın Mario Negri Araşdırma İnstitutunda molekulyar genetika sahəsində çalışıb. 1999-cu ildə Türkiyə vətəndaşlığına qəbulu ilə Bərdəli soyadını götürüb və orada 28 yaşında tibb elmləri doktoru adına yiyələnib.

Professor Afiq Bərdəli İzmirdə "Şəfa" xəstəxanalar şəbəkəsinin genetik diaqnostika mərkəzini qurub və rəhbəri olub. O, eyni zamanda Egey Universitetində kök hüceyrəsi kafedrasının qurucusu və professorudur. Onun haqqında bircə cümləlik təqdimat da bu alimin kimliyini və hansı uğurlara imza atdığını söyləməyə imkan verir: tibb elmləri doktoru, professor Afiq Bərdəlinin yaratdığı molekulyar tibbi laboratoriya vaxtilə bütün Türkiyədə ilk və dünyada 3 elmi mərkəzdən biri olub...

Onun elm sahəsindəki uğurları bəs edir ki, bilik və bacarığı haqqında kifayət qədər zəngin təəssürat yaransın. Yüksək insani keyfiyyətləri, Vətənə bağlılığı da ayrıca bir söhbətin mövzusudur. Professor Bərdəli genetik, uşaq və revmatoloji xəstəliklər mütəxəssisi kimi ayrı-ayrılıqda 3 diplomun sahibidir. Bu diplomları qazanmağın nə qədər cətin bir iş olduğunu söyləməyə ehtiyac yoxdur. Professor, eyni zamanda İtaliyanın Milan Universiteti tərəfindən molekulyar genetika sahəsində verilən alimlik dərəcəsi kimi yüksək adın daşıyıcısıdır.

O, ən yüksək indeksli beynəlxalq jurnallarda 456 nəşrə imza atıb, yüzlərcə beynəlxalq konqres və simpoziumda məruzəçi kimi çıxış edib. Dünya tibb ədəbiyyatında ən çox xəstə qrupu olan nefrotik sindrom və FMF genetik çalışma işləri məhz professor Afiq Bərdəliyə məxsusdur. Onun işıq üzü görmüş elmi araşdırmalarına dünya tibb ədəbiyyatında 3 mindən çox istinad qeydə alınıb. Afiq Bərdəli dünyanın 250-dən çox elmi qurumun təsdiqlədiyi genetik layihənin müəllifidir. Tibb elminə töhfələr verən yüzlərlə magistr, doktor yetişdirib.

Professorun əməkdaşlıq etdiyi ölkələrin, elmi mərkəz və universitetlərin siyahısı onun tibb elminin öncül nümayəndəsi olduğunu göstərir: ABŞ, Kanada, Almaniya, Fransa, Hollandiya, İspaniya, Avstrya, Rusiya, Lüksemburq... Üstəlik, İtaliyanın Genova, Milan, Triest, Pisa, Boloniya Universitetləri ilə də elmi əlaqələri var.

Soydaşımızın Egey Universitetindəki laboratoriyası Türkiyədə Avropa Genetik Keyfiyyət Şəbəkəsinin akredetasiyasını almış ilk laboratoriya olub. Nefrotik Sindrom geni dunya tibb ədəbiyyatında "Bərdəli geni" olaraq tanınır. Onun təyin etdiyi türk irqinə məxsus 32 yeni genetik mutasiya dünya genetik reyestrinə qəbul edilib. Eyni zamanda, professor Bərdəli nefrotik sindrom xəstəliyinə səbəb olan gendə 2 yeni mutasiya tapıb və öz soyadı ilə nəşr etdirib. FMF xəstəliyinin 13 müxtəlif genetik variantı dünya səhiyyəsində "Bərdəli" adı ilə qəbul edilmişdir. Ümumiyyətlə, "Bərdəli" adı ilə qeydiyyatdan keçən bu cür nəticələrin sayı onlarcadır. Toplam olaraq, dünya tibb elmində 315 müxtəlif genetik xəstəliyin molekulyar diaqnostikasının tədqiqatları bilavasitə professor Afiq Bərdəlinin adı və elmi fəaliyyəti ilə bağlıdır. Səhiyyə sahəsindəki fəaliyyət və elmi uğurlarına görə professor 30-dan çox müxtəlif adda elmi mükafata layiq görülüb.

O, Azərbaycanla əlaqələrini heç vaxt kəsməyib, vaxtilə təhsil aldığı Tibb Universitetində dəfələrlə görüşlərdə olub, mühazirələr oxuyub. Türkiyədən gətirdiyi peşəkar həkim heyəti ilə Azərbaycanda genetik diaqnozun, müalicənin yeni və ən son üsullarını tətbiq edib. Bir neçə il əvvəl Azərbaycan Mətbuat Şurasında "Tanıyaq – tanıdaq" media layihəsinin ilk qonağı olub.

Vətən müharibəsindəki qələbədən sonra onun və qardaşı İlqarın təşəbbüsü ilə Bərdənin Mustafaağalı, Arabaçılar, Qaradırnaq, Hüseynalılar, Hacılar kəndlərindən olan şəhidlərin xatirəsinə möhtəşəm bulaq-abidə kompleksi yaradılıb və açılış mərasimi keçirilib. Bu barədə söhbətində bildirdi ki, Qarabağın xilası həyatımızın müstəsina bir uğurudur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbəsi həyatımızın yeni səhifəsidir. "Mən müharibə başlayanda çox istədim ki, Azərbaycana gəlim. Amma pandemiya ilə əlaqədar Türkiyə həkimlərin xaricə çıxışını yasaqlamışdı – nə qədər cəhd etsəm də, mümkün olmadı. Sonra dəfələrlə Qarabağa – Şuşaya, Xankəndiyə getdim. Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində fəal iştirakımla fərqlənməyə çalışdım. Üzvü olduğum Türkiyədə yaşayan Azərbaycanlı Elm Adamları Dərnəyinin rəhbəri, Bilkənd Universitetinin professoru Əmirulla Məmmədovun seçki çağırışı, həm də səfərbərliyimizə çağırış oldu. Prezident İlham Əliyevə – qətiyyətli liderə, uzaqgörən siyasətçiyə səs verməklə Azərbaycanın işıqlı gələcəyinə səs verdik.

Professor Afiq Bərdəli ingiliscə, italyanca, rusca mükəmməl bilir. Evlidir, 2 övladı var. Oğlu Elyar həkimdir, Türkiyədə çalışır. Qızı Ləman tarixi abidələr üzrə mütəxəssisdir, İtaliyada yaşayır.

Namiq QƏDİMOĞLU
XQ

BEYNƏLXALQ HƏYAT

Nüvə müharibəsi riski niyə böyüyür?

(əvvəli 1-ci səhifədə)

Məsələn, bu günlərdə ABŞ-ın 40-cı prezidenti Ronald Reyqanın qızı Petti Devis "The New York Time" qəzetində dərc edilmiş məqaləsində yazır ki, özümə sual verirəm – atam sağ olsaydı, sivilizasiyanın indiki tənəzzülü və Amerika demokratiyasının məşum gələcəyi haqqında nə deyə bilərdi? Düşünürəm, birincisi, o, partiyasının indiki favoriti kimi Co Baydenə deyil, onu mitinqlərdə dəstəkləyənlərə müraciət edərdi və deyərdi ki, "dövlətin siyasəti bir nəfər tərəfindən yaradılmır, onu "hə" və ya "yox" deyən bütün insanlar yaradır".

P.Devisə görə, "ABŞ-ın indiki vəziyyəti elədir ki, atam bunu görsəydi, göz yaşları içində boğulardı, çünki... amerikalılar uçurumun kənarındadırlar və nifrət, zorakılıq bataqlığından çıxmaq və cəmiyyəti parçalayan partiya qəzəbinə qalib gəlmək onlar üçün heç də asan olmayacaq".

Allah xətrinə, gəlin R.Reyqanı ideallaşdırmayaq. Xatırlayırsınızsa, 1982-ci ilin martında Reyqan Sovet İttifaqının nüvə imkanlarını zəiflətməyə yönəlmiş genişmiqyaslı strategiya olan 32 saylı Milli Təhlükəsizlik Direktivini (NSDD) imzaladı. 7 ay sonra 66 saylı daha bir direktiv verildi. Orada sovet iqtisadiyyatını sarsıtmaq üçün tədbirlər sadalanırdı. Bu məqamda Reyqanın 1984-cü

il avqustun 11-də Amerika xalqına radio ilə müraciətindən əvvəl mikrofonu yoxlayarkən gözlənilmədən "zarafat" edərək dediyi bəyanatı xatırlatmaq çox yerinə düşür: "Mənim həmvətənlərim, bu gün sizə məmnuniyyətlə bildirmək istəyirəm ki, mən Rusiyanı əbədi olaraq qanunsuz elan edən fərman imzalamışam. Bombardman beş dəqiqəyə başlayacaq!" ABŞ prezidentinin bu "zarafatı"na SSRİ-nin rəsmi reaksiyası kifayət qədər kəskin oldu. Bundan dərhal sonra SSRİ öz hərbi nüvə qüvvələrini tam döyüş hazırlığı vəziyyətinə gətirdi və dünya, həqiqətən, böyük şok yaşadı.

Bu mənada planetin müharibə ocaqlarının bəşəriyyəti hansı istiqamətə sürükləyəcəyini düşünərkən istər-istəməz sual meydana çıxır ki, "nüvə silahının təsadüfi istifadə ehtimalı ilə bağlı vəziyyət Reyqan hakimiyyətindən sonrakı illər ərzində dəyişibmi?" Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Mixail Popovun bu yaxınlarda dediyi kimi, "ABŞ-ın səbəb ola biləcəyi təsadüfi nüvə müharibəsi" məsələsi, bilavasitə Amerika prezidenti Co Baydenin səhhətindəki problemlər səbəbindən indi daha ucadan və narahatlıqla səslənir. Onun fikrincə, qlobal fəlakətlə nəticələnə biləcək idarəetmədəki kobud səhvlər riski artdıqca "ABŞ-ın nüvə qalxanı çat verir". Bu baxımdan, bu gün ABŞ-dan gələn son xəbərlər fonunda mürəkkəb və gərgin daxili siyasi vəziyyətdə mühüm bir sual yaranır - bu ölkədə nüvə silahının istifadəsi ilə bağlı sərəncamın ötürülməsi qaydası nə vəziyyətdədir?

Kreml rəsmisi Mixail Popov diqqəti iki əsas məsələyə yönəldir: birincisi, Amerika prezidenti Co Baydenin sağlamlıq vəziyyəti və iş qabiliyyətliliyi, ikincisi, onun iş qabiliyyətini itirdiyi halda nüvə silahından istifadəyə dair səlahiyyətlərin ötürülməsi proseduru.

Birinci sualla bağlı gerçək mənzərə ondan ibarətdir ki, Baydenin iş qabiliyyəti ABŞ isteblişmentində son günlərin ən ciddi müzakirə mövzusuna çevrilib. Rəy sorğularına görə, amerikalıların əksəriyyəti Baydenin prezidentlik vəzifələrinin öhdəsindən gələ bilmədiyinə əmindirlər. "CNN" və "SSRS" şirkəti tərəfindən keçirilən sorğunun nəticələri göstərir ki, bu gün amerikalıların 58 faizi onu ciddi xəstə insan hesab edir və bu, həqiqətən, cəmiyyətdə böyük narahatlıq və təşviş yaradır. Baydenin köməkçiləri tərəfindən Ağ evdən çıxarılan məxfi sənədləri araşdırmaq üçün təyin olunmuş xüsusi prokuror Robert Hur, materialların təhqiqatı ilə bağlı hesabatında ABŞ prezidentini "xoş niyyətli, lakin ciddi yaddaş problemləri olan, hətta əsas faktları və təfərrüatları xatırlamaqda çətinlik çəkən yaşlı bir adam" kimi xarakterizə edir. Ədliyyə Nazirliyinin rəsmi sənədində yaddaş problemlərinin qeyd edilməsilə bağlı Ağ evdə baş verən ciddi qalmaqal və Baydenin buna qəzəblənməsini biz əvvəlki yazılarımızda qeyd etmişdik.

Amma "Fox News" telekanalı ABŞ-ın hazırkı administrasiyasının prezidentin guya vəzifələrini heç bir məhdudiyyət olmadan yerinə yetirə bildiyini, onun səhhəti ilə bağlı məlumatları gizlətdiyini söyləməklə, sanki ocağa yağ töküb. Bir başqa zərbə də ABŞ-ın keçmiş prezidentlərinin şəxsi həkimi, ABŞ Nümayəndələr Palatasının üzvü Ronni Cek-sondan gəlib. O, "The New York Post" nəşrinə bildirib ki, Bayden prezident seçkilərində iştirak etməzdən əvvəl bir sıra sağlam əqli testlərdən keçməlidir. Ağ evin keçmiş həkiminin hazırladığı və ABŞ Nümayəndələr Palatasının 83 üzvü tərəfindən imzalanan məktubda bildirilir ki, Bayden testdən imtina edərsə, administrasiyadan ABŞ Konstitusiyasının 25-ci düzəlişinin 4-cü bəndinə müraciət edilməsi tələb olunacaq. Bu dəyişiklik prezidentin vəzifələrinin vitse-prezidentə verilməsini nəzərdə tutur. Düzəlişə görə, dövlət başçısı vəzifələrini yerinə yetirə bilmədikdə, vitse-prezident onun vəzifələrini öz üzərinə götürməlidir.

Fevralın 14-də Qərbi Vircinya ştatının baş prokuroru Patrik Morrisi vitse-prezident Kamala Harrisi ABŞ lideri Baydenin öz vəzifələrini yerinə yetirə bilmədiyini bəyan etməyə çağırıb. Buna cavab olaraq Ağ evin mətbuat xidməti ABŞ prezidentini müalicə edən Uolter Rid adına Tıbb Mərkəzinin həkimi Kevin O'Konnorun rəyini yayıb. Adətən Bayden müntəzəm olaraq bu tibb mərkəzində müayinədən keçir. O'Konnor təsdiqləyib ki, "prezident 81 yaşlı sağlam və cəsarətli bir insan olaraq qalır və dövlət başçısı kimi heç bir məhdudiyyət olmadan öz vəzifələrini, o cümlədən icra hakimiyyətinin başçısı, dövlət başçısı və ali baş komandan kimi vəzifələrini icra etmək iqtidarındadır".

Bu daxili siyasi çəkişmələr fonunda diqqətçəkən məqamlardan biri də odur ki, sorğuda iştirak edən amerikalıların 37 faizi bu gün dünyanın apokalipsis vəziyyətində olduğunu, nüvə düyməsinin isə tez-tez ağlını itirən Baydenin əlində olduğunu qeyd ediblər. 2024-cü ildə ABŞ prezidentliyinə əsas namizədlərdən olan eks-prezident Tramp da rəqibi Baydeni ölkə üçün təhlükəli hesab edir. Onun fikrincə, indiki prezident öz vəzifələrini layiqincə yerinə yetirmir və dünyanı nüvə müharibəsinə aparır. Buna görə də ABŞ-ın hazırkı prezidentinin sağlamlıq vəziyyəti fonunda nüvə silahından istifadəyə dair əmrlərin ötürülməsi proseduru xüsusi və ciddi nəzərdən keçirilməli məsələ kimi diqqətdə olmalıdır.

Həqiqətən, qanuni olaraq Birləşmiş Ştatlarda nüvə zərbəsi endirməyə əmr edə bilən yeganə şəxs Cozef Robinette Bayden, daha sadə desək, hazırkı ABŞ Prezidenti Baydendir. Bir məsələni də diqqətə çatdıraq ki, 1961-ci ildə yaradılmış və ABŞ prezidentinə nüvə silahından istifadə əmri vermək imkanı yaradan xüsusi qurğu amerikalılar üçün daha çox çantaya bənzəsə də, "football" adlanırdı. Əslində, "çamadan" ABŞ-ın strateji müdafiə sistemində mobil qurğu kimi fəaliyyət göstərir və prezidentin stasionar komanda məntəqələrindən uzaqda olduğu situasiyalarda istifadə üçün nəzərdə tutulub. ABŞ prezidentinin nüvə çamadanının quruluşu və işləmə prinsipi ciddi dövlət sirridir.

Nüvə çamadanı ABŞ-da prezident Duayt Eyzenhauer dövründə peyda olub. Məhz Eyzenhauer prezidentin müvəqqəti fəaliyyət qabiliyyətini itirdiyi və ya öldüyü halda, ABŞ silahlı qüvvələrinin Ali Baş Komandanının səlahiyyətləri ilə birlikdə çamadanın ölkənin vitse-prezidentinə verilməli olduğu prosedurunu da təsdiqləyib.

Araşdırmalarda qeyd edilir ki, ölkədə ən azı üç-dörd eyni "nüvə çamadanı" var. Biri prezidenti, o biri vitse-Prezidenti müşayiət edir və üçüncüsü isə ənənəvi olaraq andiçmə mərasimi və ya ölkədəki vəziyyətlə bağlı müraciətlər zamanı mümkün fəlakət və ya hücumdan sağ çıxmış, kodları tətbiq etmək səlahiyyətinə malik olanlar üçün ehtiyatda saxlanılır. "Çamadan"a "biskvit" kimi tanınan plastik kart əlavə olunur ki, prezident onu hər zaman öz üzərində gəzdirməlidir. Bu kartda dövlət başçısının şəxsiyyətini müəyyənləşdirmək üçün istifadə edilən hərf-rəqəm kodu var.

Nüvə silahının tətbiqi ilə bağlı qərarın qəbul edilməsi və əmrlərin verilməsi proseduru belədir: Atom Enerjisi üzrə Xüsusi Komitənin 1948-ci ildə ABŞ Milli Təhlükəsizlik Şurasına təqdim etdiyi hesabatın mətninə uyğun olaraq, "Prezident ABŞ Silahlı Qüvvələrinin Ali Baş Komandanı kimi ABŞ nüvə qüvvələrinin istifadəsi ilə bağlı əmrlər vermək üçün müstəsna hüquqa və səlahiyyətlərə malikdir". Əgər ABŞ prezidenti nüvə silahının tətbiqi ilə bağlı əmr verərsə, o, müdafiə nazirinə, sonra ABŞ-ın Strateji Qüvvələrinin komandanına və Birləşmiş Qərargah Rəisləri Komitəsinin (BQRK) sədrinə ötürülür.

2016-cı ildə Pentaqonun sənədlərindən birində deyilirdi ki, müdafiə naziri ABŞ Silahlı Qüvvələrinin baş komandanının əmrini yerinə yetirməzdən əvvəl "sərəncamın prezidentdən gəldiyini təsdiq edərək qanuniliyini müəyyən etməlidir". Ancaq, burada , ekspertlərin fikrincə, müdafiə nazirinin və BQRK sədrinin nüvə silahından istifadə ilə bağlı rolları qeyri-müəyyən olaraq qalmaqdadır. Bəzi mənbələr müdafiə nazirinin ya komandanlıq zəncirinin üzvü, ya da təsdiqləyici orqan kimi birbaşa iştirakını qeyd edir.

Lakin Pentaqonun keçmiş rəsmiləri bunun əksini deyirlər. Məsələn, eks-prezident Bill Klintonun keçmiş müdafiə naziri Bill Perri iddia edir ki, əmr "prezidentdən birbaşa ABŞ Strateji Qüvvələrinin komandirinə verilə bilər və "bu zəncirdə müdafiə naziri lazım deyil", ümumiyyətlə, onun "prezidenti dayandırmaq səlahiyyəti yoxdur". Yəni, Perriyə görə, dövlət başçısı nüvə silahından istifadə etmək üçün müstəsna hüquqa malikdir. Üstəlik, Müdafiə Nazirliyinin digər keçmiş yüksək rütbəli məmurları bu məsələdə prezidentin mütləq səlahiyyətini dəfələrlə təsdiqləyiblər. Məsələn, ABŞ Hərbi Hava Qüvvələrinin doktrinasında deyilir ki, "Prezident hətta Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri vasitəsilə də nüvə silahından istifadəyə göstəriş verə bilər", yəni bu işdə müdafiə nazirinin adı, ümumiyyətlə, çəkilmir.

Bütün deyilənlərlə rəğmən, indiki vəziyyətdə dünya, həqiqətən, apokalipsis vəziyyətindədir və ABŞ-ın nüvə düyməsi Co Baydenin əlindədir, onun isə əqli qabiliyyətlərinə və ağlının başında olmasına bir çoxları getdikcə daha çox şübhə etməyə başlayır. ABŞ Konstitusiyasının 25-ci maddəsinə əsasən səlahiyyətlərin ötürülməsinə gəlincə, onların təhvil verilməsinə dair ABŞ Konqresinin kabinetlərində işlənmiş plan hüquqi baxımdan kifayət qədər aydın deyil və əslində konstitusiyaya zidd ola bilər. Buna görə də ABŞ-ın yaratdığı təsadüfi nüvə müharibəsi riski kifayət qədər yüksəkdir və təkcə bu ölkənin özünün mövcudluğu deyil, bütün dünyanın gələcəyi bundan asılıdır.

Hazırladı:
İlqar RÜSTƏMOV
XQ

TƏQVİM YADA SALIR

(əvvəli 1-ci səhifədə)

Lakin ilkin proqnozalar özünü doğrultmadı və Ukrayna ciddi müqavimət göstərməyə başladı. Bir müddət sonra isə döyüşlərin istiqaməti ölkənin şimal bölgələrindən cənuba doğru dəyişdi. Hazırda Donetsk və Luqansk vilayətlərini əhatə edən Donbas, demək olar ki, tamamilə Rusiyanın nəzarətindədir və üstəlik, Ukraynanın bir neçə cənub vilayəti böyük bir cəbhənin təmas xəttinə çevrilib.

Rusiya–Ukrayna savaşı: aşkar və gizli məqamlar

Keçmiş müttəfiqlərin 2-ci davasından 2 il ötür

Müharibədə ən çox itirən tərəf də Ukraynadır. Artıq 24 aydır ki, bu ölkənin faktiki olaraq bütün ərazisi, böyük və kiçik şəhərləri, sənaye və emal müəssisələri, infrastrukturu Rusiya aviasiyasının güclü atəşi altındadır.

Müharibə başlayandan hər iki tərəfdən on minlərlə hərbçi, eləcə də dinc insanlar həlak olub. Onların arasında minlərlə uşaq, qadın və ahıl var. Ukrayna əhalisinin az qala beşdə biri qaçqına çevrilib. Onların çoxu hazırda Şərqi Avropa dövlətlərinin ərazilərində müvəqqəti olaraq məskunlaşıblar. Ukraynalı ailələrin bir qismi okeanın o tayına, ABŞ və Kanadaya köçüb.

Rusiya–Ukrayna müharibəsinin qarşısını almq mümkün idimi və tərəflər arasında sülh danışıqları nə vaxt başlaya bilər? Ümumiyyətlə, müharibə yeni dünya nizamına necə təsir göstərə bilər? Bu və digər suallara cavab tapmaq üçün tanınmış siyasi şərhçi, BDU-nun xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimova müraciət etdik.

Aydın müəllim əvvəlcə bunları dedi:

–Müharibə iki il əvvəl başlayıb, hələ də davam edir və nə vaxt bitəcəyi isə məlum deyil. Prezident Vladimir Putin bu günlərdə məşhur amerikalı jurnalistə müsahibəsində bildirdi ki, Rusiya Ukrayna xalqı ilə deyil, bu ölkədəki neonasizm ilə mücadilə aparır və sülh danışıqlarına hazırdır.

Ukrayna tərəfi isə, Prezident Volodimir Zelenskinin dili ilə desək, "müharibə qələbə ilə başa çatmayana qədər heç bir danışıqlara razı deyil". Eyni sözləri bu ölkənin Qərbdəki tərəfdaşları da təkrar edirlər. Bu isə o deməkdir ki, Ukrayna torpağında sülhü tezliklə gözləməyə dəyməz.

Müharinənin başlaması, davam edən və güclənən savaş ritorikası ən azı təəccüb doğurur, ona görə ki, iki qardaş xalq ölüm-dirim savaşı aparır və qarşı tərəfin iqtisadi və hərbi resurslarının tükənməsi üçün çalışır. Ukrayna Qərbin maliyyə və hərbi yardımına bel bağlayıb, Rusiya isə özünün bitib-tükənməyən təbii sərvətlərinə arxayındır.

Yeri gəlmişkən, bəzən belə təsəvvür yaranır ki, Qərb Rusiya ilə dünyanın yenidən bölüşdürülməsi ilə bağlı səhnəarxası sövdələşməyə girişib. Bütün hallarda, yeni dünya düzəni Ukraynadakı hadisələrin nəticəsindən xeyli dərəcədə asılı olacaq.

Qərbdəki bir çox analitiklər, təəssüf ki, müharibənin nə səbəbə başladığını hələ də ayırd edə bilmirlər. Mən bu məsələni diqqətlə araşdırmışam. Gəldiyim qənaət budur ki, Rusiya keçmiş müttəfiqlərinə çox şeyi bağışlaya bilər, lakin Kremlə arxa çevirib bu ölkənin strateji rəqiblərinin, daha dəqiq desək, düşmənlərinin tərəfinə keçənlərin günahından keçmir və ciddi cəzalandırır.

Gürcüstan və Moldovanın acı təcrübəsi və Ukraynada hazırda baş verənlər buna parlaq nümunədir. Görünür, Ukraynada təsəvvür etmirdilər ki, Moskva Ukraynanın Qərblə yaxınlaşmasına belə ciddi reaksiya verə bilər.

O biri tərəfdən Ukrayna siyasi isteblişmentinin səriştəsizliyi və üzdə olan siyasətçilərinin özlərindən hədsiz razılığı Kremldə çoxdan qıcıq doğururdu. Bu səbəblərdən müharibə qaçılmaz idi.

Qeyd etmək lazımdır ki, Ukrayna çox əlverişli coğrafi məkanda, Rusiya ilə Avropanın qovuşuğunda yerləşir, olduqca zəngin təbii sərvətlərə malikdir. Avropanın "taxıl təknəsi" sayılan bu ölkə hətta aqrar sahədə "köhnə qitə"də özünə rəqib tanımır. Qara dənizə çıxışının olması da Ukraynanın strateji əhəmiyyətini xeyli artırır.

Hələ Sovet İttifaqı dönəmində Ukrayna elitası özünü müstəqil dövlət görmək arzusunda idi. Bu ölkəyə xüsusi sıcaq münasibət vardı. Bu, hər şeydə özünü göstərirdi. Keçmiş SSRİ-nin rəsmiləri buna müəyyən qədər loyal, dözümlü yanaşırdılar. Böyük bir dövləti idarə edən Siyasi Büronun azı 2-3 üzvü adətən ukraynalı olurdu. Belarusla bərabər Ukrayna BMT-nin və UNESCO-nun üzvü idi.

Sovet İttifaqı dağılandan sonra Ukrayna seçim qarşısında qaldı: Ya Rusiya və Belarus ilə müttəfiqlik münasibətlərində qalmaq, ya da Avropaya inteqrasiya yolu ilə getmək.

Burada regionda gələcək təxribatlara yol aça biləcək bir gizli məqam də var. Belə ki, Ukraynanın şərqdəki qonşuları – Polşa, Macarıstan və Rumıniya artıq NATO və Avropa İttifaqına üzvdürlər. Ukrayna əhalisi, xüsusilə gənclər ölkənin gələcək inkişaf modellərini Qərbdə görürlər. Vizasız rejim, yüksək həyat səviyyəsi, Avropaya sıx inteqrasiya onlara daha cəlbedici təsir bağışlayır. Beləliklə, Ukrayna ya Rusiya, ya da Qərb dilemması qarşısında qalanda ikincini, yəni Qərbi seçdi.

Bəli, bunu Ukrayna əhalisinin əksər hissəsi arzulayırdı. Təəccüblü və maraqlı cəhət həm də budur ki, bunu Ukraynanın Şərqi Avropadakı qonşuları da arzu edirdilər. Onlar açıq surətdə bunu dilə gətirməsələr də, ümid edirlər ki, Ukrayna və onun ətrafında hərbi və siyasi təbəddülatlar baş verərsə, vaxtilə Stalin tərəfindən qopardılaraq Ukraynaya birləşdirilən torpaqlarını geri ala bilərlər.

Şərqi Avropadakı bu əhvali-ruhiyyə, təbii ki, həm də anti-Rusiya mahiyyəti daşıyır və Kremldə bunu yaxşı başa düşürlər. Bütün bunları nəzərə alaraq, düz iki il əvvəl, məhz bu gün 24 fevralda Moskva tərəfindən onun öz leksikonu ilə desək, Xüsusi Hərbi Əməliyyat başlanıldı və Rusiya Silahlı Qüvvələri Kiyev istiqamətində hücuma keçdilər.

Professor Aydın İbrahimov sonda dedi:

– Bu gün regionda vəziyyət, təqribən, belədir: Kiyev Qərbdən hərtərəfli yardımların artırılmasını tələb edir və bunu qələbə üçün əsas şərt sayır. Rusiya isə yaxın gələcəkdə Ukraynada neonasizm üzərində labüd qələbəsindən dəm vurur. Qərb isə deyir ki, heç bir sülh danışıqları ola bilməz, nəyin bahasına olursa-olsun, müharibə Ukraynanın tam qələbəsi ilə başa çatdırılmalıdır. Sözdə demək asandır, əməldə isə bunu etmək çətindir.

Prussiyanın görkəmli dövlət xadimi, mahir siyasətçi və diplomat Otto fon Bismark deyirdi ki, Rusiya üzərində qələbə qazanmaq çox çətindir, ona görə ki, bu ölkənin geri çəkilmək üçün ərazisi olduqca böyükdür. Çağdaş dönəmdə nəhəng nüvə arsenalına malik olan Rusiyanı geri çəkilməyə məcbur etmək, sadəcə, mümkünsüz görünür.

Sonda demək lazımdır ki, Rusiya–Ukrayna müharibəsinin əsas nəticəsi budur ki, Qərb ilə Rusiya arasında kəskin düşmənçilik yaranıb. Və bu vəziyyət dünya xəritəsində siyasi konfiqurasiyanı dəyişir. Fakt budur ki, dünya böyük dəyişikliklərə hamilədir.

Söhbəti qələmə aldı:
Məsaim ABDULLAYEV
XQ

Azərbaycan Turizm və Menecment Universiteti

aşağıda qeyd olunan vakant vəzifəni tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

Kafedra müdiri:

"Mehmanxana və restoran biznesi" kafedrası

Sənədlər elan qəzetdə dərc olunduğu gündən bir ay ərzində təqdim edilməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Kafedranın profilinə uyğun olaraq ali təhsil, alimlik dərəcəsi və elmi ad haqqında sənədlərin təsdiq olunmuş surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Müvafiq struktur bölmənin inkişafı ilə bağlı kafedra müdirinin platforması.
7. 4x6 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.
8. Şəxsiyyət vəsiqəsinin və dövlət sosial sığorta şəhadətnaməsinin surəti.

Sənədləri bir ay ərzində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Azərbaycan Turizm və Menecment Universitetinin İnsan resursları şöbəsinə təqdim etmək lazımdır. Ünvan – AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi 822/23-cü məhəllə, 103-cü otaq.

Yaranan suallarla bağlı Azərbaycan Turizm və Menecment Universitetinin insan resursları şöbəsinə müraciət etmək lazımdır.. Telefon – 564-42-33 (dax. 115)

Məlumat ATMU-nun web səhifəsində də (www.atmu.edu.az) yerləşdirilmişdir.

Qeyd – kafedra müdiri vəzifəsinə namizədin göstəriciləri vəzifə tələblərinə uyğun gəlmədikdə və ya ərizənin verilmə müddəti bitdikdə sənədlərin qəbulundan imtina olunur.

Rektorluq

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

"Veb əsaslı ictimai xidmətlərin "kiber hücumlardan mühafizəsinin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 11 mart 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu-+994 12- 599 -00- 03 (daxili 3706).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 42 (30446) 24 fevral 2024-cü il, şənbə

Futbol tariximizin "Qarabağ" zəfəri

"Üçüncü hissə"nin qəhrəmanları haqqında qələbə reportajı

Tofiq Bəhrəmov adına Respublika stadionu yenə möhtəşəm futbol ovqatı yaşayırdı. Paytaxtın çiskin və yağışlı havası inadkar futbol azarkeşlərini evdə oturmağa məcbur edə bilməmişdi. Çünki fevralın 22-də 32 minə yaxın azarkeş Azərbaycanı ilk dəfə futbol üzrə Avropa liqasının pley-off mərhələsində təmsil edən və ilk qarşılaşmada Portuqaliyada yerli "Braqa" klubunu 4:2 hesabı ilə darmadağın edən Ağdamın "Qarabağ" klubunun yazacağı yeni tarixə şahidlik etmək və ona dəstəyini göstərmək istəyirdi. Oyun başlamamışdan artıq "Qarabağ!", "Qarabağ!", "Qarabağ!" sədaları stadionda fırtına yaradırdı.

Bolqarıstanlı baş hakim Georgi Kabakovun start fiti səsləndi. Bakıya Braqadakı 4:2 hesablı xəcaləti üstündən götürməyə gələn Artur Jorjenin yetirmələri elə ilk dəqiqələrdən hücuma keçdilər. Portuqaliyalıların qarşısında duran əsas vəzifə 2 qolluq "qandikapı" aradan qaldırmaq idi. Artıq qarşılaşmanın debütündə rəqibin əsas qol silahlarından olan Banza çərimə meydançasının sol küncündən topu çərçivədən kənara vurub ələ vəziyyətdən istifadə edə bilmədi. Matçın 10-cu dəqiqəsinə qədər qonaqlar özlərini lap ev sahibi kimi apardılar. Lakin Qurban Qurbanovun yetirmələri tədricən təşəbbüsü və oyunda mübarizənin əsas elementi olan topu ələ almağı bacardılar. Bir neçə dəqiqədən sonra qarabağlılar mübarizəni meydanın rəqibə aid hissəsinə keçirib hücumların kəsərini daha da artırdılar. Artıq matçın 27-ci dəqiqəsində sol cinahdan maharətlə rəqibini keçən Abdulla Zubir çərçivənin önünə ələ ötürmə etdi. Lakin Juninio real qol vəziyyətini uğura çevirə bilmədi.

Portuqaliyalılar Qurbanovun yetirmələrinə oynamaq üçün imkan verirdilər. Növbəti belə məqamlardan birində - matçın 32-ci dəqiqəsində Andrado braqalı qapıçı ilə təkbətək çıxdı. Lakin qolkiper Mateus qarabağlı forvarda öz imkanını qola çevirmək üçün son zərbəni endirməyə imkan verməyib dueldən qalib ayrıldı və qapısını toxunulmaz saxlaya bildi.

İnsafən, "Qarabağ" klubunun futbolçuları birinci hissədə həqiqətən əzmkar, sürətli və texnikalı oyun nümayiş etdirir, imkan daxilində hesabı tez açmağa çalışırdılar. Lakin hücumlarda səmərəlilik və əksər hallarda topa son uğurlu zərbə endirmək və ya ötürmə etmək mümkün olmurdu. Bir çox hallarda isə anında ötürmə etməkdə ləngimələr topun itirilməsi ilə nəticələnirdi.

Bütün bunlara baxmayaraq, "Qarabağ" daha kəskin hücumlar təşkil edirdi. 36-cı dəqiqədə oyunun ən yaxşılarından olan Veşoviç sağ cinahdan ustalıqla rəqibini aldadıb qapıya güclü zərbə endirdi. Braqanın braziliyalı qapıçısı bu dəfə də "keçilməz" oldu və ələ reaksiya nümayiş etdirdi.

Oyun boyu meydanın kənarından komandasını hücuma səsləyən Artur Jorjenin yetirmələri baş məşqçinin göstərişlərinə baxmayaraq, tez-tez səhvlərə yol verirdilər. 40-cı dəqiqədə qarabağlı hücumçu Juninio yenidən ələ qol vəziyyətini qaçırdı. 41-ci dəqiqədə isə Andrade qapıçı Mateusla dueldən məğlub ayrıldı. Beləcə, Qurban Qurbanovun yetirmələri matçın ilk yarısında bir-birinin ardınca ələ düşən imkanları boşa verib üstünlüklərini qola çevirə və Braqadakı hesabı bir qədər də yaxşılaşdırmağa nail ola bilmədilər.

Etiraf etmək lazımdır ki, matçın ilk hissəsində "Qarabağ"ın oyunçuları Andradonun, Veşoviçin zərbələrini ələ "seyvlər"lə dəf edən rəqib qapıçı Mateus çox etibarlı oynadı. Əgər qolkiperin ustalığı olmasaydı, "Braqa" elə birinci hissədə ən yaxşı halda qapısında 2 qol görəcəkdi. Artur Jorjenin danışıqları isə "Braqa" futbolçularına bir fayda vermirdi.

Fasilədən sonra "Qarabağ" rəqiblərin gözünün odunu almış kimi hücumlarını davam etdirirdi. Açıq görünürdü ki, portuqaliyalılar çox ehtiyatlı oynayır və riskə getmək istəmirlər.

51-ci dəqiqədə ilk qarşılaşmanın qəhrəmanı Zubir sürətlə hücuma keçərək az qala qapıçı ilə təkbətək qalacaqdı. Bu məqamda komanda yoldaşına ötürmə etsəydi, bəlkə də 100 faizli qol vəziyyəti yaranacaqdı. Lakin onun "xəsisliyi" braqalıların xeyrinə oldu. Bundan sonra Veşoviç yenə rəqib qapısının önünə ələ ötürmə etdi. Bu dəfə də Mateus etibarlı oynadı.

Matçın 57-ci dəqiqəsində isə qarşılaşmada vəziyyət tamamilə dəyişdi. "Qarabağ"ın sol kənar müdafiəçisi Elvin Cəfərquliyev əvvəlcə 55-ci dəqiqədə sarı vərəqə aldı. Heç 2 dəqiqə keçməmiş sankı cəzalı olduğunu unudaraq adi bir vəziyyətdə ehtiyac olmadan rəqib meydançasında "Braqa"nın oyunçusuna qarşı çox sərt qayda pozuntusuna yol verdi. Bolqarıstanlı hakim düşünmədən ona ikinci sarı vərəqə və ardınca qırmızı vərəqə göstərib meydançanı tərk etməsini istədi.

"Qarabağ" azlıqda qalandan dərhal sonra "Braqa" sanki bunu gözləyirmiş kimi aramsız hücumlara başladı. "Qarabağ" ancaq 13 dəqiqə rəqibin hücumlarına tab gətirə bildi. Matçın 70-ci dəqiqəsindən komanda yoldaşı Brunodan sağ cinahdan ələ ötürmə alan Fernandeş topu effektli zərbə ilə Lunyovun qoruduğu qapının sol küncdən tora qovuşdurdu - 0:1. Bu "Braqa" futbolçularının ev sahiblərinin qapısına endirdiklər yalnız 2-ci zərbə idi və bu da qolla nəticələndi.

"Qarabağ"ın azlıqda qaldığını və bütün qüvvəsilə müdafiəyə çəkildiyini görən Artur Jorje bir-birinin ardınca dəyişikliklər edib meydancaya yeni hücuma meyilli futbolçular buraxdı. Oyunun son 20 dəqiqəsində qonaqlar var gücləri ilə hücuma keçdilər və hətta bir qol vura bildilər. Lakin bu dəfə VAR "Qarabağ"ın köməyinə gəldi və Ruisin vurduğu qolu hesaba almadı, o, topu əllə saxlamışdı.

Futbolçularımız həqiqətən çox dramatik vəziyyətə düşmüşdülər. Elə buna görə də "Braqa" istədiyinə nail oldu və 83-cü dəqiqədə Calo sol cinahdan ələ qövsvari zərbə ilə hesabı 2:0 etdi. İlk baxışdan "Qarabağ"ın finala çıxmaq ümidi dəqiqələr getdikcə əriyirdi. Hər şey tərsinə çevrildi. Mənə elə gəlirdi ki, vaxt da, meydandakı hakimlər də "Qarabağ"ın əleyhinə işləyirlər. 90 dəqiqə başa çatanda sanki stadiondakı tamaşaçıların da qəlbində ümid işığı bir qədər artdı. İndi ümumi hesab 4:4 idi və finalın qalibi əlavə vaxtda müəyyənləşəcəkdi.

Portuqaliyalılar "ekstrataym"a da aramsız və kəskin hücumlarla başladılar. Adama elə gəlirdi ki, "Qarabağ"ın bəxti yatıb. Lakin Qurban Qurbanovun əvəzləmələrindən sonra qarabağlılar əks-hücum şanslarını qaçırmırdılar. Bu, risk idi. Amma başqa çıxış yolu yox idi.

Rəqib oyunçu meydançaya yeni daxil olmuş braziliyalı hücuma meyilli müdafiəçimiz Mateus da Silvaya qarşı çox kobud oynadı. Hakimin təyin etdiyi cərimə zərbəsini vurmağa bu qarşılaşmanın bəlkə də ən yaxşısı olan Yankoviç yaxınlaşdı və topu qapı meydanına vurdu. Rəqib oyunçunun qaytardığı topu Mateus da Silva ələ keçirib güclü zərbə ilə təkrar qapıya göndərdi. Bu dəfə qapıçı Mateus rəqib həmyerlisinin topunu qaytarmaqda aciz qaldı. Stadion büsbütün ayağa qalxdı. "Ekstrataym"ın 12-ci, oyunun 102-ci dəqiqəsi "Qarabağ"-1, "Braqa"- 2. Bu hesab "Qarabağ"ı 1/8 finala çıxarırdı, əlbəttə, əgər yeni sürpriz olmasaydı.

Portuqaliyalıların iki oyunluq qarşılaşmada həm qalib olmağa, həm də 1/8 finala çıxmağa 20 dəqiqəsi qalırdı. Deyəsən, onlar istədiklərinə çatırdılar. "Ekstrataym"ın ikinci hissəsində, matçın 115-ci dəqiqəsində oyunun ən fədakar müdafiəçisi Bəhlul Mustafazadə cərimə meydançasında rəqibi ciddi qayda pozuntusu ilə saxladı. Hakim 11 metrlik nöqtəni göstərdi. Banza özü bu penalı qola çevirdi – 1:3.

Daha neyləmək olardı? Oyun sona yaxınlaşırdı. Yorulsalar da, fədakarlıqları ilə heyranlıq doğuran futbolçularımız bütün imkanlarını səfərbər etmişdilər. Yenə Yankoviç diqqət mərkəzinə düşdü. İki rəqibindən sıyrılan yarımmüdafiəçimizə qarşı rəqib çox sərt oynadı. Vaxt gedirdi, "ekstrataym"a əlavə edilmiş 4 dəqiqənin də 2 dəqiqəsi başa çatırdı. Yankoviç yerdən qalxmamış kapitan Bədavi Hüseynov hakimin göstərdiyi nöqtədən topu meydana 108-ci dəqiqədə daxil olmuş 19 yaşlı Nəriman Axundzadəyə atdı. Nəriman soyuqanlılıqla rəqib müdafiəçisini aldadıb topu qapının sağ küncünə vurdu. Q-o-o-o-o-l!

Stadion uğuldadı. Bu, sanki, Bakı səmasına yüksələn "Qarabağ" zəfərinin sevinc simfoniyası idi. Əlavə vaxtın qəhrəmanları Mateus da Silva və Nəriman Axundzadə Qələbəyə bərabər məğlubiyyətlə Azərbaycan futbolunun yeni tarixinə imza atdılar. "Bu fantastikadır!" – rusiyalı futbol icmalçısının heyrət içində dediyi bu sözlərə nə əlavə edəsən? Bu, həqiqətən, fantastika idi! Amma Azərbaycan futbolunun gerçəyə çevirdiyi fantastika!



Beləliklə, "Qarabağ" ümumi hesabda 6:5 hesabı ilə qalib gələrək qitə liqasında 1/8 finala yüksələn ilk Azərbaycanın komandası kimi futbol tariximizə düşdü. Komandamızın bu mərhlədə qarşılaşacağı rəqib dünən İsveçrənin Nion şəhərində kerçirilən püşkatma mərasimində məlum oldu. "Qarabağ" martın 7-si və 14-də Almaniyanın "Bayer" klubu ilə qarşılaşacaq. Komandamız artıq qrup mərhələsində bu rəqiblə qarşılaşmışdı və hər iki oyun Xabi Alonsonun yetirmələrinin qələbəsilə başa çatmışdı. "Qarabağ" bu dəfə öz gücünü sübut edə biləcəkmi?

İlqar RÜSTƏMOV
XQ

Dünyanın ən güclü gimnastları Bakıda

Bakıda Milli Gimnastika Arenasında batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışı başlayıb.

Fevralın 23-də yarışın açılış mərasimində əvvəlcə komandaların paradı olub.

Mərasimdə çıxış edən Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini Mariana Vasileva son illərdə batut gimnastikası və tamblinq növü üzrə təmsilçilərimizin qazandıqları uğurlardan danışıb.

Nazir müavini ölkəmizdə idmanın inkişafına göstərilən xüsusi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və respublikamızın birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.

Batut gimnastikası və tamblinq üzrə Dünya kubokunun Azərbaycanda yeddinci dəfə təşkil olunduğunu deyən M. Vasileva Paris Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan budəfəki yarışda 32 ölkəni təmsil edən gimnastların mübarizə aparacağını qeyd edib.

O, Dünya kubokunun bütün iştirakçılarına Gənclər və İdman Nazirliyi adından uğurlar arzulayıb. Nazir müavini yarışı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd edək ki, batut gimnastikası və tamblinq üzrə Dünya kubokunda, ümumilikdə, 32 ölkədən 300 gimnast mübarizəyə qoşulub. Batut gimnastikası üzrə yarışda Azərbaycan milli komandasının üzvləri qadınlar arasında Dünya kubokunun gümüş mükafatçısı, FIG kubokunun sahibi Selcan Mahsudova (fərdi çıxış), kişilər arasında dünya yaş qrupları yarışlarının qalibi Hüseyn Abbasov (fərdi və sinxron çıxışlar), beynəlxalq turnirlərin qalibləri Nicat Mirzəyev (fərdi və sinxron çıxışlar) və Mehdi Əliyev (fərdi çıxış) təmsil edir.

Tamblinq üzrə yarışda Avropa və ikiqat dünya çempionu Mixail Malkin, komanda hesabında dünya çempionları Adil Hacızadə və Tofiq Əliyev, gənclər arasında Avropa çempionatının komanda hesabında bürünc mükafatçısı Bilal Qurbanov çıxış edəcək.

Yarışların ilk iki günündə kişilər və qadınlar arasında təsnifat mərhələləri, sonuncu gün isə final mərhələləri təşkil olunacaq.

L.QURBANOVA
XQ

Hava

Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecə və axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağıntılı olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 1-3°, gündüz 4-6° isti olacaq. Atmosfer təzyiqi 773 mm civə sütunundan 776 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.Havanın temperaturu gecə 1-4°, gündüz 4-7° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 1°-dək isti olacaq.

Q.QASIMOV
XQ

✓ 2023- cü ildə Bakı Texniki Kolleci tərəfindən Abdullazadə Emin İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Sahib Vəliyev, Şəmsiyyə Vəliyeva, Leyla, Seyid, Tacir və İlqar Vəlizadələr Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin sosial-siyasi elmlər kafedrasının müdiri, professor Xaləddin Sofiyevə qardaşı

ƏLƏDDİN MÜƏLLİMİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi iş yoldaşları İradə Hacıyevaya bacısı

MEHRİBAN XANIMIN

vəfatından kədərləndiklərini bildiriir və dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin kollektivi Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğluya əzizi

FƏRQANƏ XANIMIN

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3805
SİFARİŞ 406
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00